# AZƏRBAYCAN TARİXİ 7



İxtisas redaktoru: **Tofiq Hümbət oğlu Nəcəfli,**
*tarix üzrə fəlsəfə doktoru*
Dil redaktoru: **Aida Quliyeva**

**Mahmudlu Y., Ağayev S., Xubyarov B., Əlişova H., Hüseynova L., Bəhrəmova S.**

**M31 Azərbaycan tarixi.** Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı, «Təhsil», 2014, 128 səh.

**Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.**

**© Azərbaycan Respublikası
Təhsil Nazirliyi, 2014**

## DƏRSLİKDƏ İSTİFADƏ OLUNMUŞ ŞƏRTİ İŞARƏLƏR


– **Düşünək**

– **Mənbələr**


– **Tapşırıq**


– **Maraqlı məlumat**


– **Açar sözlər**


– **Lüğət**

YAQUB MAHMUDLU, SABİR AĞAYEV,
BABƏK XUBYAROV, HƏCƏR ƏLİŞOVA,
LEYLA HÜSEYNOVA, SEVİL BƏHRƏMOVA

# AZƏRBAYCAN TARİXİ

*Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün*
**DƏRSLİK**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.2014-cü il tarixli 869 №-li əmri ilə təsdiq edilmişdir.*

BAKI—2014

İxtisas redaktoru: **Tofiq Hümbət oğlu Nəcəfli,**
*tarix üzrə fəlsəfə doktoru*
Dil redaktoru: **Aida Quliyeva**

**Mahmudlu Y., Ağayev S., Xubyarov B., Əlişova H., Hüseynova L., Bəhrəmova S.**

**M31 Azərbaycan tarixi.** Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı, «Təhsil», 2014, 128 səh.

**Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2014**

## DƏRSLİKDƏ İSTİFADƏ OLUNMUŞ ŞƏRTİ İŞARƏLƏR


– **Düşünək**


– **Mənbələr**


– **Tapşırıq**


– **Maraqlı məlumat**


– **Açar sözlər**


– **Lüğət**



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

# KİTABIN İÇİNDƏKİLƏR

## AZƏRBAYCAN MÜSTƏQİL DÖVLƏTÇİLİYİN DİRÇƏLİŞİ ƏRƏFƏSİNDƏ

1. Feodal münasibətlərinin inkişafı ....................................7
2. Azərbaycan—Albaniya hökmdarı Cavanşir ...............................10
3. İslam dininin qəbul olunması ........................................14
4. Babəkin başçılığı altında azadlıq hərəkatı .........................18

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN DİRÇƏLİŞİ

5. Müstəqil dövlətçilik ənənələrinin dirçəlişi ........................23
6. Azərbaycan vahid dövlət tərkibində ..................................28
7. Xudafərin körpüsünün birləşdirdiyi iki Azərbaycan dövləti .....33
8. Slavyanların hücumları ..............................................38
9. Əhalinin məşğuliyyəti və həyat tərzi ................................43
10. IX—XI əsrlərdə Azərbaycan mədəniyyəti ..............................48

## OĞUZ-SƏLCUQ AXINLARI VƏ AZƏRBAYCAN

11. Oğuz-səlcuq axınları ...............................................55
12. Xalqımızın formalaşması prosesinin başa çatması ...................60
13. Səlcuq sarayından müstəqil hakimiyyətə .............................65
14. İntibah mədəniyyəti ................................................70

## SƏLTƏNƏT UĞRUNDA MÜBARİZƏ

15. Monqollar Azərbaycanda .............................................76
16. Monqolların üçüncü yürüşündə yaranmış dövlət .......................81
17. Azərbaycan uğrunda mübarizə ........................................86
18. Hökmdarın müdrikliyi və yerli hakimin inadlı mübarizəsi .....89
19. Yadellilər mədəniyyətimizin inkişafını dayandıra bilmədi ...........94

## VAHİD AZƏRBAYCAN UĞRUNDA

20. Qaraqoyunlu dövləti ................................................99
21. Ağqoyunlu Uzun Həsənin dövlət siyasəti ............................105
22. Ağqoyunlu dövlətini süquta aparan yol .............................110
23. Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti ........................117
24. Azərbaycan mədəniyyəti ............................................123
Mənbələr .............................................................127
İstifadə olunmuş ədəbiyyat ...........................................127

# ƏZİZ DOST!

Sən artıq Azərbaycanın qədim dövr tarixini öyrənmisən. Bu dərslikdə isə Vətənimizin orta əsrlər tarixi ilə tanış olacaqsan. Tariximizin bu mərhələsi iqtisadi-siyasi inkişafla, mədəni yüksəlişlə səciyyələnir. Orta əsrlər dövründə yeni sosial-iqtisadi münasibətlər formalaşdı, mərkəzləşmiş dövlətimiz yarandı.

Azərbaycan Sasani və ərəb işğallarına məruz qaldığı dövrlərdə də müstəqil dövlətçilik ənənələrimiz qorunub saxlandı. Yadelli işğalları Azərbaycan xalqının yaranması prosesini dayandıra bilmədi. İşğalçıların yerli əhalini assimilyasiyaya uğratmaq siyasətinə baxmayaraq, ölkənin çoxsaylı türk əhalisi ilə qeyri-türk əhalisi arasında etnik-siyasi və mədəni birlik daha da möhkəmləndi. Vahid Azərbaycan xalqının yaranması prosesi başa çatdı. «Dəmirqapı»— Dərbənddən Zəncana və Həmədana qədər böyük bir regionda vahid dövlətin yaranması Qafqazda türklərin əsas etnik amilə çevrilməsinin nəticəsi idi. IX əsrdən etibarən müstəqil dövlətçilik ənənələrimizin dirçəlməsi mədəni intibahla nəticələndi.

Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər, Hülakülər (Elxanilər), Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər və digər dövlətlər xalqımızın tarixində müstəsna rol oynadılar. 7-ci sinif «Azərbaycan tarixi» dərsliyi qonşu ölkələrlə və Avropa dövlətləri ilə geniş iqtisadi-siyasi əlaqələr yaradan bu dövlətlərin dünya dövlətləri içərisində yerini və nüfuzunu müəyyən etməkdən ötrü sənin üçün maraqlı axtarışlara zəmin yaradacaqdır. Bu dərslik Azərbaycanın V—XVI əsrlər tarixinin ən önəmli hadisə və proseslərini öyrənib tədqiq etməkdə sənə geniş imkanlar açacaqdır.

> **Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.**
>
> **— Heydər ƏLİYEV**

# AZƏRBAYCAN MÜSTƏQİL DÖVLƏTÇİLİYİN DİRÇƏLİŞİ ƏRƏFƏSİNDƏ

## 1. FEODAL MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI





*Şəkildəki insanların məşğuliyyəti, sosial vəziyyəti, həyat tərzi haqqında nə deyə bilərsən? Fikirlərini qeyd et.*

VI əsrin əvvəllərində Azərbaycanda feodal münasibətləri inkişaf edirdi. Kənd icmalarının torpaqları feodalların əlinə keçirdi. Əkilib becərilməsi çətinlik törədən torpaqlar isə sahibsiz qalırdı. Torpaqsız qalan icma üzvləri asılı kəndlilərə çevrilirdilər.

Azərbaycanın cənub torpaqlarında — Atropatenada feodal münasibətlərinin inkişafına Sasani şahı I Xosrov Ənuşirəvanın islahatları da təsir göstərdi. O, sahibsiz torpaqları hərbçilərə payladı və vergilərin toplanmasını nizama saldı. Bununla da vergiyığan məmurların özbaşınalığına son qoyuldu. Uşaqlar, qadınlar, kahinlər, məmurlar can vergisindən azad edildilər.

Feodal, islahat, can vergisi, hərbçi, mirzə, xostak, dastakert, natural təsərrüfat

Səncə, torpaqların hərbçilərə paylanmasında məqsəd nə idi? Fikrini bildir.

**Erkən orta əsrlərdə torpaq mülkiyyəti formaları**

**Dastakert (irsi torpaq mülkiyyəti)**

**Xostak (şərti torpaq mülkiyyəti)**

***Tapşırıq***

Xəritədə Albaniyanın vilayətlərini müəyyən et.

Natural təsərrüfatın mahiyyətini necə başa düşürsən?

***Tapşırıq***

Yaşadığın ərazidəki tarixi abidələrin tikildiyi dövr haqqında araşdırma apar.

**AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ**




I Xosrovun islahatları şərti torpaq mülkiyyətini genişləndirdi, xırda və orta torpaq sahiblərinin sayı artdı.

Kəndlilərin istismar edilməsinin əsas forması vergilərin ödənməsi və mükəlləfiyyətlərin icrası idi. Kəndlilərlə yanaşı, sənətkarlar və tacirlər də vergi ödəyirdilər. Kahinlər, hərbçilər, mirzələr isə cəmiyyətin hakim təbəqəsi sayılırdı. Zərdüştlük dininin hakim mövqe tutması kahinlərin də varlanmasına səbəb olmuşdu.

Ölkədə körpülər, qalalar, yollar dövlət mülkiyyətində idi. Onların tikintisində və bərpasında kəndlilər məcburi işlədilir, əvəzində onlara heç nə ödənilmirdi.

Azərbaycanda feodalizmin əsas xüsusiyyətlərindən biri təsərrüfatın natural forması idi. Kəndlilər özlərinin və feodalın tələbatını ödəmək üçün müxtəlif ərzaq məhsulları, sənətkarlıq malları tədarük edir, bazara mal çıxarmırdılar. Beləliklə, məhsul mübadiləsinə çox az hallarda ehtiyac duyulurdu. Natural təsərrüfat ayrı-ayrı bölgələr arasında iqtisadi

münasibətlərin yaranmasına mane olurdu.

***Azərbaycanda və Avropada feodal münasibətləri***

| | **Azərbaycan** | **Avropa** |
|---|---|---|
| Mövcud olduğu dövr | III əsrdən — XIX əsrin II yarısına qədər | V əsrdən XVII əsrin ortalarına qədər |
| Kəndlilərin vəziyyəti | Kəndlilər təhkimli deyildilər | Kəndlilər təhkimli idi, yəni feodallardan şəxsən asılı idilər |
| Feodalların təsərrüfatı | Feodalların şəxsi təsərrüfatı, demək olar ki, yox idi. Çünki Azərbaycanda olan suvarma sistemini yaratmaq böyük zəhmət tələb edirdi. | Feodalların xüsusi təsərrüfatları var idi |

V—VII əsrlərdə Albaniya və Atropatenada feodal münasibətləri eyni cür inkişaf edirdi. Sasani hökmdarları Azərbaycanın şimal torpaqlarına farsdilli tayfalar köçürüb məskunlaşdırmışdılar. Onların məqsədi farsdilli tayfaların köməyi ilə Azərbaycanda güclənmək və özlərinə dayaq yaratmaq idi. Lakin farsdilli tayfalar türk dilinin və mədəniyyətinin təsiri ilə çoxsaylı yerli türk tayfaları ilə qaynayıb-qarışır, vahid xalqın formalaşmasında iştirak edirdilər.

1. *Kəndlilər hansı formada istismar edilirdilər?*
2. *Səncə, nəyə görə natural təsərrüfat bölgələr arasında iqtisadi münasibətlərə mane olurdu?*
3. *Şərti torpaq mülkiyyəti necə yarandı?*

1. *Azərbaycanda feodal münasibətlərinin inkişafının səbəblərini müəyyən et.*
2. *«Azərbaycanda və Avropada feodal münasibətləri» sxeminə əsasən müəyyən et: a. Feodal münasibətləri hansı ərazilərdə daha sürətlə inkişaf etmişdir? b. Səncə, Azərbaycanda hansı səbəbdən feodalların xüsusi təsərrüfatı olmurdu? Fikrini faktlarla əsaslandır.*
3. *Yaşadığın ərazidə (şəhərdə, rayonda, qəsəbədə, kənddə) olan tarixi abidələr haqqında məlumat topla.*

# 2. AZƏRBAYCAN-ALBANİYA HÖKMDARI CAVANŞİR



Murad hər gün məktəbə anası ilə gedir. Onun anası tarix müəllimidir. Onların yolu Cavanşir körpüsündən keçir. Bir gün Murad bu körpünün adı barədə anasına sual verdi. Cavanşirin kim olduğu ilə maraqlandı. Anasının bu suala cavabı hazır idi. Yəqin, ananın cavabı sənə də maraqlıdır.

*Səncə, Muradın anası Cavanşirin kim olduğunu necə izah etdi? Onun deyə biləcəyi fikirləri müzakirədən sonra dəftərinə qeyd et.*

*Ananın cavabını bilmək üçün çox mürəkkəb siyasi dövr olan VII əsr haqqında məlumatları araşdırmaq vacibdir.*

Mehranilər, Cavanşir, Hun keçidi, xəzərlər, Bizans

***Bərdə paytaxt oldu.*** VII əsrin əvvəllərində Azərbaycanın şimalında — Albaniyada Mehranilər sülaləsinin hökmranlığı başlandı. Bu sülalə hakimiyyətini Albaniyanın Girdiman vilayətində qurmuşdu. Sonralar Mehranilərin hakimiyyəti bütün Albaniya dövlətini əhatə etmiş, mərkəzi isə Partav şəhəri (indiki Bərdə şəhəri) olmuşdur. Sülalənin banisi Mehran idi. O, mənsub olduğu sabirlər adlı türk tayfaları ilə birgə Girdiman vilayətində məskunlaşdı. Burada Mehrəvan şəhəri salındı.



*Orta əsr Bərdə şəhərində kanalizasiya xətti*

***Cavanşirin daxili və xarici siyasəti.*** Mehranilərin ən böyük nümayəndəsi Azərbaycanın görkəmli

dövlət xadimi, sərkərdə Cavanşir olmuşdur. Cavanşir ölkənin daxili sabitliyini təmin etməklə yanaşı, uğurlu xarici siyasət yeridirdi. Bizans və Xəzər dövlətləri ilə münasibətləri qaydaya salmaq, dinc quruculuq işlərini həyata keçirmək Cavanşirin xarici və daxili siyasətinin əsas istiqamətləri idi.

VII əsrin 30-cu illərində Albaniya hələ Sasani imperatorluğundan yarımasılı vəziyyətdə idi.



*Azərbaycan-Albaniya hökmdarı Cavanşir. Heykəltəraş Fuad Əbdürrəhmanov*

Bu səbəbdən də Albaniya hökmdarı və onun oğlu Cavanşir ərəblərə qarşı Sa sanilərin tərəfində vuruşurdu. Gənc sərkərdə Cavanşir döyüşlərdə igidliyi ilə fərqlənirdi. Lakin apardığı mübarizənin öz ölkəsi üçün mənasız olduğunu görən Cavanşir vətəninə qayıtdı.

Doğma Vətənin təhlükəsizliyini təmin etmək üçün atası Cavanşiri 642-ci ildə hökmdar taxtına oturtdu. Albaniya tarixçi-salnaməçisi Musa Kalankatlmm yaz dığına görə, Cavanşir İberiya* sərhədlə rindən Hun keçidinə* və Araz çayına qə dər ərazilərdə hökmranlıq etmişdir.

***Müdrik siyasətin nəticəsi.*** 651-ci ildə Sasani imperiyası süqut etdi. Bu zaman Cavanşir ərəb təhlükəsi qarşısında olduğunu nəzərə alaraq Bizans imperatoru ilə ittifaqa girdi. Bizans imperatoru II Konstantinlə Cavanşir görüşdə ərəb 1 ərə qarşı birgə mübarizə yollarım müzakirə etdilər.

Nəyə görə bu
siyasətə «nikah
diplomatiyası* adı
veriblər? Fikrini
bildir.

Cənubda Azərbaycan Atropatena dövlətinin əraziləri ərəblər tərəfindən işğala məruz qaldığı bir vaxtda şimaldan xəzərlərin Albaniyaya hücumları baş verdi. Yürüşlərin birində Cavanşirin qoşunları xəzərləri məğlub edib ölkədən çıxara bildi. Lakin onların sonrakı yürüşləri daha güclü olduğundan Cavanşir Xəzər xaqanı ilə sülh bağladı və xaqanın qızı ilə evləndi. Bu «nikah diplomatiyası* ilə Albaniya hökmdarı ölkəsinin mə 1 nafeyini qorudu. Sülhün şərtlərinə görə, Albaniya dövləti hər il xəzərlərə xərac verməli, bunun əvəzində isə bütün əsirlər və ələ keçirilmiş mal-qara geri qaytarılmalı idi.

VII əsrin 60-cı illərində Xilafətdə Əməvilər sülaləsinin nümayəndələri hakimiyyətə gəldi.

***İberiya** — Cənub-qərbi Gürcüstanda tarixi vilayət*
***Hun keçidi** — Dərbənd keçidinin adlarından biri*

ALBANİYA VII əsrdə




***Tapşırıq***

Albaniyanın mühüm strateji mövqeyə malik olduğunu müəyyən et.

Əməvilər müharibələri gücləndirdilər. Bizans bu müharibələrdə zəiflədi. Albaniya tək likdə çoxsaylı ərəb qoşunları ilə döyüşdə uğur qazana bilməzdi. Şimaldan xəzərlərin yürüşü, cənubdan isə iran feodallarının hücumu Cavanşirin Xilafətə qarşı münasibətini dəyişdi.

Albaniya hökmdarı Xilafətlə münasibətləri diplomatik yolla nizama salmağı qərara aldı. 667-ci və 670-ci illərdə iki dəfə Dəməşq şəhərinə gedərək Ərəb xəlifəsi Müaviyə ilə görüşdü. Danışıqlar uğurla nəticələndi. Xəlifə Azərbaycan Albaniya dövlətinin daxili müstəqilliyinə toxunmadı. Cavanşirin xahişi ilə əhalidən alınan vergilərin üçdə bir hissəsi azaldıldı. Xəlifənin güzəştə getməsinin bir neçə səbəbi vardı. Albaniya hərbi-strateji və coğrafi mövqeyinə, zəngin sərvətlərinə görə böyük əhəmiyyətə malik idi. Eyni zamanda mənbələrdə qeyd edildiyi kimi, Cavanşirin şəxsi nüfuzu və dərin biliyi xəlifəni heyrətə salmışdı.

Cavanşir uzaqgörən xarici siyasəti ilə Azərbaycanın şimal torpaqlarını — Albaniyanı Ərəb xilafətinin, Bizansın, Sasanilərin və xəzərlərin işğallarından xilas etdi. Ölkədə təsərrüfatın və mədəniyyətin inkişafına şərait yarandı. Cavanşir paytaxtın abadlığına diqqət yetirdi, alimləri, şairləri himayə etdi. O, mərkəzi hakimiyyəti möhkəmləndirməyə çalışırdı. Lakin müstəqilliyə can atan bizanspərəst feodallar sui-qəsd təşkil edərək 681-ci ildə Cavanşiri qətlə yetirdilər. Onun varisləri isə Albaniyanın müstəqilliyini qoruya bilmədilər. 705-ci ildə ərəblərin hücumu nəticəsində Albaniyanın daxili müstəqilliyi ləğv edildi. İdarəçilik xəlifənin təyin etdiyi canişinə tapşırıldı.

Sən hökmdar olsaydın, belə bir çətin vəziyyətdə hansı addımlar atardın? Sinif yoldaşlarınla müzakirədən sonra fikrini dəftərinə yaz.

1. *Girdiman dövlətinin əsası nə zaman qoyuldu?*
2. *Cavanşirin hakimiyyətə gəldiyi dövrdə ölkədə vəziyyət necə idi?*
3. *Albaniyanın süqutunu sürətləndirən səbəb nə idi?*

1. *Cavanşirin xarici siyasətinin istiqamətlərini müəyyənləşdir.*
2. *Cavanşirin Azərbaycan-Albaniya hökmdarı olduğunu əsaslandır.*
3. *Cavanşiri Ərəb xilafəti ilə danışıqlara vadar edən səbəbləri müəyyənləşdir.*

**1 Ağvan hökmdarı Cavanşirin hökmranlığı; iranlıların basılması**

... ərəblər qalxanlarını birləşdirib İran qoşunlarını darmadağın etmək üçün özləri qabaqcadan hücuma keçdilər.

Albaniya sərkərdəsi Cavanşir öz igid döyüşçüləri ilə onların səfləri içərisinə soxulub düşmənlərdən ikisini yerə sərdi, özü üç ağır yara aldı, atı isə dörd yerdən yaralandı. Düşmən onu ... Fərat çayınadək təqib etdi, o isə həmləleri dəf edərək çayı üzüb keçdi. Onun üst-başı qan içində idi, ... Şaha Cavanşirin şücaətindən və aldığı ağır yaralardan danışanda şah deyilənləri dəbdəbə ilə qəbul edib əmr etdi ki, ona şah sarayında yer ayırıb yanına həkimlərini göndərsinlər.

... bir qədər sağalandan sonra Cavanşir şahın yanına gəldi... şah onun belinə mirvari ilə işlənmiş qızıl kəmər və qızıl saplı qılınc bağladı...

# 3. İSLAM DİNİNİN QƏBUL OLUNMASI



Azərbaycan dili dərsi idi. Şagirdlər sözün mənşəyi barədə müzakirələr aparırdılar. Müəllimin «Adlarınızın mənasını bilirsinizmi?» — sualı sinfi daha da canlandırdı. Şagirdlər arasında ən çox diqqəti cəlb edən Minarənin adı idi. Minarə adının ərəb mənşəli olduğunu bildirdi. Müəllim Minarənin fikrini təsdiqləyərək dedi ki, dilimizdə ərəblərdən keçmə çoxlu adlar və sözlər var.

*Səncə, dilimizdə ərəb mənşəli sözlərin olmasına səbəb nədir? Bunun tariximizlə bağlılığı vardırmı? Bu mövzu barədə müzakirə aparıb dəftərinizə yazın.*

Bədəvilər, xəzərlər, humanizm, ehkam, tanrıçılıq

***Tapşırıq***
Ərəblərin yürüşü ərəfəsində Azərbaycandakı vəziyyəti şərh edin.

***Tapşırıq***
Xəritəyə əsasən Savalan dağının yerləşdiyi ərazini müəyyən edin.

***Din bayrağı altında işğal.*** VII əsrin 40-cı illərində ərəb qoşunları Azərbaycana yürüşə başladılar. Sasani imperiyası dağıldıqdan sonra ərəblər Azərbaycanın işğalını genişləndirdilər. Ölkənin cənub torpaqlarının — Atropatenanın işğalı zamanı Ərdəbildə ciddi müqavimətlə rastlaşdılar. Burada da qələbə qazanan ərəblər şimala — Azərbaycan Albaniya dövlətinin ərazisinə doğru irəlilədilər.

VII əsrdə Azərbaycan uğrunda ərəblərlə xəzər türkləri arasında başlayan müharibələr VIII əsrdə daha da şiddətləndi. Ərəblər Azərbaycanda möhkəmləndikdən sonra xəzərərə qarşı daha mütəşəkkil müharibəyə başladılar. Buna baxmayaraq, döyüşlərdə hərbi üstünlük gah xəzərlərin, gah da ərəblərin əlinə keçirdi.

Növbəti hücum zamanı xəzərlər ərəbləri sıxışdıraraq Ərdəbilə çatdılar. Onlar Savalan dağı yaxınlığında ərəb ordusuna qalib gəldilər. Daha sonra xəzərlər Diyarbəkiri və Mosulu ələ keçirdilər. Xəlifə köməyə böyük bir ordu göndərdi. Ərəb ordusu Van gölü yaxınlığındakı Hilat şəhəri ətrafında xəzərlərin hücumunu dayandıra bildi. Hərbi üstünlüyü ələ keçirən ərəblər xəzərləri Azərbaycandan çıxartdılar. Bu hadisədən sonra xəzərlər ərəblərlə sülh bağladı.

Onların bir hissəsi İslam dinini qəbul etdi.

Xəzər—ərəb müharibələri Azərbaycana hədsiz dağıntı və fəlakət gətirdi. Təqribən yüz ilə yaxın davam edən bu müharibələr VIII əsrin sonlarında başa çatdı.

Əhali yadellilərin dağıdıcı basqınlarından, Bizans—Sasani müharibələrindən də hədsiz dərəcədə əziyyət çəkmişdi. Ona görə də yadelli ərəblər əhalinin güclü müqaviməti ilə qarşılaşdılar. Cənubda Ərdəbil, şimalda isə Bərdə şəhərinin əhalisi daha ciddi müqavimət göstərirdi.

İslam bayrağı altında hücuma keçən ərəblər yerli əhali ilə mülayim davranırdı. İnsanların şəxsiyyətinə və əmlakına toxunmur, adət-ənənələrə hörmətlə yanaşırdılar. Ərəblərin hücumu ərəfəsində Azərbaycanda müxtəlif dini etiqadlar mövcud olduğu üçün ümumi düşmənə qarşı birlik və siyasi sabitlik mümkün deyildi. Azərbaycan əhalisi isə yalnız vahid din ətrafında birləşərək siyasi sabitliyə və milli birliyə nail ola bilərdi. Beləliklə, Azərbaycanda sabitlik bərqərar oldu.

**İslam bayrağı altında.** İslam dini humanist və ədalətli dindir. İslam qanunları insanları pis əməllərdən çəkindirir, halal zəhmətlə yaşamağa, daim öyrənməyə, elmə, biliklərə yiyələnməyə çağırır.

*Kəbə*

***Tapşırıq***
İslam dini haqqında nə bilirsən? Sinifdə kiçik müzakirə aparın.

***Tapşırıq***
Xalqımızın qədim adət-ənənələri haqqında bildiklərinizi müzakirə edin.



İslam dini Azərbaycanın cənub torpaqlarında, şimalda isə — Muğanda, Mildə və digər bölgələrdə nisbətən sürətlə yayılırdı. Qədim türklərin təkallahlı dininin — Tanrıçılığın — tək Tanrıya sitayişin güclü olduğu bu yerlərdə əhali İslamı rəğbətlə qarşılayırdı. Yoxsul təbəqədən olanlar İslamı tərəddüdsüz və könüllü qəbul edirdilər. Lakin Albaniyanın qərbində — xristian dininin nisbətən geniş yayıldığı bəzi dağlıq və dağətəyi yerlərdə isə yeni dinin yayılması prosesi ləng gedirdi.

## AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİNİN TƏRKİBİNDƏ




***Tapşırıq***
«Azərbaycanda İslamın yayılması» adlı hekayə qur.

Ərəb işğalları və İslam dininin Azərbaycanın bütün ərazisində yayılması əvvəlki dinləri tam sıxışdırıb çıxara bilmədi. Lakin İslam dininin yayılması xalqın taleyində misilsiz dönüş yaratdı. İqtisadi və siyasi sabitlik yarandı. Bu sabitlik təsərrüfatın canlanmasına və Azərbaycan mədəniyyətinin inkişafına təkan verdi. İslamaqədərki mədəniyyət məzmununu dəyişərək yeni keyfiyyət qazandı.

İslam dininin qəbul olunması nəticəsində ölkə əhalisinin əksəriyyətini təşkil edən çoxsaylı türk tayfaları ilə qeyri-türk əhalinin qaynayıb-qarışması prosesi daha da sürətləndi. Bu, vahid Azərbaycan xalqının və Azərbaycan türk dilinin formalaşması prosesinə müsbət təsir göstərdi.



*Xəzər-ərəb müharibəsi (qədim şəkil)*

Hazırda Azərbaycan əhalisinin əksəriyyəti hansı dinə etiqad edir? Xalqımız müxtəlif dinlərə tolerant* yanaşırmı? Münasibətini bildir.

Beləliklə, İslamın dəyərlərindən Azərbaycan xalqı da faydalandı. Ölkə ərazisinin böyük hissəsində dini birliyin yaranması vahid adət-ənənələrin formalaşmasına səbəb oldu. Azərbaycanın İslam dünyası ilə əlaqələri genişləndi. Xalqımız ümumislam mədəniyyətinin və müsəlman intibahının inkişafında mühüm rol oynadı.

1. *Ərəb istilalarının hansı nəticələri olmuşdu?*
2. *Orta əsrlərdə din birliyi olmadıqda hansı hadisələr baş verə bilərdi?*
3. *Nəyə görə İslam dini atəşpərəstlik dinini sıxışdıra bildi?*
4. *Türk xalqlarının mədəniyyətinin formalaşmasında İslam dininin rolu nədən ibarət idi?*

1. *Müharibələrin ağır nəticələri haqqında təqdimat hazırla.*
2. *Xəzər-ərəb müharibələrində döyüş meydanının Azərbaycan olmasının səbəbini əsaslandır.*
3. *Ərəblərin yerli əhaliyə münasibətini mətnə əsasən təhlil et.*

2

Biz eşitmişik ki, qənimət — bu, müslimlərin döyüşdə, silah vasitəsilə ələ keçirdikləri şeylərdir, pay isə (sülhün) müqavilənin şərtlərinə görə aldıqları şeylərdir...

... Qənimətə gəldikdə isə onun beşdə bir hissəsi xüms — Allaha ... məxsusdur — Allah onu (aşağıda) sadalananlara: «həm elçisinə, həm qohumlarına, həm yetimlərə, həm yoxsullara, həm də yolda qalanlara qaytarmışdır*.

***Tolerant** — başqalarının fikrinə, düşüncə tərzinə, dinlərə və müxtəlif adət- ənənələrə dözümlü yanaşmaq deməkdir*

# 4. BABƏKİN BAŞÇILIĞI ALTINDA AZADLIQ HƏRƏKATI

> *Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur.*
>
> — **Heydər ƏLİYEV**



Yusif Azərbaycanın xalq artisti Rasim Balayevlə qonşuluqda yaşayır. O, demək olar ki, hər gün bu aktyorla rastlaşır. Aktyorun çəkildiyi «Babək» filminə baxandan sonra Yusif o qədər təsirlənmişdi ki, bütün günü Babək haqqında düşünürdü. O da böyüyüb Babək kimi qəhrəmanlıq etmək, əsgər olub Qarabağ uğrunda vuruşmaq, düşmənləri doğma yurdumuzdan qovub çıxarmaq haqqında fikirləşirdi.

*Yusifi bu qədər həyəcanlandıran «Babək» filmi nədən bəhs edir? Babəkin tarixdəki rolu nədən ibarətdir? Müzakirədən sonra gəldiyiniz nəticələri ümumiləşdirin.*

Xürrəmi, Babək, Bəzz qalası, Afşin, Xilafət

***Tapşırıq***
Səncə, biz Qarabağı hansı yolla azad edə bilərik — sülh, yoxsa müharibə?

***Böyük sərkərdənin mübarizəsi.*** Ərəb mənşəli əhalinin Azərbaycana köçürülməsi, Xilafətin vergi siyasəti və məmurların özbaşınalığı əhali arasında narazılığı artırdı. Yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması onların da ərəblərdən üz döndərməsinə səbəb oldu. Azərbaycan əhalisinin yadelli ağalara qarşı qəzəbi artdı.

Ərəblərə qarşı azadlıq mübarizəsinin ən parlaq mərhələlərindən biri xürrəmilər* hərəkatıdır. Təqribən 60 ildən artıq mübarizə aparan xürrəmilər vətəni azad etməklə yanaşı, insanlar arasında bərabərliyə nail olmağa çalışırdılar.

***Xürrəm** — şad, firavan deməkdir, pəhləvi dilində isə od, günəş mənasında işlənirdi*

Xürrəmiləri məzdəkilərin ideya davamçıları hesab edirlər. Lakin xürrəmilərin məqsədləri daha ali idi. Onlar Azərbaycanı yadellilərin əsarətindən azad etməyə çalışırdılar.

816-cı ildən etibarən xürrəmilərin başçısı xalq qəhrəmanı Babək olmuşdur. O, ətrafına güclü sərkərdələr topladı. Müaviyə, Abdulla (hər ikisi Babəkin qardaşları idilər), Tarxan, Adin və başqaları xürrəmi dəstələrinə başçılıq edirdilər.

Hərəkatın iştirakçıları arasında kəndlilər və şəhər yoxsulları ilə yanaşı, iri və orta feodallar da az deyildi. Babəkin iqamətgahı Azərbaycanın Bəzz qalası idi.

Babəkin gördüyü tədbirlər öz bəhrəsini verdi. Xalqımızın azadlıq müharibəsi geniş vüsət alaraq Xilafət üçün qorxulu qüvvəyə çevrildi. Xürrəmilər IX əsrin 20-ci illərində Süniki, Bərdəni, Beyləqanı, Qarabağı, Arranın bir sıra digər əyalət və şəhərlərini azad etdilər.

819-cu ildə xəlifə xürrəmilərə qarşı ilk nizami ordu göndərdi. Üsyançılar ərəblərin ordusunu məğlubiyyətə uğratdılar. Bu qələbədən sonra xürrəmilər Xilafətin bir neçə nizami ordusunu darmadağın etdilər.

Azadlıq mübarizəsinin geniş vüsət aldığını görən xəlifə Azərbaycana yeni ordu göndərdi. İki il ciddi hazırlıqdan sonra, 829-cu ilin iyun ayında Həşdadsər dağı yaxınlığında ərəblərlə xürrəmilər arasında şiddətli döyüş baş verdi. Düşmənin məqsədi Bəzz qalasını ələ keçirmək idi. Lakin Babəkin hərbi səriştəsi nəticəsində ərəb ordusu məğlub edildi.

830-cu ildə növbəti döyüşdə parlaq qələbə qazanan xürrəmilər Həmədan şəhərini tutdular. Həmədan ərəblər üçün strateji əhəmiyyət kəsb etdiyindən onların vəziyyəti daha da ağırlaşdı.

Həmədan şəhəri uğrunda növbəti döyüş 833-cü ilin sonunda baş verdi. Bu döyüşdə Babəkin qoşunları ilk dəfə ağır məğlubiyyətə uğradı.



*Xalq qəhrəmanı Babək*

Xürrəmilərin üstünlüyü nədə idi? Fikrini əsaslandır.



*Bəzz qalası*

**_Xilafəti sarsıdan məğlubiyyət._** Ərəb xilafəti külli miqdarda pul və hərbi qüvvəsini xalqımızın azadlıq mübarizəsinə qarşı yönəltdi. Məşhur türk sərkərdəsi Afşin xürrəmilərə qarşı vuruşan ərəb ordusuna komandan təyin edildi. Bu, əslində, qardaşı qardaş üzərinə qaldırmaq siyasəti idi. Afşin bir sıra tədbirlər gördü. O öz iqamətgahını üsyançıların mərkəzinə yaxın olan Bərzəndə köçürdü. Bərzəndlə Ərdəbil arasında yollar və qal alar bərpa edildi. Xürrəmi dəstələri arasına kəşfiyyatçılar göndərildi.

Sərkərdə olsaydın, qələbə qazanmaq üçün hansı addımları atardın?

Afşinin gördüyü tədbirlər nəticəsində qüvvələr nisbəti ərəblərin xeyrinə dəyişirdi. Xürrəmilər uzunsürən döyüşlərdən yorulmuşdu. Ərəblərin güclənməsi Babəkin müttəfiqi olan feodalların tədricən ondan uzaqlaşmasına səbəb oldu.



*Xürrəmilər döyüşdə*


Ehtiyat qüvvələr
Həşdadsər
Babək
Əl Tusi
Ərəb
düşərgəsi
Ərəb ordusunun hücumu
Ərəblərin geri qaçmaları
Babək ordusunun hücumu

Bununla belə, xürrəmilər mübarizə əzmini itirmirdilər. 836-cı ildə Həşdadsər dağı yaxınlığındakı növbəti döyüşdə xürrəmilər Babəkin hərbi taktikası ilə hərəkət edib ərəblər üzərində yenidən parlaq qələbə qazandılar. Düşmənin çoxlu canlı qüvvəsi məhv edildi, xeyli silah, ərzaq və pul üsyançıların əlinə keçdi.

Xəlifə Afşinin köməyinə daha iki böyük ordu və xeyli pul göndərdi. Düşmən qüvvələri 837-ci ilin yayında Bəzz qal asına yaxınlaşıb qalanı mü hasirəyə aldılar. Hər iki tərəf həlledici döyüşə hazır idi. Belə bir vaxtda Afşin Babəkə sülh təklif etdi.

Məqsəd Babək və onun qüvvələrindən Bizansa qarşı müharibədə istifadə etmək idi. Lakin Babək sülh təklifini rədd etdi və əqidəsindən dönmədi. Vətən uğrunda sona qədər vuruşmağı üstün tutan Babək yaxşı silahlanmış çoxsaylı düşmən ordusu ilə döyüşə başladı. Qala divarlarını dağıtmaq üçün mancanaqlardan* istifadə edən ərəblər Bəzz qalasını çətinliklə ələ keçirdilər. Ələ keçirilən əsirlərin arasında Babəkin ailə üzvləri və yaxın qohumları da vardı.

Babək Arazı keçib Azərbaycanın şimalına — Arrana gəldi. Onun məqsədi Bizans imperator- luğunun köməyi ilə yeni qüvvə toplayıb müharibəni davam etdirmək idi. Xəlifə Babəki ələ keçirmək üçün yeni üsula əl atdı. Hər yerə xəbər yayıldı: — Kim Babəkin yerini bildirsə və ya onu tutub ərəblərə təhvil versə, əvəzində ona 2 milyon dirhəm pul mükafatı veriləcək.

Hiyləgər və acgöz feodallardan biri Babəki öz mülkünə dəvət etdi, sonra da xəyanət yolu ilə onu ərəblərə təhvil verdi.

*Həşdadsər döyüşünün sxemi. 836-cı il*

***Tapşırıq***

Sxem əsasında döyüşü təsvir et.

Afşini sərkərdə kimi necə qiymətləndirirsən?

***Mancanaq** — qala divarlarını dağıtmaq üçün daş, yanar maye atan qurğu*

Şübhəsiz ki, bu fikrindən əl çəkməyib mənim qanımı tökdürəcək, boynumu da vurduracaqsan. Qorxuram qanım axıb, üzüm sarala, camaat da elə təsəvvür edə ki, mənim üzümün sarılığı qanımın axmasından deyil, qorxudandır. Üzümün saralmağını göstərməmək üçün onu qana boyadım. Mötəsim dedi: — Onun gördüyü işlər bağışlanmalı olsaydı, elə bu üstünlüyünə görə yaşamağa layiq olardı.

*S.Nəfisi*

Babəki Afşinin Bərzənddəki düşərgəsinə gətirdilər. Sonra onu Samirə şəhərinə apardılar. Yola düşməzdən öncə Afşin Babəkin son arzusunu yerinə yetirdi. O, Bəzz qalası ilə vidalaşdı. 838-ci ildə xəlifənin əmri ilə Babək edam edildi.

Orta əsrlərin digər üsyanları kimi, xürrəmilər hərəkatı da məğlub oldu. Vətəni deyil, öz var-dövlətlərini qoruyan əyanların dönüklüyü, feodalların xəyanəti üsyanın məğlubolma səbəblərindən idi. Xəlifənin xürrəmilərə qarşı ən güclü türk sərkərdələrini və əsgərlərini döyüşə cəlb etməsi də məğlubiyyətin əsas amillərindən idi.

Azadlıq mübarizəsinin miqyası böyük idi. İllərlə davam edən müharibədə xürrəmilər Xilafətə saysız-hesabsız maddi zərər vurmuşdu. Minlərlə ərəb əsgəri məhv edilmişdi. Onlar arasında Xilafətin ən məşhur sərkərdələri də vardı.

Xürrəmilər hərəkatı Xilafətin əsarəti altında olan digər xalqların da azadlıq mübarizəsinə təkan verdi. Babəkin başçılıq etdiyi xalq azadlıq hərəkatı nəticəsində Xilafət sarsıldı və əvvəlki mövqeyini bir daha bərpa edə bilmədi. IX əsrin II yarısından etibarən Xilafətdən asılı olan ölkələrdə, o cümlədən Azərbaycanda bir sıra müstəqil yerli dövlətlər meydana gəldi.

1. Nə üçün xalq ərəblərdan üz döndərdi?
2. Xəlifə nəyə görə Babəkə qarşı türk sərkərdəsini göndərdi?
3. Azadlıq mübarizəsinin tarixi əhəmiyyəti nə oldu?
4. Bəzz qalası barədə nə bilirsan? Bildiklərini yoldaşlarınla müzakirə et və gəldiyin nəticələri ümumiləşdir.
5. Babəklə Cavanşirin oxşar və fərqli cəhətləri nədə idi?

1. Döyüşlərdə Babəkin uğur qazanmasının səbəbini müəyyən et.
2. Mətnə əsasən xürrəmilər hərəkatının mağlubolma səbəblərini araşdırıb yaz.
3. Verilmiş mənbəni təhlil et.
4. Mətnə əsasən xürrəmilər hərəkatının

xronoloji cədvəlini hazırla.

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN DİRÇƏLİŞİ

## 5. MÜSTƏQİL DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN DİRÇƏLİŞİ



Günel ailəsi ilə Daşkənddən Bakıya qonaq gəlmişdi. Onlar şəhərin tarixi yerlərini görmək üçün gəzintiyə çıxdılar. Bu işdə onlara Uğur və anası kömək edirdi. Günel Şirvanşahlar sarayını görüb heyrətləndi. O, sarayla maraqlanıb soruşdu ki, bu saray hansı dövrdən qalıb? Uğur cavab verə bilmədi. Uğurun anası isə tarixçi olduğu üçün Günelin suallarına ətraflı cavab verdi.

*Səncə, ana Şirvanşahlar sarayı haqqında hansı məlumatları verdi? Bu dövlətin yaranması hansı dövrə təsadüf edir? Fikrini söylə.*

***Dövlətçilik ənənəsinin davamı.*** IX əsrdə Xilafət Babəkin başçılıq etdiyi xalq azadlıq hərəkatı nəticəsində zəifləmişdi. Xilafətə tabe olan ölkələrdə azadlıq müharibələri genişlənirdi. Feodal münasibətlərinin möhkəmlənməsi nəticəsində iri feodalların mövqeyi güclənmiş, Xilafətin ucqarlarında mərkəzə tabe olmaq istəməyən qüvvələrin sayı artmışdı. Daxili çəkişmələrin çoxalması da Xilafəti zəiflədirdi. Ərəb canişinləri müstəqilliyə can atır, öz feodal dövlətlərini yaradırdılar. Ərəb mənşəli əhalinin Azərbaycana köçürülməsi, Xilafətin vergi siyasəti və məmurların özbaşınalığı əhali arasında narazılığı artırdı. Yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması onların da ərəblərdən üz döndərməsinə səbəb oldu. Azərbaycan əhalisinin yadelli ağalara qarşı qəzəbi artdı.

Azərbaycan Xilafətə qarşı azadlıq hərəkatının başlıca mərkəzlərindən idi. Xilafətə qarşı mübarizə bu imperiyanı zəiflətdi. Azərbaycanda bir sıra yerli feodal dövlətləri: Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər dövlətləri yarandı. Azərbaycanın qədim dövlətçilik ənənələri dirçəldi. Bu dövlətlərlə yanaşı, Şəki hakimliyi, Dərbənd və Tiflis əmirlikləri kimi nisbətən kiçik dövlətlər də yaranmışdı. Bu dövlətlərin hamısında İslam dini rəsmi din olmuş, Azərbaycan xalqının təşəkkülü üçün vacib olan vahid türk dili və türk-islam mədəniyyəti formalaşmışdı.

Əmirlik, Məzyədilər, Şirvan, Dərbənd keçidi, I Axsitan

**Yadınıza salın:**
Canişin kimə deyilirdi?

Dövlətçilik ənənəsi deyəndə nə başa düşürsən? Fikrini bildir.

***Xürrəm** — şad, firavan deməkdir, pəhləvi dilində isə od, günəş mənasında işlənirdi*

## ŞİRVANŞAHLAR DÖVLƏTİ IX–XII əsrlərdə




***Tapşırıq***
Müasir xəritədə Şirvanşahlar dövlətinin ərazisini müəyyən et.

***«Şirvanşah» titulu necə yarandı?*** Azərbaycanda yaranmış müstəqil feodal dövlətləri içərisində Şirvanşahlar dövləti uzun müddət öz müstəqilliyini qorumuşdur. Bu dövlətin ərazisi Dərbənddən Kür çayına qədər olan Azərbaycan torpaqlarını əhatə edirdi. 861-ci ildə Heysam ibn Xalid (861—908) Şirvanı müstəqil elan edərək, «Şirvanşah» titulunu qəbul etdi. O, Şirvanın birinci rəsmi hakimi Yəzid ibn Məzyədin nəvəsi idi. Yəzid ibn Məzyəd ərəb mənşəli Şeybani qəbiləsindən idi. Bu sülalə tarixi ədəbiyyatda Məzyədilər adlandırılır.

Dövlətin ilk paytaxtı Şirvan şəhəri oldu. 918-ci ildə Şirvanşah Əbu Tahir əlverişli mövqedə yerləşən Şamaxını bərpa edib, paytaxtı bura köçürtdü. Məzyədilərin uğurlu siyasəti nəticəsində müxtəlif dövrlərdə Şəki, Beyləqan, Qəbələ, Bərdə, Şabran və digər ərazilər də Şirvanşahlar dövlətinə tabe edildi.



*Dərbənd qalası*

Lakin dövlətin sərhədləri siyasi hadisələrlə əlaqədar tez-tez dəyişirdi.

Hərbi-strateji əhəmiyyətə malik Dərbənd əmirliyi Şirvanşahlar dövlətinə birləşdirildi. Şirvanşahlar Dərbənd səddini və şəhərin qala qapılarını təmir etdirib möhkəmləndirdilər.

IX əsrin sonu — X əsrin ortalarında Şirvanşahlar əvvəlcə Sacilərə, sonra isə Salarilərə tabe olmuşdu. Daxili idarəçilikdə müstəqilliyi qoruyan Məzyədilər həmin dövlətlərə yalnız xərac ödəyirdilər.

***Şirvanşahlar XI-XII əsrlərdə.*** Səlcuq türklərinin axınları zamanı Şirvanşahların uzunmüddətli müqaviməti heç bir nəticə vermədi. 1066-cı ildə səlcuqlara tabe olan I Fəribürz (1063— 1096) Şirvanşah titulundan məhrum edildi. Lakin Şirvanşahlar dövləti süqut etmədi, daxili müstəqilliyini qoruyub saxladı.



*Şirvanşahlar dövlətinin gümüş pulu dirhəm. X—XI əsrlər*

***Tapşırıq***

Dərbənd səddinin çəkilməsinin səbəblərini xatırla. Bu səddin əhəmiyyətini əsaslandır.



*Şirvanşah iI Mənuçöhr dövrünə aid mis pul*

Hazırda vətənimizin hansı əraziləri işğal altındadır?

Müasir dövrdə Gürcüstan Respublikası ilə münasibətlərimiz necədir? Müzakirə edin.

Hər il Səlcuq imperatorluğuna xərac ödəyən Şirvanşahlar XII əsrin əvvəllərində xarici siyasəti dəyişdilər. III Mənuçöhr (1120—1160) İraq Səlcuq sultanlığının zəifləməsindən istifadə edib, illik xəracı ödəməkdən imtina etdi. Gürcülərlə yaxın əlaqələr yaratdı. Bu zaman Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan gürcü çarı IV David təcavüzkar siyasət yeridir, tez-tez Şirvana basqın edirdi. III Mənuçöhr gürcü çarının qızı ilə evlənmişdi. Qohumluq əlaqələrinə baxmayaraq, gürcülərin yürüşləri ara vermirdi. IV Davidin ölümündən sonra Şirvana olan basqınlar dayandı. Şirvanşahlar dövlətində sabitlik yarandı.

1160-cı ildə Atabəy Şəmsəddin Eldənizin köməyi ilə hakimiyyətə gələn I Axsitan atasından fərqli olaraq, səlcuqlarla dostluq münasibəti yaratdı. Həm gürcülərlə, həm Eldənizlərlə dinc münasibətlərini qoruyub saxlaya bilən I Axsitan Şirvanşahların qüdrətini artırdı. Dərbənd hakimliyi yenidən Şirvanşahlardan asılı vəziyyətə salındı. Dərbənd keçidi təmir edilərək möhkəmləndirildi. Ölkə ərazisində çoxlu qalalar, qüllələr, sədlər tikildi və bərpa edildi. 1175-ci ildə slavyan donanmasının hücumuna məruz qalan Şirvanşahlar düşməni ölkədən qovdular.

*1192-ci ildə Şamaxı zəlzələsindən sonra paytaxt Bakıya köçürüldü*



Bu zaman gürcülər Şirvanşahlara hərbi kömək etdilər. I Axsitanın və varislərinin hakimiyyəti illərində yaranmış siyasi sabitlik Şirvanşahlar dövlətində iqtisadiyyatın, mədəniyyətin inkişafına səbəb oldu.

Qonşu dövlətlərin hərbi cəhətdən bir-birinə kömək etməsini necə qiymətləndirirsən?

1. *Ərəb xilafətinin zəifləməsinin səbəbləri nə idi? Səncə, bu zəifləmədə xürrəmilər hərəkatının rolu nədən ibarət olub?*
2. *Şirvanşahlar müxtəlif dövrlərdə hansı dövlətlərdən asılı olub?*
3. *Şirvanşahlar dövlətinin sərhədlərinin dəyişməsi nə ilə bağlı idi?*
4. *Şirvanşahların Eldənizlərlə münasibəti necə idi?*

1. *Daxili müstəqillik ifadəsini izah et.*
2. *Xəritədə mətndə verilmiş coğrafi məkanların yerini müəyyən et.*
3. *Mətnə əsasən Şirvanşah hökmdarlarının dövründə dövlətin müstəqil olub-olmadığını oxla (yuxarı istiqamətli ox — müstəqil, aşağı istiqamətli ox — yarımasılı deməkdir) göstər. Məsələn: Heysam ibn Xalid*
4. *Şirvanşahlar dövlətinin tarixinə dair xronoloji cədvəl qur.*

## 3 ŞAMAXI ADININ İZAHI HAQQINDA XALQ RƏVAYƏTLƏRİ

Belə deyirlər ki, lap uzaq keçmişdə Şam şəhərinin hökmdarı Şamaxıya qonaq gəlir. Şəhərin böyüklüyü, gözəlliyi, möhtəşəmliyi hökmdara Şam şəhərini xatırladır. Odur ki, Şam hökmdarı Şamaxı hökmdarına deyir:

— Neçə vaxtdır ki, səninlə dostluq edirəm. Birinci dəfədir ki, sizə qonaq gəlirəm. Şəhəriniz bizim Şama çox oxşayır. Dostluğumuz, qardaşlığımız xatirinə sizin şəhəri bu gündən «Şam əxi» adlandıraq. Yəni «Şamın qardaşı».

... Başqa bir rəvayətdə deyilir ki, bu diyarda vaxtilə çox adamlar hökmdarlıq etmişlər. Yaradılan şəhəri də hökmdarlar, şahlar şərəfinə ilk dəfə «Şahmah» adlandırmışlar. «Şah» sözü böyük, «mah» isə şəhər mənasını ifadə edir. Yəni «Şah şəhəri». «Şahmah» sözü tələffüzdə getdikcə dəyişilmiş və Şamaxı formasına düşmüşdür... Bəli, rəvayət olsa da, maraqlıdır.

# 6. AZƏRBAYCAN VAHİD DÖVLƏT TƏRKİBİNDƏ



Televiziya verilişlərinin birində aparıcı belə bir ifadə səsləndirdi: «0 taylı-bu taylı Azərbaycan». Fərəhin nənəsi bu kəlmələri eşidəndə ah çəkdi. Fərəh əvvəlcə heç nə anlamadı. Sual dolu baxışlarla nənəsinə baxdı. Nənə:

— Qulaq as, bala, bax gör bizim torpaqlarımız necə böyük olub, — dedi. Fərəh maraqla verilişə baxmağa başladı. Baxdıqca fikrində suallar yaranırdı: Gör, Vətənimizin ərazisi əvvəl indikindən nə qədər böyük olub! Niyə indi Vətənimiz parçalanmış vəziyyətdədir?

*Fərəhi düşündürən suallara cavab verməyə çalış.*

*Azərbaycanın cənubu və şimalında İslam dininin yayılması xalqın birliyini daha da möhkəmləndirdi. Bəs Ərəb xilafətinin zəifləməsi bu birliyə necə təsir göstərdi? Tarixi həqiqətləri bilmək üçün araşdırma aparmaq daha yaxşı olmazmı?*

Sacilər, ticarət gəmisi, Marağa, Salarilər, Zəncan

«Afşin» adına hansı dərsdə rast gəlmisən?

***«Mükafatdan» yaranmış dövlət.*** Xilafətin zəiflədiyi zaman türkmənşəli, «Afşin» titullu Sacilər sülaləsinin nüfuzu artdı. Sülalənin banisi Xilafətin sərkərdəsi Əbu Sac Divdad idi. Ərəb xilafətində böyük nüfuz qazanmış bu sərkərdəyə Azərbaycan ərazisi mükafat olaraq verilmişdi. Sacilər dövlətinin əsası 879-cu ildə qoyulmuşdu. Sacilər Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan yadelliləri dəfələrlə ağır məğlubiyyətə uğratmış, özündən asılı hala salmışdı. Hələ IX əsrin sonlarından Məhəmməd ibn Sacın adına pullar kəsilirdi.

Paytaxtı Marağa olan Sacilər dövlətində hakimiyyət başına Yusif ibn Sac keçdi. 0, 912-ci ildən etibarən Xil afət xəzinəsinə göndərdikləri xəracı dayandırdı.


*Əbu Sac Divdad*

Sacilər dövlətinə itaət etmək istəməyən ermənilər və gürcülər Yusif ibn Saca qarşı çıxdılar. Dəbili tutduqdan sonra Yusif ibn Sac Tiflisi ələ keçirdi. O bu zaman müstəqil olan Şirvanşahlar dövlətini də Sacilər dövlətinə biri əşdirdi. Həmədan və Zəncandan Dərbəndə qədər — qərbdə Ani və Dəbil, şərqdə Xəzər dənizinədək uzanan bütün Azərbaycan torpaqları Sacilər dövlətinin ərazisinə birləşdirildi.

**AZƏRBAYCAN IX–X əsrlərdə**



**AZƏRBAYCAN X əsrdə**




| | |
|---|---|
| Müstəqil siyasət deyəndə nə başa düşürsən? | Müstəqil siyasət yeridən Yusif ibn Sac dövlətin sərhədlərini möhkəmləndirmək üçün Dərbənd səddini təmir etdirdi. Yusif ibn Sacın dövründə isə paytaxt Maragadan Ərdəbil şəhərinə köçürüldü. |

X əsrin əvvəllərində bütün Azərbaycan torpaqlarını əhatə edən Sacilər dövləti feodallar arasında gedən ara müharibələri nəticəsində zəiflədi.

***Azərbaycan torpaqları yenidən vahid dövlət tərkibində.*** Baş vermiş siyasi çəkişmələr Salarilər nəslindən olan Mərzban ibn Məhəmmədə fürsət yaratdı. Mərzban ibn Məhəmməd (941—957) 941-ci ildə sonuncu Saci hökmdarı Deysəmə döyüşdə qalib gəldi. Paytaxt Ərdəbili tutaraq Sacilərin varlığına son qoydu və Salarilər dövlətini yaratdı.



*Mərzban ibn Məhəmməd*

Şirvanşahlar dövlətini özündən asılı vəziyyətə salan Mərzban ibn Məhəmməd Dərbəndi ələ keçirdi. Şərqi Gürcüstanı özlərindən asılı hala saldı. Salarilər dövl ətinin sərhədləri şimalda Dərbənd keçidindən, cənubda Dəcl ə və Fərat çayının yuxarı axarına qədər uzanırdı. Salarilərin hakimiyyəti dövründə Xəzər dənizində yenidən ticarət gəmiləri üzməyə başladı. Azərbaycan Yaxın və Orta Şərqdə həm iqtisadi, həm də siyasi cəhətdən daha qüdrətli bir ölkə kimi tanındı.

Hazırda gəmilər Xəzərdə hansı məqsədlərlə üzür?

Mərzban ibn Məhəmmədin ölümündən sonra oğulları və qardaşları arasında hakimiyyət ugrunda mübarizə başlandı.



*Dirhəm. Sacilər dövlətinin gümüş pulu*



*Saci hökmdarı Deysəmin hakimiyyəti dövrünə aid gümüş pul*



*Dirhəm. Salari dövlətinin gümüş pulu*

Hakimiyyətə gələn Vəhsudan feodalları ələ alaraq öz tərəfinə çəkir, bu yolla hakimiyyətini möhkəmləndirirdi. Çox keçmədən hakimiyyətə Salari İbrahim gəldi. O, dövlətin əvvəlki nüfuzunu qoruya bilmədi. Şəddadilər dövləti yarandıqdan sonra Gəncə və onun ətrafındakı torpaqlar itirildi. Yerli feodalları əldə saxlamaq üçün iqta torpaqları paylamaq siyasəti də səmərə vermədi. Rəvvadilərin güclənməsi Salarilər dövlətinin süqutunu tezləşdirdi.

1. *Dövlətin sərhədlərini möhkəmləndirmək üçün Yusif ihn Sac hansı tədhirlər gördü?*
2. *Sacilərin Xilafətdən asılı olmadığını hansı faktlarla deyə hilərsən?*
3. *Sacilərlə Salarilərin ortaq cəhətləri nə idi?*
4. *Salarilərin zəifləməsinə səhəh nə oldu?*

1. *Xəlifə tərəfindən mükafat olaraq verilən ərazilərin dövlətə çevrilməsinin səhəhlərini təhlil et. Fikrini əsaslandır.*
2. *Sacilər dövlətinin Azərhaycan dövləti olmasını əsaslandır.*
3. *Salarilərin Azərhaycan torpaqlarının hütövlüyünü qorumaq üçün həyata keçirdiyi tədhirləri sadala.*
4. *Sacilər və Salarilər dövlətlərinin fərqli cəhətlərini şərh et.*

# 7. XUDAFƏRİN KÖRPÜSÜNÜN BİRLƏŞDİRDİYİ İKİ AZƏRBAYCAN DÖVLƏTİ



Aydın əmi hər gün «Xəbərlər»i dinləməyi sevir. O, bir gün adəti üzrə radio dinləyərkən Təbriz şəhəri haqqında belə bir xəbər eşitdi: «Təbriz əsrlər boyunca böyük Azərbaycan türk-müsəlman imperatorluqlarının paytaxtı olub».

Aydın əmi tarixlə çox maraqlanırdı. Vaxt tapdıqca kitablar oxuyur, tarixi mövzuda olan verilişlərə həvəslə baxırdı. O bilirdi ki, Təbriz bir çox dövlətlərin paytaxtı olub.

*Səncə, Təbriz şəhəri ilk dəfə nə zaman paytaxt olub? Kimlər Təbrizi paytaxt seçib? Bildiklərinizi müzakirə edin.*

Ərəb xilafətinin zəifləməsindən sonra mövcud olmuş Sacilər və Salarilər dövlətləri bütün Azərbaycan torpaqlarını bir hakimiyyət altında idarə edirdi. Bu dövlətlər süqut etdikdən sonra tarixi Azərbaycan torpaqlarında siyasi vəziyyət necə oldu? Bu suallara cavab tapmaq üçün Vətənimizin tarixinə nəzər salaq.

***Təbriz ilk dəfə paytaxt oldu.*** Azərbaycanda iri feodal nəsillərindən biri də Rəvvadilər idi. Ərəblərin hakimiyyəti zamanı bir çox ərəb nəsilləri Azərbaycana köçürülmüşdülər. Onların bir hissəsi **Marağa, Təbriz, Qaradağ** və **Əhər** bölgələrində yurd salmış, yerli əhali ilə qaynayıb-qarışaraq VIII əsrin sonlarında Azərbaycanın cənubunda Rəvvadi əmirliyini yaratmışdılar. Salarilərin zəiflədiyi bir zamanda güclənməkdə olan bu nəsil yaranmış siyasi vəziyyətdən istifadə etdi. Rəvvadi Əbülhica 981-ci ildə axırıncı Salari hökmdarı İbrahim ibn Mərzbanı taxtdan saldı.

Rəvvadilər, Təbriz, Şəddadilər, Dəbil əmirliyi, Gəncə darvazası

Köçürmə siyasətini daha kimlər həyata keçirmişdi? Bu siyasətin aparılmasında məqsəd nədir? Fikrini bildir.

***Tapşırıq***
Azərbaycan ərazisində yaşayan türkdilli tayfaları sadala.

O, ilk paytaxtı Ərdəbil şəhəri olan Rəvvadilər dövlətini yaratdı. Bütün Cənubi Azərbaycanı tabeliyində saxlayan Rəvvadilər Muğanı da özlərindən asılı hala saldılar. Belə bir vaxtda paytaxt Ərdəbildən Təbrizə köçürüldü. Təbriz şəhəri ticarət yollarının qovşağında yerləşdiyi üçün sürətlə inkişaf edirdi. Şəhər abadlaşdırılır və böyüyürdü.

Rəvvadilər ərəb mənşəli olsalar da, artıq türkləşmişdilər. Onların dövründə yerli türk tayfalarının mövqeyi gücləndi. Hətta 1028-ci ildə Rəvvadi Vəhsudan (1020—1059) Xorasandan köç etmiş yeni oğuz-türk nəsillərinə Azərbaycanda məskunlaşmağa icazə vermişdi. Oğuz tayfalarının yeni axını Azərbaycanda yerli türk tayfalarının daha da möhkəmlənməsinə səbəb oldu.



*Dirhəm. Şəddadilər dövlətinin gümüş pulu*

***Gəncənin qala qapıları, qala kimi möhkəm dövlət.*** Hələ Salarilərin zəiflədiyi bir dövrdə Azərbaycanın şimalında — Dəbil ətrafında yaşayan Şəddadi nəsli fəallaşmağa başladı. Məhəmməd ibn Şəddad Dəbildə müstəqil əmirliyin əsasını qoydu.



*Təbriz şəhəri XVI əsrdə (qədim təsvir)*

Daha sonra Gəncəni ələ keçirən Şəddadilər 971-ci ildə öz dövlətlərini yaratdılar. Gəncə dövlətin paytaxtı oldu. Fəzl ibn Məhəmmədin dövründə (985—1030) Şəddadilər dövləti daha da qüvvətləndi. Mərkəzi hakimiyyət gücləndirildi. İtaət göstərməyən xırda feodallar mərkəzi hakimiyyətə tabe edildi. O, gürcülərə və xəzərlərə qarşı uğurlu mübarizə apararaq ölkənin sərhədlərini möhkəmləndirməyə çalışırdı.

**AZƏRBAYCAN X əsrin sonu – XI əsrin I yarısında**





*Gəncə darvazası*

Hazırda sənin yaşadığın şəhərdə (rayonda, kənddə) abadlıq işləri aparılırmı? Körpülər tikilirmi? Bu tikintinin əhəmiyyəti haqqında fikrini izah et.

Fəzl ibn Məhəmməd 1027-ci ildə Araz çayı üzərində Xudafərin körpüsünü tikdirdi. Bu körpünün tikilməsi Azərbaycanın şimalı ilə cənubu arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsinə səbəb oldu.

Şəddadi Fəzl ibn Məhəmmədin hakimiyyəti dövründə Şirvanşahlarla dostluq münasibətləri qurulmuşdu. Sülalələr arasında qohumluq əlaqəsi də yaranmışdı. Fəzl ibn Məhəmməd Cənubi Azərbaycanda mövcud olan Rəvvadilər və Azərbaycanın şimalındakı Tiflis əmirliyi ilə sıx iqtisadi və mədəni əlaqələr qurmuşdu.

Oğuz türklərinin yeni axınları Şəddadilərin hərbi qüdrətinin artmasına səbəb oldu. 1037-ci ildə Dəbili ələ keçirmək istəyən Bizans qoşunlarına zərbə vuruldu. Bunun ardınca Bizans və gürcü feodallarının Tiflis müsəlman əmirliyini məğlub etmək və Tiflisi ələ keçirmək cəhdl əri də boşa çıxdı.

Şəddadilərin gücü Əbüləsvar Şavurun dövründə (1049—1067) daha da artdı. Bundan narahat olan gürcülər Azərbaycan torpaqlarına hücumlar etməyə başladılar. Əbüləsvar Şavur paytaxt Gəncəni möhkəmləndirmək üçün şəhər ətrafına xəndəklər qazdırıb, qala divarları çəkdirdi.

Əbüləsvar Şavur 1063-cü ildə usta İbrahim Osmanogluya Gəncənin qala qapılarını düzəltdirdi. Şəhərin müdafiəsi gücləndi.

Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan erməni və gürcü feodalları Bizans imperiyasına arxalanırdılar. Şəddadilər onların birləşmiş qüvvələrinə qarşı yerli türk tayfaları ilə, həmçinin Azərbaycana axın etmiş səlcuq türkləri ilə əlbir mübarizə aparırdılar.

Hazırda dövlətimiz türk dünyasının hansı dövlətləri ilə əlaqə saxlayır?

1. *Rəvvadilər nə üçün məhz Təbrizi paytaxt seçdilər?*
2. *Azərbaycan ərazisinə oğuz axınlarının müsbət tərəfi nədir?*
3. *Xudafərin körpüsünün tarixi əhəmiyyəti nadir?*
4. *Gəncə darvazaları hansı məqsədlə inşa edilmişdi?*

1. *Rəvvadi nəsli dövrün siyasi hadisələrindən necə istifadə etdi? Esse yaz.*
2. *Azərbaycanın şimalında mövcud olan Şəddadilərin ölkə üçün gördükləri işləri təhlil et.*
3. *Rəvvadilər va Şəddadilar dövlətlərinin tarixi rolunu müəyyən et.*

# 8. SLAVYANLARIN HÜCUMLARI



Tarixi Azərbaycan torpaqları tez-tez yadellilərin hücumuna məruz qalırdı. Bugünkü erməni təcavüzü, əslində, keçmişdə ölkəmizə qarşı baş vermiş yadelli basqınlarından heç nə ilə fərqlənmir. Yadellilərin bizim ərazilərə gəlməsi tarixin yaddaşına yazılıb. Bəs slavyan-rus basqınları necə baş verdi? Onların torpaqlarımıza yol açmasına səbəb nə oldu? Tarixi araşdırıb faktları bilmək bu torpağın övladı kimi haqqımız və borcumuzdur.

*Yoldaşlarınla sualların müzakirəsini keçir. Ehtimal etdiyin səbəbləri dəftərinə qeyd et.*

Slavyanlar, Arran, Xəzər dənizinin adaları, hərbi donanma

***Tapşırıq***
Ərəb mənbələrində verilən məlumatı müzakirə edin.

***Talanlara yol açan tamah.*** Ərəb xilafətinin dağılması slavyanların Xəzəryanı vilayətlərə hücum etmələrinə imkan yaratdı. Don—Volqa—Xəzər vasitəsilə ticarət aparan slavyanlara bu ərazilər yaxşı tanışdı. Münbit və məhsuldar torpaqları olan Azərbaycan onlar üçün «qənimət mənbəyi» idi. O dövrdə Kiyev knyazlarının hərbi drujinalarının üzvləri mənbələrdə «rus» adlandırılırdı. Ərəb müəllifləri də slavyanları mənbələrdə «ruslar» kimi göstərmişlər.

Slavyanların Azərbaycan torpaqlarına basqınları IX əsrin sonlarından başlamışdı. X əsrin əvvəllərində isə onlar daha tez-tez yürüşlər, talanlar edirdilər.

Slavyanlar 914-cü ildə yenidən Xəzər sahillərinə hərbi yürüş etdilər. Böyük və nizamlı hərbi dəstələrlə ərazilərimizə soxulan slavyanların hücumu əvvəlkindən fərqlənirdi. Onlar bu dəfə daha böyük donanma ilə yürüş etmişdilər. Xəzər xaqanlığının ərazisindən keçdikləri üçün slavyanlar onlara vəd verdilər ki, əldə olunacaq qənimətin yarısı xaqanlığa veriləcək. Vədə görə arxayın olan slavyanlar hücuma keçdilər. Abşeron sahilindəki ərazilərdə dəhşətli talanlar törətdilər. Slavyanlar Pirallahı, Zirə, Zənbilə, Sarı və s. adalarda mökəmlənərək basqınlar edirdilər.

Dinc əhaliyə divan tutdular. Qadınlar və uşaqlar əsir götürüldü. Talançılar geri çəkilərkən Xəzərin şimal sahillərində türk-müsəlman qoşunları ilə qarşılaşdılar. Döyüşdə darmadağın edilən slavyanlar ölkədən qovuldular. Bu məğlubiyyət slavyanların ayağını bir müddət Xəzərsahili torpaqlardan kəssə də, qarətçilərin nəfsinə üstün gələ bilmədi.

***Tapşırıq***
Müasir Azərbaycan donanması haqqında məlumat topla.

***«Arranın anası» Bərdənin faciəsi.*** Otuz illik fasilədən sonra slavyanlar 944-cü ildə yenidən Xəzər sahillərinə hücum etdilər. Bu dəfə ələ keçirmək istədikləri «yağlı tikə» Bərdə şəhəri idi. O zaman Bərdə Yaxın və Orta Şərqdə ən böyük ticarət və sənətkarlıq mərkəzlərindən biri idi. Slavyanlar Qafqazın baş şəhəri, «Arranın anası» kimi tanınan Bərdəni böyük qənimət mənbəyi hesab edirdilər. Böyük Nizami Bərdəni belə vəsf etmişdir:

***Tapşırıq***
Venn diaqramına əsasən Bərdə faciəsi ilə Xocalı faciəsini müqayisə et.

*Bərdə nə gözəldir, necə qəşəngdir,*
*Yazı da, qışı da güldür, çiçəkdir.*
*Yazında dağlara lalələr səpər,*
*Qışını baharın nəsimi öpər.*
*O yaşıl meşəsi cənnətə bənzər,*
*Şən ətəklərinə bağlamış kövsər.*
*Söyüdlük çöllərə vermişdir zinət,*
*Ağ bağı elə bil həqiqi cənnət.*
*Qırqovul yuvası hər sərv ağacı,*
*Oxuyur kəkliyi, ötür turacı.*
*Səssizlik içində dincəlir gülşən,*
*Torpağı silinmiş qayğı, kədərdən.*
*Reyhanı yaşıldır illər uzunu,*
*Hər çeşid naz-nemət bürümüş onu.*
*Yem üçün gələr quş bu gözəl yurda,*
*İstəsən «quş südü» taparsan burda.*

***Tapşırıq***
Müasir Bərdə haqqında məlumat toplayıb böyük Nizaminin əsərindəki Bərdə ilə müqayisə et.

Azərbaycan torpaqlarına hücum edən slavyanlar gəmilərlə əvvəlcə Kürün mənsəbinə doğru, oradan isə Bərdəyə tərəf irəlilədilər. Ərəb tarixçilərinin verdiyi məlumata görə, onlar Bərdə yaxınlığında, Kür sahilində düşərgə saldılar. Gəmiləri sahildə qoyaraq Bərdəyə hücum etdilər.

Bərdə hakiminin hərbi dəstəsi çox az idi. O, düşmənlə üz-üzə gəlsə də, hücumun qarşısını ala bilmədi. Bərdə slavyanların əlinə keçdi. Şəhər qarət olundu.



*Slavyanlar Xəzərin sahilində*

Slavyanlar tələb etdilər ki, bərdəlilər üç gün ərzində şəhərdən çıxıb getsinlər. Doğma şəhəri tərk etmək istəməyən dinc əhali kütləvi surətdə qılıncdan keçirildi. Mənbələrin məlumatına görə, bu dəhşətli faciə zamanı Bərdə əhalisinin təqribən 20 min nəfəri qətlə yetirilmişdir.

***Tapşırıq***

Bərdədəki hadisələrin kütləvi qırğın faciəsi olduğunu əsaslandır.

Vəziyyətin ağır olduğunu görən Salari hökmdarı Mərzban ibn Məhəmməd Bərdənin köməyinə gəldi. O, qoşunu ilə şəhəri mühasirəyə alsa da, xilas edə bilmədi. Mosul hakiminin Azərbaycanın cənub sərhədlərini pozması xəbəri Salari Məhəmmədin geri qayıtmasına səbəb oldu, lakin Bərdənin kiçik hərbi dəstə tərəfindən mühasirəsi davam edirdi. Hərbi dəstədə yoluxucu xəstəlik yayılmağa başladı. Qarətçilər gecə şəhəri yandırıb, əldə etdikləri qənimətləri də götürüb qaçdılar.

Bu faciədən sonra uzun müddət Bərdə dirçələ bilmədi. Sənətkarlıq və ticarət tənəzzül etdi. Şəhərdə pul kəsilməsi dayandı. Məşhur Bərdə bazarı əvvəlki əhəmiyyətini itirdi. Arranın baş şəhəri olan Bərdənin mövqeyi zəiflədi. Nizami Gəncəvi «İsgəndərnamə» poemasında Bərdənin bu vəziyyətini belə təsvir edir:

*İndi o dərgahın taxtı alçalmış,*
*İpəyi, qumaşı küləklər çalmış.*
*Təzə nar gülləri tökülüb solmuş;*
*O narlar, nərgizlər dönüb toz olmuş.*
*İndisə yerində bu gözəl yurdun,*
*Var sel yumuş dərə, qurumuş odun.*

Sən bu vəziyyətdə necə davranardın?

***Düşməndən kömək istəyən yerli hakimlər.*** Slavyanların Azərbaycana basqını sonuncu olmadı. Azərbaycan hakimlərinin bəziləri öz hakimiyyətlərini, var-dövlətlərini qorumaq üçün slavyanları köməyə çağırdılar. Slavyanlar kömək üçün uzanmış əli geri qaytarmayıb bu fürsəti anında dəyərləndirdilər. 987-ci ildə Dərbənd hakimi yerli əyanlara qarşı «ruslar»dan kömək istədi. Hətta o öz yanında slavyanlardan ibarət dəstə saxlayırdı.

## SLAVYANLARIN AZƏRBAYCAN TORPAQLARINA HÜCUMU



Müasir Azərbaycanın dəniz dövləti olmasının nə kimi əhəmiyyəti vardır?

1032—1033-cü illərdə slavyanların Şirvana yenidən hücumu zamanı paytaxt Şamaxı ələ keçirildi. Vətənin müdafiəsinə qalxan əhali mübarizə aparıb onları qovdu.

Bəhs olunan dövrdə Azərbaycan hökmdarlarının heç biri ölkəni Xəzər dənizi tərəfdən qorumaq barədə düşünmürdü. Hərbi donanmanın olmaması Azərbaycan torpaqlarının yadelli hücumlarından qorunmasına mane olurdu. Azərbaycanda qüdrətli dəniz dövlətinin olmaması qarətçi yürüşlərə imkanlar açırdı.

1. *Slavyanların sonrakı yürüşlərinə səbəb nə oldu?*
2. *Slavyanların 944-cü ildəki hücumu nə məqsədlə təşkil edilmişdi?*
3. *Slavyanların Bərdəyə yürüşü niyə «Bərdə faciasi» adını aldı?*
4. *Bərdənin faciədən sonrakı vəziyyəti necə idi?*

1. *Slavyanların Xəzəryanı ərazilərə yürüşünün xarakterini müəyyən et.*
2. *Salari hökmdarının Bərdəni müdafiə edə bilməməsinin səbəblərini müəyyən et.*
3. *Hakimiyyətlərini qorumaq üçün slavyanlara müraciət edən hakimlərin siyasətini təhlil et.*

**4**

Kür sahilində də... düşərgə saldılar. Slavyanlar... Bərdəyə hücum etdilər... Bərdə hakimi... hərbi qüvvəsi sayca onlardan qat-qat artıq olan yadellilərə müqavimət göstərə bilmədi. Bərdə slavyanların əlinə keçdi. Əhali qılıncdan keçirildi və şəhər amansızcasına qarət olundu... Bərdəliləri itaətdə saxlamağın mümkün olmayacağını yəqin edən slavyanlar... tələb etdilər ki, üç gün ərzində şəhərdən çıxıb getsinlər... Doğma şəhəri tərk edib gedə bilməyən Bərdə əhalisini yenidən qılıncdan keçirirdilər. Sağ qalanları ... məscidə toplayıb... adambaşına 20 dirhəm pul tələb etdilər,.. pulu olmayanlara isə divan tutdular. Mənbələrin məlumatına görə, bu zaman Bərdədə, ümumiyyətlə, 20000 nəfərə qədər adam öldürülmüşdü.

# 9. ƏHALİNİN MƏŞĞULİYYƏTİ VƏ HƏYAT TƏRZİ



Ölkəmiz gündən-günə çiçəklənir. Xalqımızın həyat səviyyəsi yüksəlir. Vətənimizin siması daha da gözəlləşir. Ölkə prezidentinin fəaliyyəti nəticəsində yeni-yeni islahatlar həyata keçirilir. Uğurlu siyasət nəticəsində dünya dövlətlərinin Vətənimizə olan maraqları artıb.

*Görəsən, Ərəb xilafətinin hakimiyyəti dövründə Azərbaycanın iqtisadi həyatında hansı yeni qaydalar tətbiq edilib? Bəs müstəqil dövlətlər yarandıqdan sonra xalqın rifahı yaxşılaşdımı? Bu sualları cavablandır və fikrini ümumiləşdir.*

Feodal dövlətlərin bir-birini əvəz etməsi xalqın həyat tərzinə necə təsir etdi? Xilafətin vurduğu zərbədən ölkəmiz dirçələ bildimi? IX—XI əsrlərdə Azərbaycanda torpaqdan necə istifadə olunurdu? Ölkəmizdə sənətkarlıq, ticarət inkişaf etmişdimi? Tarixi mənbələrdə verilən məlumatları və faktları araşdırıb suallara cavab tapmağa çalış.

***Ticarət yolları üzərində yerləşən Azərbaycan.*** Ərəb xilafəti zəiflədikdən sonra Azərbaycan torpaqlarının müstəqil olması ölkənin təsərrüfatını dirçəltdi. Əlverişli şəraitə malik məhsuldar torpaqlar haqqında geniş məlumat IX—XI əsr ərəb səyyahlarının əsərlərində öz əksini tapıb. Əhali əkinçilik və bağçılıqla məşğul olurdu. Kotanla şumlanan torpaqlarda taxıl və digər dənli bitkilər yetişdirilirdi.

Bu dövrdə ipəkçilik inkişaf etmişdi. Əhali Şəkidə, Şirvanda, Bərdə ətrafında, habelə ölkənin digər ərazilərində ipəkqurdu yetişdirmək məqsədilə tut ağacı bağları salmışdı.

Qırmızböcəyi, vergi sistemi, mülkədar, uluclar, karvan yolları

Orta əsr səyyahları hansı elm və biliklərə malik idilər? Fikrini əsaslandır.

Balıqçılıq əhalinin qədim peşələrindən biri idi. İbn Havqəl yazır ki, Kür və Araz çaylarından tutulan balıq Ərdəbil, Rey və İraqa göndərilirdi. İxrac olunan məhsullar sırasında balın və mumun olması isə arıçılığın ölkə həyatında mühüm rol oynamasının göstəricisidir.

Bol sərvətlərlə zəngin ölkəmizdə ticarət üçün geniş imkanlar vardı. Dağlarda qızıl, gümüş, civə, qurğuşun və başqa qiymətli metallar çıxarılırdı. Təbriz, Naxçıvan və Bakıda duz istehsal olunurdu. Bakıda həm də neft quyuları vardı.

IX—XI əsrlərdə Azərbaycanda ipək, yun, pambıq və kətan parçalar istehsal olunurdu. Bəzz qalası ətrafından çıxarılan qırmızı kvas parçaların boyanmasında istifadə olunurdu. Hətta bu boya İraq və Yəmənə də göndərilirdi. Toxucuların qırmız böcəyindən hazırladıqları «qırmız» adlanan boya isə ərəb tarixçisi əl-İs-təxrinin yazdığına görə, Bərdədən Hindistana və başqa yerlərə ixrac edilirdi.

**Bakuyə.** Şirvan vilayətinin Dərbənd dairəsində şəhərdir. Burada «neft quyusu var. Onun icarə haqqı bir min dirhəmə çatır, o quyunun yanında isə arası kəsilmədən, gecə-gündüz civə kimi qatı ağ neft püskürən başqa bir quyu da var. Bu quyunun da icarə haqqı birincininki kimidir». İnandığım tacirlərdən biri mənə danışırdı ki, orada özözünə həmişə yanan bir yer görmüşdür.

*Yaqut al-Hamavi*



*Orta əsr şəhərində bazar*


که او را قدرت استنباط نباشد اصلاً اما چون وصیتها صاحب صناعت
دران باب حفظ کند و تبانی بتتبع آن وصایا میکند عمل تمام شود

*Orta əsr şəhərində sənətkar emalatxanası (miniatür rəsm)*

Beynəlxalq ticarət yolunun üstündə yerləşən Azərbaycan şəhərləri məşhur ticarət mərkəzləri idi.

***IX—XI əsr şəhərlərinə səyahət.*** Karvan yolları üstündə yerləşən, müdafiə üçün əlverişli təbii-coğrafi şəraitə malik olan şəhərlər görünüşcə bir-birinə çox bənzəyirdi. İkiqatlı qala divarları ilə qorunan şəhərlərin ətrafı həm də enli və dərin xəndəklərlə əhatə olunurdu. Daş və kərpicdən tikilən qala divarlarına bir neçə yerdən möhkəm qapılar qoyulurdu. Şəhər iki hissədən ibarət olurdu: içəri şəhər və bayır şəhər. Evlər və təsərrüfat binaları içəri şəhərdə, əkin-biçin yerləri isə qala divarının bayır hissəsində yerləşirdi. Şəhərlərin ən gur yeri, bir qayda olaraq, Cümə məscidi yaxınlığında yerləşən bazar meydanı idi. O dövrdə Bərdə, Şabran, Təbriz, Ərdəbil, Dərbənd, Tiflis böyük şəhərlər sayılırdı. İbn Havqəl Bərdəni Azərbaycanın «başlıca şəhəri» adlandıraraq Bağdadla eyniləşdirmiş, şəhərin bazarından bəhs etmişdir.

Qala divarları ilə əhatə olunan **Dərbənd** dövrün ən böyük liman şəhəri idi. Ərəb müəlliflərinin məlumatına görə, çox səliqəli olan bu şəhərdə, hətta kanalizasiya sistemi də yaradılmışdı.

***Tapşırıq***

Şəklə baxıb fikrini bildir.

Müasir dövrdə paytaxtımız Bakı nə ilə məşhurdur?

**Bab əl-Əbvab (Dərbənd)**
Təbəristan dənizi sahilindədir, ona Xəzər dənizi deyirlər. Bu şəhər Ərdəbildən iki kvadrat mil böyükdür. Şəhərin çoxlu əkin yerləri var, ancaq meyvə ağacları azdır, meyvəni buraya başqa yerlərdən gətirirlər. Şəhərin dağlardan üzüaşağı enən qala divarları var. Bu dağlarda elə bir yol yoxdur ki, onlar ilə müsəlman ölkələrinə girə biləsən.

*Yaqut al-Hamavi*

Sənin ailəndə hansı vergilər ödənilir? Sadala.

Bakı Dərbənddən sonra ikinci liman şəhəri idi. Mənbələrdə qeyd edilir ki, Abşeronun neft «bulaqları» Bakını qonşu ölkələrdə də məşhurlaşdırırdı.

Arranın ən böyük şəhərlərindən biri sayılan Tiflis «suyu odsuz qızdırılan» müalicə hamamları ilə məşhur idi. Qala divarları ilə əhatə olunan Tiflis, həm də ticarət mərkəzi kimi tanınırdı.

IX—XI əsrlərdə bol məhsul verən torpaqt lardan səmərəli istifadə etmək, ölkə sərvətlərindən dövlətin və xalqın xeyrinə faydalanmaq mühüm şərt idi. Bəs bu torpaqların gəliri hara gedirdi? Bu torpaqlara nəzarət necə aparılırdı?

***Torpaq necə bölünürdü?*** IX—XI əsrlərdə torpaq üzərində mülkiyyətin bir neçə forması mövcud idi. Dövlətə məxsus torpaqlar divan torpaqları adlanırdı. Ən geniş yayılan torpaq mülkiyyəti mülk torpaqları idi. Bu torpaqlar irsi keçirdi. Mülk sahibləri malik və ya mülkədar adlanırdı. Mülk sahiblərinin öz torpağını satmaq və bağışlamaq hüququ vardı. Ərəblərdən qalma şərti torpaq mülkiyyəti iqta idi. İqta dövlətə xidmət müqabilində verilirdi. Dini idarələrə, məscidlərə məxsus torpaqlar vəqf adlanırdı. Vəqf torpaqlarında yaşayan əhali vergini dini idarələrə ödəyirdi.

Cəmiyyətdə əsas aparıcı qüvvə olan kəndlilər isə iki hissəyə — uluclara və azad kəndlilərə bölünürdü. Feodallardan asılı vəziyyətdə olan kəndlilər uluclar adlanırdı. İstər azad kəndlilər, istərsə də uluclar dövlətə vergi ödəməyə borclu idilər.

Bəs, görəsən, o dövrdə vergi necə toplanırdı?

***Əsas gəlir mənbəyi — vergi.*** Torpaqdan istifadə müqabilində alınan vergi üşr (onda bir) adlanırdı. Dini vergi növləri zəkat və xüms idi. Müsəlman olmayan əhali isə can vergisi — cizyə ödəməli idi. Müstəqil dövlətlərin yaranması əhalinin vəziyyətini nisbətən yaxşılaşdırmışdı. Salari hökmdarı Mərzban ibn Məhəmməd vergi sistemini nizama salmaq üçün xüsusi qanunnamə hazırlatmışdı. Vergilərin toplanması və özbaşınalığın aradan qaldırılması ölkədə vəziyyəti bir müddət yaxşılaşdırdı. Lakin vahid dövlətin olmaması, feodal hərc-mərcliyi, həmçinin bir-birini əvəz edən dövlətlərin arasındakı mübarizə əhaliyə ciddi ziyan vururdu.

**Təbriz.** Azərbaycanda ən çox tanınmış şəhər. Bu, çox adam yaşayan, kərpic və əhəngdən yaxşı hörülmüş divarları olan gözəl şəhərdir. Şəhərdən çoxlu kiçik çaylar axır. O, bağlar içindədir, şəhərdə meyvə ucuzdur.

*Yaqut al-Hamavi*

1. *Azərbaycanın təbii şəraiti, sərvətləri hansı təsərrüfat sahələrinin inkişafına şərait yaradırdı?*
2. *Salari Məhəmmədin qanun- naməsi nəyə xidmət edirdi?*
3. *Feodal hərc-mərcliyi nəyə səbəb olurdu?*

1. *Orta əsr şəhərləri haqqında məlumat topla.*
2. *Torpaq mülkiyyət formalarına aid sxem qur.*
3. *Feodal-kəndli münasibətlərini təhlil et.*
4. *Ərəb səyyahlarının şəhərlərimiz haqqında yazdıqları fikirləri şərh et.*

# 10. IX—XI ƏSRLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ



Aynur ilə Ayxan kəndə — babasıgilə getmişdilər. Novruz bayramı günləri idi. Kənd bayram günlərini yaşayırdı. Bacıyla qardaş babaları ilə kəndin görməli yerlərini gəzib, fotoşəkillər çəkirdilər. Birdən Ayxanın diqqətini uzaqdan görünən körpü cəlb etdi. Böyük maraqla babasından soruşdu: — Baba, o körpü niyə dağılıb? O yolla hara getmək olar?

Baba nəvələrini oradan uzaqlaşdırmağa tələsdi. Çünki körpünün yerləşdiyi ərazi erməni işğalı altında idi. Evə qayıdandan sonra baba onlara Xudafərin körpüsü haqqında danışdı.

*Səncə, bu körpünün Azərbaycan xalqı üçün tarixi əhəmiyyəti nədən ibarətdir?*

Azərbaycan torpaqlarının Xilafət tərəfindən işğalı ölkənin talanlara məruz qalmasına səbəb olmuşdu. Bununla yanaşı, ərəb işğalının müsbət tərəfi də vardı. Bu, İslam dininin yerli əhali arasında yayılması idi.

Həmin dövrdə elm və təhsilin inkişafı üçün şərait yarandımı?

Dədə Qorqud, oğuzlar, hərb sənəti, hərbi məclis, Xudafərin körpüsü

Ölkəmizdəki böyük quruculuq, abadlıq işlərini tərəqqi adlandırmaq olarmı? Fikrini bildir.

***Azərbaycanın inkişafına yol açılır.*** Ərəb xilafətinin zəifləməsi, müstəqil dövlətçiliyin dirçəlişi, ölkədə yaranmış yerli dövlətlərin müstəqil siyasəti Azərbaycanın dirçəlişinə səbəb oldu. Həyat canlanır, sənətkarlıq və ticarət inkişaf edir, xaraba qalmış ərazilər abadlaşdırılırdı. Şəhərlərin bərpası, məscid və kitabxanaların, təhsil ocaqlarının tikilib istifadəyə verilməsi ölkənin mədəni oyanışı üçün təkan verirdi. Əsas ünsiyyət dili — rəsmi dil ərəb dili idi. Təhsil ocaqları bu dilin öyrədilməsi ilə məşğul olurdu. Azərbaycanda çoxlu məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Xalqın adət-ənənələri və mədəniyyəti islam dəyərləri ilə birləşərək türkislam mədəniyyətini formalaşdırdı.



*Əlincə qalasının yerləşdiyi Əlincə dağı*

Abadlıq işlərinin aparılması memarlığın yüksəlişinə təkan verdi. İslam mədəniyyətinə uyğun olaraq məscid və minarələr, saraylar inşa olunurdu. 920-ci ildə Şamaxının Sündi kəndində tikilmiş günbəzli məscid dövrün memarlığını özündə əks etdirir. Bu dövrün abidələrindən biri olan Əlincə qalasında yaşayış yerləri və digər tikililər salınmışdı.

Ticarətin inkişafında mühüm rol oynayan karvansaralar beynəlxalq ticarət yolları üzərində inşa edilirdi. Möhkəm tikili olan bu abidələr, həm də tacirlərin təhlükəsizliyini təmin edirdi. Bu dövrün ən məşhur abidəsi hesab olunan Xudafərin körpüsü Araz çayı üzərində salınmışdı. Bu körpü Azərbaycanın şimalı ilə cənubu arasında iqtisadi və mədəni əlaqələrin inkişafında mühüm rol oynayırdı. 1027-ci ildə Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd tərəfindən tikdirilən bu körpü möhkəmliyi ilə yanaşı, memarlıq cəhətdən də göz oxşayırdı.

***Tapşırıq***
Orta əsrlərin memarlıq abidələrindən birini təsvir et.

***Zəngin ədəbi nümunəmizin sorağı ilə.*** Azərbaycanda İslam dininin yayılması elmin inkişafına təkan verdi.



*Xudafərin körpüsünün yerləşdiyi Cəbrayıl rayonu erməni işğalı altındadır*

IX əsrdən başlayaraq təbiət elmlərinə maraq artmağa başladı. Tibb elmi inkişaf edir, ölkədə yaxşı həkimlər yetişirdi. Astronomiya və göy cisimlərinə maraq artırdı.

Şifahi xalq ədəbiyyatının inkişafı bu dövrün mədəniyyətinin ən böyük uğurlarından biri idi. Azərbaycan ədəbiyyatının ən qədim və zəngin tarixi abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanı buna parlaq nümunədir. Bu dastan VII— IX əsrlərdə şifahi şəkildə el sənətkarlarının — ozanların dili ilə şimallı-cənublu bütün ölkə ərazisində yayılmışdı. «Kitabi-Dədə Qorqud» dastanı türk dilində, ərəb əlifbası ilə yazıya alınmışdır. Bu dastan Azərbaycan dilinin dünyanın ən qədim dillərindən biri olmasından xəbər verir. Çox sonralar isə Avropa kitabxanalarından tapılan bu əsər Azərbaycana məxsus bir inci kimi dəyərləndirildi. Xalqımızın tarixən formalaşmış adət-ənənələri bu əsərdə öz əksini tapmışdır. Dastanda Dərbənddən Diyarbəkirədək, Xəzərdən Trabzonadək geniş ərazilərdə baş verən hadisələrdən bəhs edilir. Qarabağ, Göyçə götü, Naxçıvan, İrəvan elləri və başqa Azərbaycan torpaqlarının adı da çəkilir.




*Azərbaycan Respublikasının . Prezidenti İlham Əliyev «Kitabi-Dədə Qorqud» abidəsini açarkən*

Bu dastan böyük türk dünyasının müştərək əsəri hesab olunur. Lakin onun Azərbaycan torpaqlarında formalaşmasını, bizim xalqımıza məxsus olmasını sübut edən çoxsaylı və danılmaz dəlillər vardır. Oğuz bilicisi və ağsaqqalı sayılan Dədə Qorqudun Azərbaycanda yaşaması, məzarının Dərbənddə olması bunu sübut edir. Eyni zamanda dastandakı bütün yer adl arının Azərbaycana məxsusluğu, hadisələrin ölkəmizin ərazilərində cərəyan etməsi bunu bir daha təsdiq edir. Elə buna görədir ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə «Kitabi-Dədə Qorqud» dastanlarının 1300 illiyi məhz bizim Vətənimizdə keçirilmişdir. Paytaxtımızın ən görkəmli yerində Dədə Qorqud Parkı salınmış, məşhur Dədə Qorqud abidəsi ucaldılmışdır.

*«Kitabi-Dədə Qorqud» Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Elm aləminə XIX əsrdən məlum olan «Kitabi-Dədə Qorqud»un iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. Bu dastanlar islamdan öncə Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Gəncə, Əlincə, Göyçə gölü və s. yerlərdə cərəyan edir. «Kitabi-Dədə Qorqud»u yazıya köçürən şəxs Dədə Qorqudu bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edir. «Kitabi-Dədə Qorqud» yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatla zəngindir. Soykökümüzü, tariximizi, dövlətçiliyimizi və Azərbaycan türkcəsini öyrənmək baxımından zəngin mənbə olan «Kitabi-Dədə Qorqud» yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ölməz kitabıdır.*

**HEYDƏR ƏLİYEV**



*«Salur Qazanın evinin yağmalanması boyu»ndan*



*«Qanlı qoca oğlu Qanturalı boyu»ndan*

***Türkün şirin dili Dədə Qorqudun dilində.*** Dastan baş qəhrəman olan sazlı-sözlü Dədə Qorqudun dili ilə danışılır. O, oğuz igidlərinə nəsihət verir, yol göstərir. O, yuxunu «kiçik ölüm» sayaraq oğuzlara düşməndən qorunmaq üçün ayıq-sayıq olmağı nəsihət edir. Oğuz türkləri üçün vətən müqəddəs idi. Buna görə də dastandakı bütün hadisələrin sonunda oğuz igidləri nə qədər uzağa getsələr də, sonda öz yurd-yuvalarına dönürlər.

«Kitabi-Dədə Qorqud» dastanını mənbə hesab etmək olarmı? Fikrini əsaslandır.

Öz aralarında nə qədər inciklik olursa-olsun oğuzlar birlik tələb olunan yerdə bütün kin-küdurəti unudurdular. Əsasən də, yurd sevgisi onları incik qoya bilməzdi. Vətən sevgisi oğuz türklərini həmişə sıx birləşdirirdi.

***Dastanda oğuz tarixinin təsdiqi.*** Dastandan məlum olur ki, oğuz türkləri oturaq həyat sürür, taxılçılıq, bağçılıq və bostançılıqla məşğul olurdular. Dastanda əmtəə-pul münasibətləri haqqında fikirlər də çoxdur. Boylarda qızıl pul olan «altun axça»nın adına tez-tez rast gəlinir.

Ciddi hərbi intizama malik olan oğuzların başında «xanlar xanı» dururdu. Bütün məsələlərə hərbi məclisdə baxılır, səfərə çıxmaq istəyən igidlər «xanlar xanı»ndan icazə alırdılar.

Şəhidlərin dəfn olunduğu Şəhidlər xiyabanları and yeri ola bilərmi? Münasibətini bildir.

Azərbaycan İslamı qəbul etmiş ilk türk məskənlərindən biridir. İslamdan öncə Tanrıya sitayiş edən türk xalqları bu dini tez qəbul etdilər. Onların Ulu Tanrıya — yəni tək Allaha sitayiş etməsi bunu asanlaşdırdı. Tezliklə türklər İslamın təbliğatçısına çevrildilər. Dastanın ozan qəhrəmanı Dədə Qorqud Məhəmməd peyğəmbərin müasiri idi. Hətta dastanda qeyd olunur ki, oğuz igidlərindən Peyğəmbəri görənlər də olmuşdu. Dastan qəhrəmanlarından biri olan Dəli Domrul müqəddəs kitaba — «Qurani- Kərim»ə əl basıb and içir ki, düşmənə qarşı döyüşəcəkdir.

Azərbaycan Respublikası hansı İslam təşkilatlarının üzvüdür? Araşdır.

İslamın türklər tərəfindən qəbulu türk-islam birliyini yaratdı. Vahid dinin qəbulu dövlətçiliyin inkişafına müsbət təsir göstərərək onun yüksəlişinə səbəb oldu.

IX—XI əsrləri əhatə edən siyasi dirçəliş, müstəqil dövlətlərin yaranması, iqtisadi tərəqqi Azərbaycanın mədəni həyatına müsbət təsir göstərdi. Xalqın elm və ədəbiyyata marağı artdı, məşhur tarixi şəxsiyyətlərin, şair və alimlərin yetişməsinə zəmin yarandı.

1. *İslam dininin elm və təhsilə təsiri necə oldu?*
2. *Xilafət dövründə ən çox hansı tikililərə üstünlük verilirdi?*
3. *İslam dini «Kitabi-Dədə Qorqud» dastanında öz əksini necə tapıb?*

1. *IX-XI əsr Azərbaycan memarlığı haqqında təqdimat hazırla*
2. *Türk dünyasının şah əsəri olan «Kitabi-Dədə Qorqud» dastanı haqqında esse yaz.*
3. *Türk xalqlarının dastanda verilmiş həyat tərzini təsvir et.*
4. *«Kitabi-Dədə Qorqud» dastanlarının 1300 illiyi barədə bildiklərini yoldaşlarınla müzakirə et və gəldiyin nəticələri yaz.*

# OĞUZ-SƏLCUQ AXINLARI VƏ AZƏRBAYCAN

## 11. OĞUZ-SƏLCUQ AXINLARI



Qəmər müəllimə uzun illərdir ki, orta məktəbdə ədəbiyyat fənnini tədris edir. Onun dərsləri bir-birindən maraqlı olur. Bir gün o, dahi Nizami Gəncəvinin «Sirlər xəzinəsi» poemasından «Sultan Səncər və qarı» hekayəsi barədə şagirdlərə məlumat verirdi. Çiçək əlini qaldırıb soruşdu:

— Müəllim, Sultan Səncər kim olub?

Qəmər müəllimə: — Sultan Səncər türk tayfalarının yaratdığı Səlcuq dövlətinin sultanı olub, — dedi və səlcuqlar, onların Azərbaycan tarixindəki yeri haqqında qısa məlumat verdi.

*Qəmər müəllimə səlcuqlar haqqında hansı məlumatı verdi? Səlcuq türkləri kimdir? Onların Azərbaycan tarixində nə kimi rolu olmuşdur?*

Bütün bunlara cavab tapmaq üçün gəlin, araşdırma aparaq.

Səlcuq axınları, «Oğuznamə», etnik amil, siyasi amil, Sultan Toğrul

***Azərbaycana yeni türk axınları.*** Azərbaycan ən qədim zamanlardan türk tayfalarının yaşadığı ərazilərdən biridir. Bu ölkə digər türk tayfaları ilə yanaşı, oğuz türklərinin də vətəni idi. Xilafətin zəiflədiyi dövrdə Azərbaycanda islam-türk etnik-siyasi amili daha da qüvvətləndi. Həmin dövrdə Bizans imperiyasından, erməni və gürcü feodallarından ibarət vahid xristian bloku yaranmışdı. Bu bloka qarşı mübarizənin taleyi Azərbaycan cəbhəsində həll olunurdu. Xilafət parçalandığından Bizansa qarşı İslam dünyasının mübarizəsində əsas rol türklərə məxsus idi.



*Səlcuq bəy*

Səncə, türklər nə üçün Anadoluda möhkəmlənməyə çalışırdılar?

Beləliklə, bu mübarizədə türklər həlledici hərbi-siyasi amilə çevrildi. Bu amilin də əsas istinadgahı* Azərbaycan idi.

Uzun müddət müxtəlif türk tayfaları Anadoluda möhkəmlənməyə çalışmışlar. Azərbaycan isə həmin tayfalar üçün arxa cəbhə olmuşdur. Səlcuq türkləri də əsas hücum hədəfi kimi Bizans torpaqlarını seçmişdilər. Bu tayfanın adı Səlcuq bəyin adı ilə bağlıdır. Səlcuq dövlətinin banisi isə onun nəvəsi Toğrul bəy (1038—1063) olmuşdur. Səlcuqun nəvəsi Çağrı bəy kəşfiyyat yürüşünə çıxdı və Bizans qoşunlarına qalib gəldi. Səlcuqlar Van gölü hövzəsini tutdular. Beləliklə, Naxçıvan və onun ətrafındakı Azərbaycan-türk torpaqlarının Bizans və erməni feodallarının hücumuna qarşı təhlükəsizliyi təmin olundu.

Səlcuqlar 1038-ci ildə Nişapur şəhərini paytaxt seçərək dövlət yaratdılar. Toğrul bəy 1040-cı ildə sultan elan olundu. Çox keçmədən ölkəmizin şimalında möhkəmlənən səlcuqlar Bizans, erməni və gürcü təcavüzünə qarşı mübarizədə Şəddadilərlə birləşdilər. Birləşmiş türk hərbi qüvvələri Bizans, erməni və gürcü feodallarına ağır zərbələr endirdilər.

Səlcuq imperiyasının yaranması ümumdünya tarixinə, o cümlədən Azərbaycanda siyasi hadisələrin gedişinə çox böyük təsir göstərdi. Xalqımızın taleyinin, tarixi müqəddəratının həllində, müstəqil dövlətçilik ənənələrinin qorunub saxlanmasında mühüm rol oynadı.



*Sultan I Toğrul*

***İstinadgah** — sığınacaq, müdafiə üçün əlverişli yer*

## BÖYÜK SƏLCUQ DÖVLƏTİ




Azərbaycanın cənub əyalətləri səlcuq sərkərdəsi Həsənin nəzarəti altına keçdi. Səlcuq— Azərbaycan türk qoşunları 1048-ci ildə Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrini darmadağın etdilər. Bizans səlcuqlarla sülh bağlamağa məcbur oldu.

1054-cü ildə Sultan Toğrulun hərbi qüvvələri Təbrizə yaxınlaşdı. Rəvvadi hökmdarı Səlcuq sultanına tabe olduğunu bildirdi. Sultan Toğrul Gəncəyə hücum etdi. Şəddadi hökmdarı Əbüləsvar Şavur səlcuqlara tabe oldu. Hər iki hökmdar razılığa gəldi ki, ümumi təhlükəyə — Bizans, erməni və gürcü təcavüzkarlarına qarşı birlikdə mübarizə aparsınlar.

Səlcuq türkləri Şirvana da yürüş etdilər. Onlar burada ciddi müqavimətlə qarşılaşdılar. Şirvanşahlar 12 il müqavimət göstərdi. 1066-cı ildə səlcuqlar çox böyük çətinliklə Şirvanşahlar dövlətinin müqavimətini qırdılar. Şirvanşah Fəribürz «Şirvanşah» titulundan məhrum edildi.



*Səlcuq canişinlərinin Azərbaycanda kəsdirdikləri mis pullar*

Beləliklə, Azərbaycan bütünlüklə Böyük Səlcuq imperiyasının tərkibinə daxil oldu.

***Türk türkə qucaq açdı.*** Səlcuq axınları nəticəsində türk tayfalarının yeni dəstələri Azərbaycanda məskən saldılar. Eyni kökdən olan və eyni dildə danışan oğuz-səlcuq türkləri ilə qədim Azərbaycan türkləri tez bir zamanda qaynayıb-qarışdılar. Səlcuq axınları nəticəsində oğuz-türk tayfaları Cənubi Qafqazda, o cümlədən Azərbaycanda başlıca etnik və siyasi amilə çevrildilər.

Səlcuq türklərinin axınları Bizans imperiyasının Cənubi Qafqazda möhkəmlənmək planını puça çıxardı. Erməni və gürcü təcavüzkarlarının ölkəmizin qərb ərazilərinə yiyələnmək planlarının qarşısı alındı. Beləliklə, Cənubi Qafqazı bütünlüklə xristianlığın təsir dairəsinə salmaq planı baş tutmadı.

Səlcuq sultanları mərkəzi hakimiyyəti möhkəmləndirməyə çalışırdılar. Bu məqsədlə onlar özlərinə hərbi-siyasi dayaqlar yaradırdılar: torpaqları hərbi xidmət müqabilində iqta şəklində səlcuq əmirləri arasında bölüşdürürdülər. Nəticədə, iqta Azərbaycanda başlıca torpaq mülkiyyəti formasına çevrildi. Bu isə yurd saldıqları ərazilərdə səlcuq türklərinin hərbi-siyasi hakimiyyətini qüvvətləndirdi. Zaman keçdikcə iqta torpaqları irsən, nəsildən-nəslə keçərək, demək olar ki, mülk torpaqlarından fərqlənmədi.

Böyük Səlcuq imperiyası dövründə meydana gələn torpaq mülkiyyəti formalarından biri də uc torpaqları idi. Səlcuq imperiyasının sərhədlərini qoruyan sərkərdələrə verilən torpaqlar belə adlanırdı. İstər iqta, istərsə də uc torpaqları ölkəmizə yeni-yeni axınlar edən türk tayfalarının bu ərazidə daimi məskunlaşmasına şərait yaradırdı.

Şirvanşahların səlcuqlara müqavimət göstərməsini necə qiymətləndirirsən? Fikrini izah et.

**5**

Ər igid ölmüş, qanun ölməmiş.

* * *

El sərrafdır: eyriyi-yatluyu (doğrunu) bilir.

* * *

Otuz iki dişdən çıxan orduya yayılır.

«Oğuznamə»dən el məsəlləri

İqta torpaq mülkiyyəti ilk dəfə nə vaxt tətbiq edilmişdir?

Oguz-səlcuq axınları nəticəsində ölkəmizdə türkmənşəli əhalinin sayı daha da artdı. Soykökü, dili və dini bir olan bu tayfalar çox asanlıqla və sürətlə qaynayıb-qarışdılar. Beləliklə, oguz- səlcuq axınları nəticəsində Azərbaycan türk xalqının formalaşması prosesi başa çatdı. Vətənimizin Bizans imperiyası və onun müttəfiqləri tərəfindən işgal olunması təhlükəsi tamamilə aradan qaldırıldı.

Azərbaycanlılar hansı dövrlərdə və kimlər tərəfindən öz dogma yurdlarından zorla köçürülüblər? Araşdır.

1. *Azərbaycanın Böyük Səlcuq imperiyasının tərkibinə daxil olmasının əhəmiyyəti nədən ibarətdir?*
2. *«Əsas etnik amil» ifadəsini necə başa düşürsən?*
3. *Azərbaycan səlcuq türklərinin hücumu zamanı qüvvətli olsaydı, səncə, onlara müqavimət göstərərdimi?*

1. *Azərbaycanın arxa cəbhə olmasının səbəblərini aç və fikrini əsaslandır.*
2. *Səlcuq türklərinin Azərbaycanı asanlıqla ələ keçirə bilməsinin səbəblərini göstər.*
3. *Iqta və uc torpaqlarının oxşar cəhətlərini müəyyənləşdir və onlar arasındakı qanunauyğunluğu göstər.*

# 12. XALQIMIZIN FORMALAŞMASI PROSESİNİN BAŞA ÇATMASI

> *Xalqımız çoxəsrlik tarixi ərzində böyük sınaqlardan keçmiş, böyük çətinliklərlə rastlaşmış, milli mənəviyyatını, dilini yaratmış, saxlamış və bu gün xoşbəxt günlərə gətirib çıxarmışdır.*
>
> — **Heydər ƏLİYEV**



Dünyanın çoxsaylı xalqları içərisində xalqımızın özünəməxsus yeri var. Türk xalqları sırasında Azərbaycan xalqının mədəniyyəti, elmi, təhsili xüsusi qiymətləndirilir. Dünyada yaşayan azərbaycanlıların sayı təqribən 60 milyondan artıqdır. Bizim xalqımız sayca dünyanın ikinci böyük türk xalqıdır. Hansı ölkədə yaşamalarına baxmayaraq, xalqımızın hər bir nümayəndəsi doğma dilini, milli adət-ənənələri unutmur.

*Səncə, insan toplumuna hansı hallarda xalq demək olar? Bir xalqın yaranması və ya formalaşması üçün nə qədər zaman lazımdır? Fikirlərinizi müzakirə edin.*

Soykökümüz haqqında dərin məlumata malik olmaq hər birimiz üçün çox gərəklidir. Gəlin, bu mürəkkəb tarixi prosesə nəzər salaq.

Xalqın təşəkkülü, etnik mənşə, təkallahlı dinlər, soykökü, məhəlli-iqtisadi əlaqələr

***Vahid Azərbaycan xalqının formalaşması prosesi.*** Xalq zəruri şərtlər yarandıqda formalaşır. Bu şərtlər soykökü, vahid dil, ərazi bütövlüyü, mədəniyyət birliyi, milli-mənəvi dəyərlərin eyni olması və iqtisadi əlaqələrdən ibarətdir. Tarixi-siyasi hadisələr bu şərtlərin yaranmasını ya ləngidir, ya da sürətləndirir. Ona görə də bu şərtlərin yaranması üçün bəzən əsrlərlə vaxt lazım olur.

Xalqın dilinin təşəkkül tapmasında soykökü və ərazi birliyi başlıca şərtlərdən biridir. Azərbaycan qədimdən geniş əraziyə malik idi. Bu ərazi cənubda Həmədan—Qəzvin—Zəncan sərhədlərindən başlayıb şimalda Dərbəndə qədər uzanırdı. Eyni zamanda yurdumuz Şərqdə Xəzər dənizi, qərbdə İrəvan şəhəri daxil olmaqla geniş bir ərazini əhatə edirdi. Tiflis şəhəri ilə birgə Şərqi Gürcüstan da (tarixi Borçalı mahalı) Oğuz yurduna daxil idi. Azərbaycan ərazisinin ən qədim sakinləri: lullubilər, kutilər, turukkilər, hürrilər və başqaları tarixi hadisələrdə yaxından iştirak edirdilər.

Azərbaycan Respublikasının ucqar nöqtələrini tanıyırsanmı?

Dil qədim tayfaların etnik mənşəyini sübut edən əsas amillərdən biridir. Xalqımızın və müasir Azərbaycan dilinin formalaşmasında ölkəmizin ən qədim sakinləri olan çoxsaylı türk tayfalarının yüksək rolu olmuşdur. Onların içərisində kimmerlər, iskitlər, saklar, hunlar, sabirlər, xəzərlər, oğuz və qıpçaq soyundan olan digər türk tayfaları və qeyri-türk etnosları mühüm rol oynamışlar. Ayrı-ayrı tarixi dövrlərdə Əhəmənilər, Sasanilər və Xilafət tərəfindən ölkəmizə köçürülmüş qeyri-türk əhali də xalqımızın tərkibinə daxil olmuşdur.

***Tapşırıq***

Xalqın yaranması üçün dilin zəruri şərtlərdən biri olduğunu müəyyənləşdir.

Azərbaycan ərazisində yaşayan çoxsaylı tayfaları bir-birinə bağlayan bir çox ümumi cəhətlər var idi. Əvvəla, onlar müxtəlif tarixi dövrlərdə bütpərəstliyi, atəşpərəstliyi, xristianlığı və sonda İsi am dinini qəbul etmişdilər. Digər tərəfdən Azərbaycan onların ümumi vətəni olduğundan yadelli işğalçılara qarşı həmişə birlikdə mübarizə aparırdılar.

Sasani və Ərəb xilafəti dövründə Atropatena və Albaniya eyni imperiyaların tərkibinə daxil olmuşdu. Bu da tayfaların ərazi və dil etibarilə birləşməsini zəruri edirdi.

«20 Yanvar» şəhidləri sırasında azərbaycanlılarla yanaşı başqa hansı qeyri-türk xalqların və etnosların nümayəndələri var?

Bildiyimiz kimi, orta əsrlər dövründə də Azərbaycana türk axınları davam etmişdir. Gələn türki ərlə yerli türklər birgə yaşayırdılar. Həmçinin hər iki imperiyanın köçürmə siyasəti nəticəsində Azərbaycanda farslar və ərəblər məskunlaşdırıldı. Yerli əhali ilə qaynayıb-qarışdıqdan sonra onlar öz dillərini itirirdilər.

***Xalqımızın təşəkkülü prosesində İslam dininin rolu.*** Ərəblərin VII—VIII əsrlərdə Azəri baycanı işğal etməsi bütpərəstliyi, atəşpərəstliyi tamamilə aradan qaldırdı. Xristianlıq isə Şimali Azərbaycanın ucqar dağ və dağətəyi rayonlarında İslamla yanaşı əsas din kimi qalmaqda idi.

Vətənimizi dini tolerantlığın tarixi nümunəsi hesab etmək olarmı? Fikrini əsaslandır.

İslam dini hakim din oldu. Ərəb işğalının mənfi tərəfləri ilə yanaşı, müsbət cəhətləri də vardı. Ölkəmizdə tez-tez baş verən yadelli hücumlarının qarşısı alındı. Siyasi sabitlik meydana gəldi. Təsərrüfatın canlanmasına və mədəniyyətin inkişafına zəmin yarandı. Yeni din ölkəmizdəki türk və qeyri-türk tayfalarının birliyini möhkəmləndirdi. Sasani və ərəb zül i münə, həmçinin Bizansın başçılıq etdiyi xris i tian blokuna qarşı birgə mübarizə xalqın fori malaşması prosesinə müsbət təsir göstərdi.

Beləliklə, ünsiyyət dili olan Azərbaycan türk dilinin təşəkkülü prosesi başa çatdı. Xilafətin tərkibində olan ölkələrin xalqları ilə iqtisadi və mədəni əlaqələr möhkəmləndi. Xalqın formalaşması üçün zəruri olan bütün şərtlər yarandı.

***Xalqımızın formalaşmasının başa çatması.*** Xalqımızın təşəkkülü prosesi hələ eramızdan çox əvvəl başlanmış, Əhəməni işğalları dövründə də davam etmişdi. Atropatena və Albaniya dövlətlərinin yaranması ilə bu proses sürətlənmiş, sasani, ərəb işğalları və İslam dininin yayılması dövründə isə başa çatmaqda idi.

XI əsrin ortalarında Böyük Səlcuq imperiyasının yaranması Azərbaycanda tarixi hadisələrin gedişinə ciddi təsir etdi. Azərbaycan türkləri, o cümlədən burada yaşayan müxtəlif oğuz tayfaları səlcuqlarla eyni soykökdən idilər. Cənubi Qafqazın müsəlman əhalisi Bizans və erməni-gürcü təcavüzünə qarşı mübarizədə səlcuq türklərinə müttəfiq kimi baxırdılar.

Səlcuq türklərinin ölkəmizə axını xalqımızın formalaşması prosesini qəti olaraq başa çatdırdı. Oğuz-səlcuq türkləri ilə Azərbaycan türkləri tez bir zamanda qaynayıb-qarışdılar. Xalqımızın dili ümumi ünsiyyət vasitəsinə çevrildi.



*Qurani-Kərim*

Cənubi Qafqazın müsəlman əhalisi niyə səlcuqlara müttəfiq kimi baxırdılar? İzah et.



*VIII əsrdə tikilmiş Şamaxı Cümə məscidi*

Alman tarixçisi Maks Müller dilimizə dəyər verərək belə yazıb: «Sanki dünya dilçiləri bir yerə yığışıb Azərbaycan türkcəsini yaradıb və deyiblər ki, baxın, dil belə olar».




1. *Yuxarıdakı şaxələndirməyə əsasən insan birliklərinin formalaşması ardıcıllıqları haqqında nə deyə bilərsən?*
2. *Hansı tarixi-siyasi hadisələr xalqın formalaşmasını sürətləndirdi?*
3. *Ölkəmizin ərazisində yaşayan çoxsaylı tayfaları bir-birinə bağlayan ümumi cəhətlər hansılardır?*
4. *Səlcuq türklərinin Azərbaycanı nisbətən asanlıqla ələ keçirə bilməsinin mətndə göstərilənlərdən əlavə başqa səbəbləri də var idimi?*

1. *Xalqın formalaşması üçün zəruri olan şərtlər arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdir.*
2. *Xalqın formalaşmasında dilin oynadığı rolu müəyyənləşdir.*
3. *Böyük Səlcuq imperiyasının xalqımızın tarixi müqəddəratında oynadığı əhəmiyyətli rolu sübut et.*
4. *Qonşu ərazilərdən Azərbaycana türkdilli tayfaların köçüb gəlməsinin səbəblərini əsaslandır.*

# 13. SƏLCUQ SARAYINDAN MÜSTƏQİL HAKİMİYYƏTƏ



Eldəniz bilirdi ki, onun adını nənəsi qoyub. Amma adının tarixçəsi onun üçün maraqlı idi. Bir gün o, nənəsigildə olarkən oxumaq üçün maraqlı kitab istədi. Nənəsi ona bir kitab verib dedi: — Bu kitab tariximiz haqqındadır. Oxusan, adının haradan götürüldüyünü bilərsən. İstərdim ki, sən də böyüyüb xalqına xidmət edən şəxsiyyət olasan.

*Səncə, nənənin seçdiyi kitabda tariximizin hansı dövründən bəhs olunurdu? Fikrini dəftərinə qeyd et.*

Atabəylər, hacib, Atabəy, «Böyük Atabəy», İraq Səlcuq sultanlığı

***«Böyük Atabəy».*** Böyük Səlcuq imperatorluğunun parçalanmasından sonra meydana gələn müstəqil dövlətlərdən biri də Azərbaycan Atabəylər dövləti idi. İraq Səlcuq sultanlığının hökmdarı Sultan II Toğrul (1132—1134) Şəmsəddin Eldənizi oğlu Arslan şahın atabəyi təyin etdi. O, Səlcuq sarayında az vaxtda görkəmli dövlət xadimi kimi şöhrət qazandı.

Arran Şəmsəddin Eldənizə (1136—1175) iqta verildi. 1136-cı ildə o, Arran hakimi təyin olundu və Bərdəyə göndərildi. Beləliklə, müstəqil Azərbaycanda Eldənizlər dövlətinin və onu idarə edən Eldənizlər sülaləsinin əsası qoyuldu.



*Şəmsəddin Eldəniz*

Eldənizlər dövlətinin ərazisi əvvəllər İraq Səlcuq sultanlığının tərkibinə daxil idi. Şəmsəddin Eldəniz Arranla yanaşı, Azərbaycanın cənub bölgələrini, eləcə də Naxçıvanı müstəqil idarə edirdi. O öz adından pul kəsdirmişdi.

Şəmsəddin Eldəniz görkəmli sərkərdə və dövlət xadimi idi. Az vaxtda o, bir çox xırda feodal mülklərini birləşdirdi. Eldənizlər dövlətinin ilk paytaxtı Naxçıvan şəhəri oldu.

O, 1160-cı ildə «Böyük Atabəy» titulu aldı və oğulluğu Arslan şahın (1161—1176) sultan elan edilməsinə nail oldu. Bundan sonra İraq Səlcuq sultanlığını Şəmsəddin Eldəniz özü idarə etməyə başladı. Böyük oğlu Məhəmməd Cahan Pəhləvan sultanın hacibi* oldu. Kiçik oğlu Qızıl Arslan isə orduya ali baş komandan təyin edildi. Beləliklə, İraq Səlcuq sultanlığı Eldənizlər sülaləsinin hakimiyyəti altına keçərək, Azərbaycan sultanlığına çevrildi. Şirvanşahlar dövləti də Eldənizlərdən asılı oldu. Azərbaycan torpaqları, əslində, yenidən vahid dövlətdə birləşdirildi.

Şəmsəddin Eldəniz dövləti qorumaq üçün tədbirlər gördü. İqta mülkləri almış əmirlərin hərbi qüvvələrindən əlavə, hökmdarın özünə tabe olan güclü süvari ordusu da vardı. Mərkəzi hakimiyyətə tabe olmayan əmirlər və iri feodallar itaətə cəlb olundu. Şəmsəddin Eldənizin hakimiyyəti dövründə sənətkarlıq və ticarət tərəqqi etdi, kənd təsərrüfatı canlandı, mədəniyyətin oyanışı baş verdi.

***Dövlət şəxsi maraqların qurbanı oldu.*** Eldənizlər dövləti Məhəmməd Cahan Pəhləvanın (1175—1186) hakimiyyəti dövründə daha da qüvvətləndi. Məhəmməd Cahan Pəhləvan 1175-ci ildə paytaxtı Həmədana köçürdü. O, Təbrizi Ağsunqurilərin* əlindən aldı. Müstəqilliyə can atan səlcuq əmirlərinin müqavimətini qırdı.

****Hacib*** *— orta əsrlərdə Şərq hökmdarlarının baş vəziri*
****Ağsunqurilər*** *— Azərbaycanın cənubunda feodal dövləti*

Eldənizin siyasətini bəyənirsənmi? O, «Böyük Atabəy» adına layiq idimi? Müzakirə edin.

6

Sultan II Toğrulun hakimiyyəti dövründə Eldəniz vəzifə pillələri ilə sürətlə irəli getdi. Eldəniz heç bir vaxt saray münaqişələrinə qarışmır, ədavət aparan əmirlərin hər hansı bir dəstəsinin tərəfini saxlamırdı. Sultan Eldənizin sadiqliyini qiymətləndirdi və onu əmir rütbəsinədək qaldırdı.

Azərbaycanı Məhəmməd Cahan Pəhləvanın kiçik qardaşı Qızıl Arslan idarə edirdi. Qızıl Arslanın iqamətgahı Təbriz idi.

Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə qardaşı Qızıl Arslan (1186—1191) keçdi. III Toğrul, Məhəmməd Cahan Pəhləvanın oğlu Qutluq İnanc və narazı səlcuq əmirləri taxt-tacı ələ keçirmək uğrunda Qızıl Arslana qarşı birləşmişdilər.



*Qızıl Arslan*

**AZƏRBAYCAN ATABƏYLƏR (ELDƏNİZLƏR) DÖVLƏTİ (1136–1225-ci illər)**



Bütün müsəlman torpaqlarından məşhur şair və yazıçılar, alimlər, memarlar, rəssamlar Azərbaycana axıb gəlməyə başlamışdılar. Atabəylərin ağıllı xarici siyasəti və getdikcə artan qüdrəti sayəsində XII yüzilliyin II yarısından sonunadək olan dövr nisbətən dinc, xalqın yaradıcı əməklə məşğul olduğu dövr idi.

Qızıl Arslan bir tərəfdən saray daxilindəki müxalif qüvvələrlə, o biri tərəfdən səlcuq əmirləri ilə münasibətləri nizama salmağa çalışırdı. O, 1190-cı ildə Həmədan döyüşündə III Toğrula qalib gəldi.

1191-ci ildə Qızıl Arslan xəlifənin razılığı ilə özünü sultan elan etdi. Şəmsəddin Eldənizin vaxtından İraq Səlcuq sultanlığını idarə edən Azərbaycan atabəyləri formal hakimiyyətə də yiyələndilər.

Mərkəzi hakimiyyətin qüvvətlənməsindən narazı olan iri feodallar Qızıl Arslanı sui-qəsdlə öldürdülər. Hakimiyyət uğrunda ara müharibələri başlandı. Azərbaycanda Məhəmməd Cahan Pəhləvanın oğlu Əbu Bəkr (1191—1210) taxt- tacı ələ keçirdi. Hakimiyyət uğrunda mübarizə yeni vüsət aldı.

Eldənizlər dövlətinin tənəzzülü sürətləndi. Xarəzmşahlar, Şirvanşahlar, gürcü feodalları fəallaşdılar. Əbu Bəkr onlar üzərində bir sıra qələbələr qazansa da, feodal hərc-mərcliyinin qarşısını almaq mümkün olmadı. Şirvanşahlarla gürcülərin birgə qoşunları 1194-cü ildə Şəmkir və Beyləqan döyüşlərində Əbu Bəkri məğlub etdilər.

Dövlətin süqut etməsinə hansı daxili və xarici amillər təsir göstərdi? Fikrini əsaslandır.

Gürcü qoşunlarının Azərbaycana dağıdıcı basqınları oldu. Naxçıvanı mühasirəyə alsalar da, onu ələ keçirə bilmədilər. Onlar Mərəndi talan etdilər. Təbrizi mühasirəyə aldılar. Məhəmməd Cahan Pəhləvanın arvadı Zahidə xatun çoxlu pul, daş-qaş, bəzək şeyləri verib şəhəri dağıntıdan qurtardı. Miyanə də bu yolla talandan xilas ola bildi. Miyanəlilər gürcü qoşunları gedəndən sonra şəhərdə qalan gürcü qarnizonunu qırdılar.

Atabəy Özbəyin (1210—1225) hakimiyyəti illərində Eldənizlər dövlətinin süqutu daha da sürətləndi. Monqolların, xarəzmşahların hücumu ərəfəsində nə Eldənizlər, nə də Şirvanşahlar dövləti ölkəni xarici təhlükədən qorumağa qadir deyildilər.

1. *Səlcuq dövlətinin zəifləməsinin səbəbləri nə idi?*
2. *Atabəylər müstəqil idarəçiliyi necə ələ aldılar?*
3. *Şəmsəddin Eldəniz mərkəzi hakimiyyəti qorumaq üçün hansı tədbirləri gördü?*

1. *Şəmsəddin Eldənizin görkəmli sərkərdə olduğunu sübut et.*
2. *Şəmsəddin Eldənizin hakimiyyətinin sonuna yaxın Eldənizlər dövlətinin malik olduğu ərazini müasir xəritədə göstər.*
3. *Məhəmməd Cahan Pəhləvanla Qızıl Arslanı müqayisə et və onların oxşar cəhətlərini müəyyənləşdir.*

**8**

Naxçıvanın çoxlu əhalisi və inkişaf etmiş sənətkarlıq sahələri vardı. Yerli sənətkarlar daxili və xarici bazar üçün parça, xalça, keçə, çuxa, saxsı və taxta qablar, keramika məmulatı və həmçinin misdən, qiymətli metallardan hazırlanmış məmulat istehsal edirdilər.

Şəhər atabəy Şəmsəddin Eldənizin hakimiyyəti dövründə, Azərbaycan Atabəyləri dövlətinin paytaxtlarından biri olarkən, özünün ən böyük çiçəklənmə dövrünə çatmışdı.

# 14. İNTİBAH MƏDƏNİYYƏTİ

> *Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış İntibah mədəniyyəti dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurlarının məntiqi nəticəsidir.*
>
> — **Heydər ƏLİYEV**



Xatırlayırsansa, 2012-ci ilin may ayında Bakıda «Avroviziya» musiqi yarışması keçirildi. Paytaxtımız minlərlə əcnəbi turisti qəbul etdi. Bu hadisə mədəniyyətimizin, musiqimizin yüksək inkişafının nəticəsidir. Ölkəmizin birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi qayğısı ilə mədəniyyətimiz çiçəklənir, incəsənətimizin, musiqimizin səsi-sorağı dünyanın müxtəlif ölkələrindən fəxrlə eşidilir. Dünya musiqi xəzinəsinin incisi sayılan muğam sənəti bu gün intibah dövrünü yaşayır.

*İntibah mədəniyyəti hansı dövrə təsadüf edir? Vahid dövlətin mövcud olması mədəniyyətin tərəqqisinə necə təsir göstərir? Fikirlərini qeyd et.*

İntibah, Bəhmənyar, Qətran Təbrizi, Əcəmi Əbubəkr oğlu, Gülüstan qalası

***Tapşırıq***

Tanıdığın müsəlman ölkələrinin adlarını dəftərinə qeyd et.

***Azərbaycan mədəniyyəti müsəlman intibahının tərkib hissəsidir.*** İslam mədəniyyəti İslam dinini qəbul etmiş xalqların yaratdıqları ortaq mədəniyyətdir.

IX əsrin ortalarından etibarən müsəlman intibahı başlandı. Azərbaycan mütəfəkkirləri bu mədəniyyətin yaradılmasında fəal iştirak etdilər. Siyasi müstəqillik ölkəmizdə maddi və mənəvi mədəniyyətin oyanışına daha əlverişli şərait yaratdı. Xalqımız amansız hücumlara məruz qalsa da, qədim mədəniyyətini qoruyub saxlayır və onu daha da zənginləşdirirdi.

Siyasi dirçəliş elmin inkişafına mühüm təkan verdi. Bütün Şərqdə məşhur olan Gəncə, Bərdə, Şamaxı, Dərbənd, Təbriz, Ərdəbil və başqa şəhərlərdə mükəmməl təhsil verən çoxlu mədrəsələr vardı. Məscidlərin yanında fəaliyyət göstərən ibtidai məktəblərdə Quran dərsləri keçirilir, müxtəlif elm sahələrinə aid ilkin məlumatlar verilirdi.

Elmin ayrı-ayrı sahələrinə maraq getdikcə artırdı. Mədrəsələrdə şəriət, məntiq, şərq dilləri ilə yanaşı, müxtəlif təbiət elmləri də öyrədilirdi.

Azərbaycan mədəniyyəti ümumdünya mədəniyyətinin inkişafına müsbət təsir göstərirdi. Bu, Azərbaycanın dünya sivilizasiyasının ən qədim mərkəzlərindən biri olması və coğrafi mövqeyi ilə bağlı idi.

Ölkəmizin alimləri təbabət, fəlsəfə, astronomiya, tarix və coğrafiya sahəsində dünya elminin önündə gedirdilər. Azərbaycan filosofu Bəhmənyar ibn Mərzbanın əsərləri dünya fəlsəfi fikrinin inkişafında mühüm rol oynamışdır.

Xətib Təbrizi dil, fəlsəfə, ədəbiyyat, məntiq və digər elm sahələrinə aid dəyərli əsərlər yazmışdır. O, Bağdaddakı Nizamiyyə mədrəsəsində 40 ildən çox dərs demişdir.

XII əsrin məşhur astronomu Fazil Fəriddin Şirvani astronomiyaya aid bir sıra qiymətli cədvəllər hazırlamışdır.

***Dövrün həyatı ədəbiyyatımızda.*** XI—XII əsrlərdə ədəbiyyatda daha güclü oyanış baş verdi. Bu dövrdə şifahi xalq ədəbiyyatının ən böyük nümunəsi «Kitabi-Dədə Qorqud» dastanı artıq bütün ölkə ərazisində geniş yayılmışdı. IX—XI əsrlərdə yazıya alınan dastanın boyları oğuzların yaşadıqları bütün ərazilərdə yayılmışdı.



*Bəhmənyar*

***Tapşırıq***
Azərbaycanın coğrafi mövqeyinin mədəniyyətin inkişafına təsirini təhlil et.

***Tapşırıq***
İntibah dövrü şairlərinin ədəbiyyat dərslərindən sənə tanış olan əsərlərini xatırlamağa çalış. Şair haqqında fikrini bildir.



*Qətran Təbrizi.*
*Rəssam Elmira Şahtaxtinskaya*



*Məhsəti Gəncəvi.*
*Rəssam Güllü Mustafayeva*

İntibah dövründə Azərbaycan türk dili bütün ölkə ərazisində vahid ünsiyyət vasitəsinə çevrildi.

Hökmdarların saraylarında, iri şəhərlərin ədəbi mühitində formalaşan yazılı ədəbiyyat, bir qayda olaraq, ərəb və fars dillərində yaranırdı.

İntibah ədəbiyyatının ilk görkəmli nümayəndələrindən biri Qətran Təbrizi idi. Onun əsərləri XI əsr tariximizi öyrənmək üçün dəyərli mənbə hesab olunur.

Azərbaycan İntibah ədəbiyyatının ilk görkəmli nümayəndələrindən biri də Məhsəti Gəncəvidir. Onun rübailərinin çoxu sadə peşə adamlarına həsr edilib.

Əfzələddin Xaqani Şirvani İntibah ədəbiyyatının ən görkəmli şairlərindəndir. O, Azərbaycan ədəbiyyatı tarixində ilk poemanın müəllifidir. Xaqaninin yaradıcılığı bütün Yaxın və Orta Şərq ədəbiyyatına güclü təsir göstərmişdir.

Azərbaycan İntibah ədəbiyyatı Nizami Gəncəvinin (1141—1209) yaradıcılığı ilə özünün ən yüksək zirvəsinə çatdı.

Onun yaradıcılığı Şərq və dünya poeziyasının inkişafına güclü təkan verdi. Şairin ölməz «Xəmsə»si xalqımıza dünya şöhrəti gətirdi.

Nizaminin yaradıcılığı Qərbi Avropa intibahını yüzillərlə qabaqlamışdır.

***İntibahın inciləri. İncəsənət.*** XI—XII əsri ərdə memarlıqda da intibah baş verdi. Ölkəmizdə dünya memarlığının nadir inciləri yarandı. Bir-birindən gözəl imarətlər, məscidlər, qalalar, minarələr, bürclər ucaldıldı.

İntibah dövrü Azərbaycan memarlığının ən görkəmli nümayəndəsi Əcəmi Əbubəkr oğlu idi. O, XII əsrdə Azərbaycan Eldənizlər dövlətinin paytaxtı Naxçıvanda yaşamışdır. Əcəmi Yusif ibn Küseyr və Möminə Xatun türbələrini, Qoşaminarə, Cümə məscidi, Eldənizlər sarayı və başqa nadir memarlıq abidələrini ucaltmışdır. O özündən əvvəlki memarlıq ənənələrini zənginləşdirmiş, riyazi hesablamalara əsaslanan mürəkkəb memarlıq kompleksləri yaratmışdır. Əcəmi Naxçıvan memarlıq məktəbi adlanan xüsusi memarlıq məktəbinin əsasını qoymuşdur. Onun memarlıq sənəti bütün Şərq memarlığına güclü təsir etmişdir. Hələ sağlığında onu «mühəndislər şeyxi» adlandırırdılar.



*Əfzələddin Xaqani Şirvani. Şabran. Müəllif Camal Rüstəmov*



*Bakıda Nizami Gəncəvinin abidəsi. Müəllif Fuad Əbdürrəhmanov*




*Nizami Gəncəvinin məqbərəsi. Gəncə*



*Əcəmi Naxçıvaninin abidəsi. Naxçıvan. Heykəltəraş Kamal Ələkbərov*

XII əsrin memarlıq incilərindən biri Bakıdakı Qız qalası idi. Qalanın memarı Məsud Davud oğlu olmuşdur. Müdafiə məqsədilə tikilən qalanın özünəməxsus xüsusiyyətləri var. Digər qalalar — Abşerondakı Mərdəkan, Şirvandakı Gülüstan və Buğurd qalaları da İntibah dövrünün memarlıq xüsusiyyətlərini daşıyır.

Azərbaycan ustaları nadir metal məmulatları hazırlamaqda da mahir idilər.



*Möminə Xatun türbəsi. Naxçıvan*



*Qoşaminarə. Naxçıvan*

Belə sənət incilərindən biri də Gəncənin məşhur qala qapılarıdır.

IX əsrin ortalarından başlayan Azərbaycan intibahı XII əsrə qədər yüksələn xətlə davam etdi. Bu dövrdə mədəniyyətin bir çox sahələrində bu gün də əhəmiyyətini itirməyən nümunələr yaradıldı.

1. *Azərbaycan intibahının dünya mədəniyyətinə müsbət təsiri olubmu?*
2. *XI-XII əsrlərdə İntibah ədəbiyyatının nümayəndələri kimlər idi?*
3. *Nəyə görə Memar Əcəmiyə Naxçıvan memarlıq məktəbinin banisi deyirlər?*
4. *İntibah dövrünün abidələrini nəyə görə memarlıq inciləri hesab edirik?*

1. *Müsəlman intibahının Ərəb xilafətinin tənəzzül etdiyi dövrdən başlanmasının səbəblərini şərh et.*
2. *Azərbaycanın dünya sivilizasiyasına göstərdiyi təsirin qarşılıqlı olduğunu əsaslandır.*
3. *Qız qalasının digər qalalardan fərqli cəhətlərini təhlil et.*
4. *Əcəmi memarlıq məktəbinin ənənə ilə elmin vəhdətindən yarandığını izah et.*

# SƏLTƏNƏT UĞRUNDA MÜBARİZƏ

## 15. MONQOLLAR AZƏRBAYCANDA



Burxan sinif yoldaşları və müəllimləri ilə birgə Şəhidlər Xiyabanını ziyarətə getmişdi. Müəllim onlara şəhidlər haqqında danışırdı. Şəhidlərdən biri haqqında məlumat Burxanı çox maraqlandırdı. Azərbaycanın Milli Qəhrəmanı adı verilən bu igid kəşfiyyatçı olmuşdu. Müəllim onu da qeyd etdi ki, Azərbaycanın bu qəhrəman oğlu — Şahlar Hüseynov düşmənin dilini bilirdi. O, kəşfiyyatçı kimi əsgərlərimizə kömək edib düşmənin bir çox planlarını pozmuşdu. Burxan dinlədiklərindən heyrətlənib, yanındakı yoldaşlarına dedi: — Mən də kəşfiyyatçı olacağam.

*Səncə, kəşfiyyatçı kimə deyilir? Keçmişdə ölkəmizə yadellilər tərəfindən xain məqsədlərlə kəşfiyyatçılar göndərilib. Onlar torpaqlarımızın işğalını planlaşdırandan sonra yurdumuza basqınlar edilib. Səncə, ölkəmizin ərazisinə tarixən kəşfiyyat yürüşlərini kim və nə məqsədlə edib? Fikirlərinizi müzakirə edin.*

Çingiz xan, monqollar, Xarəzmşah şahzadəsi Cəlaləddin, yarlıq

***Tapşırıq***
Səlcuq yürüşləri ilə monqol yürüşünü müqayisə et.

***Kəşfiyyat xarakterli ilk yürüş.*** 1206-cı ildə Çingiz xan tərəfindən Mərkəzi Asiyada yaradılmış Monqol dövləti ilk vaxtdan hərbi yürüşlərə başladı. Monqol ordusu geniş əraziləri tutaraq Azərbaycana doğru irəlilədi. 1220-ci ildə monqol qoşunu Cəbə və Subutayın rəhbərliyi ilə Azərbaycan torpaqlarına daxil oldu və Təbrizə çatdı. Şəhər möhkəm qala divarları ilə əhatə olunmuşdu. Bunu görən monqollar danışığa girməyə üst ünlük verdilər. Zəifləmiş Eldənizlər dövləti Təbrizi müdafiə etməkdə çətinlik çəkirdi. Atabəy Özbək monqollara xərac verməklə Təbrizi xilas etməyə çalışdı.

Muğanda qışlamağı qərara alan monqollar gürcülərin və Atabəylərin onlara qarşı birləşdiyini eşidərək Gürcüstana hücum etdilər. Gürcü çarını məğlub edən monqollar Təbriz üzərinə yenidən hücuma keçdilər. Şəhər xərac verərək təhlükədən xilas edildi.

1221-ci ilin əvvəllərində Marağaya hücum edən monqollar şəhəri talan etdilər. Ərdəbili tutandan sonra isə onlar üçüncü dəfə Təbrizə gəldilər. Atabəy Özbək Naxçıvana doğru geri çəkildi. Şəhər hakimi Şəmsəddin Tuğrayi Təbrizin müdafiəsini möhkəmləndirdi. Ordusunun çox zərər görməsini istəməyən monqol sərkərdəsi yenə də xərac alaraq Təbrizi tərk etdi. Monqolların yürüşü zamanı Şamaxı və Beyləqan şəhərləri güclü müqavimət göstərdi. Lakin 1222-ci ildə monqollar Şamaxını tutub dağıtdılar. Bu hadisədən sonra monqollar şimala üz tutdular. Dərbəndi tuta bilməyəcəklərini anlayıb Azərbaycanı tərk etdilər.

***Cəlaləddin Xarəzmşah Azərbaycanda.*** Talan olmuş Azərbaycan zəifləyib gücdən düşmüşdü. Yeni torpaqlarda möhkəmlənmək istəyən Xarəzmşah şahzadəsi Cəlaləddin 1225-ci ildə Azərbaycana hücum etdi. O, Marağanı tutaraq Təbrizə yönəldi. Atabəylərin sonuncu hökmdarı Özbək Naxçıvana, Əlincə qalasına yollandı. Başsız qalan Təbriz əhalisi müdafiəyə qalxdı. Şəhər rəisi başda olmaqla əhali bir həftə döyüşdü. Cəlaləddin qələbə qazandı. Təbriz, daha sonra Gəncə zəbt edildi. Gəncəni özünə iqamətgah seçən Xarəzmşah Cəlaləddin əhali üzərinə ağır vergi və mükəlləfiyyətlər qoydu. Xalq zülmə davam gətirməyərək tez-tez üsyanlar edirdi. Təbrizdə qalxmış üsyan getdikcə bütün Azərbaycanı bürüdü.

Gəncədə usta Bəndərin başçılığı ilə 1231-ci ildə üsyan qalxdı. Xarəzmşah ordusuna hücum edən üsyançılar ölüm-dirim savaşına, qanlı döyüşə çıxdılar.

Tatarlar (monqollar nəzərdə tutulur) Beyləqanı və onun ətrafını qarət edib dağıtdıqdan sonra Gəncə şəhərinə tərəf hərəkət etdilər. Gəncə Arran vilayətlərinin mərkəzi idi. Ancaq tatarlar şəhər əhalisinin şücaətini bildikləri üçün ora yaxın gedə bilmədilər. Adam göndərib pul və paltar istədilər. Əhali onların istədiklərini verdi. Onlar da Gəncədən çıxıb getdilər.

*İbn al-Əsir*

***Tapşırıq***

Cəlaləddinin yürüş etdiyi şəhərləri xəritədə müəyyənləşdir.

## AZƏRBAYCAN XIII əsrdə




Üsyançılar qətiyyətli mübarizə aparsa da, Cəlaləddin onl arı hiylə ilə dağıda bildi. Üsyan başçısı Bəndər tikə-tikə doğrandı, digər rəhbərlər isə edam edildi. Cəlaləddin Gəncəni amansızlıqla susdursa da, digər ərazilərdə baş verən üsyanları yatıra bilmədi.

Marağa şəhəri hansı dövlətin paytaxtı olmuşdu?

İşğal etdiyi əraziləri düzgün idarə edə bilməyən Cəlaləddin, əslində, öz dövlətini zəiflətdi. Yaranmış şərait monqolların növbəti hücumları üçün əlverişli imkan yaratdı.

***Monqollar bu dəfə möhkəmlənməyə gəldilər.*** Çormağun noyonun başçılıq etdiyi monqol ordusu 1231-ci ildə Azərbaycan torpaqlarına hücum etdi. Bu onların ikinci yürüşü idi. Ağır vəziyyətdən əziyyət çəkən əhali özünü qorumaqda gücsüz idi. Amma buna baxmayaraq, xalq silaha sarıldı. Düşmənə ciddi müqavimət göstərən Marağa monqollar tərəfindən tutuldu. Sonra monqollar Təbrizi mühasirəyə aldılar. Təbriz yenə də danışıqlara girdi. Şəhərə hiylə ilə daxil olan monqollar məşhur Təbriz sənətkarlarını əsir götürərək paytaxt Qaraqoruma göndərdilər.

Monqolların növbəti hücum hədəfi Gəncə şəhəri oldu. Uzunsürən mübarizə nəticəsində zəifləmiş Gəncə 1235-ci ildə monqollar tərəfindən ələ keçirildi. Ölkəni talan edən monqol dəstələri Şəmkir şəhərinin əhalisi ilə üz-üzə gəlməli oldu. Düşmən qalib gəldi. Əhali qılıncdan keçirildi. Daha sonra Bakını tutan monqollar 1239-cu ildə Dərbəndi işğal etməklə bütün Azərbaycana sahib oldular.

İşğalçılıq məqsədilə gələn monqollar Cənubi Qafqazda möhkəmləndilər. Azərbaycan və Cənubi Qafqaz Monqol imperiyasının canişinləri tərəfindən idarə edilirdi. Bütün yararlı torpaqlar köçəri monqol əyanlarının ixtiyarına keçdi. Yerli feodallar torpaqdan istifadə emək üçün yarlıq adlanan xüsusi icazə sənədi almalı idilər.



*Monqollara aid silahlar. Milli Azərbaycan Tarix Muzeyi.*

***Tapşırıq***

Usta Bəndər üsyanını xürəmilər hərəkatı ilə müqayisə et. Fikrini dəftərinə çəkdiyin cədvələ yaz.

***Tapşırıq***

Gəncə şəhərinin bugünkü inkişafı haqqında müzakirə aparın.



*Monqollar xərac toplayarkən*

Monqol canişinləri isə öz aralarında hakimiyyət uğrunda çəkişirdilər. Bu çəkişmələr canişinlərin hakimiyyətinin sona çatması ilə nəticələndi.

1. *Monqolların Azərbaycana birinci yürüşünün kəşfiyyat xarakterli olmasını necə izah edərdin?*
2. *Monqolların birinci yürüşünün Azərbaycan üçün nəticəsi nə oldu?*
3. *Monqolların ikinci yürüşü zamanı Azərbaycanda vəziyyət necə idi?*

1. *Monqol işğalı ərəfəsində Azərbaycandakı vəziyyəti izah et.*
2. *Xarəzmşah Cəlaləddinin Azərbaycanda hökmranlığı dövrünü xarakterizə et.*
3. *Monqolların ikinci yürüşü nün məqsədini müəyyən et.*
4. *Monqol işğalından sonra Azərbaycandakı idarəçilik haqqın da yaz.*

# 16. MONQOLLARIN ÜÇÜNCÜ YÜRÜŞÜNDƏ YARANMIŞ DÖVLƏT



Nərminin atası kitab həvəskarı idi. İqtisadçı olmasına baxmayaraq, tarixlə bağlı kitablar oxuyur, asudə vaxtını mütaliəyə sərf edərək səmərəli keçirirdi. Nərmin də kitablara maraq göstərir, oxuduqlarını atası ilə müzakirə edirdi. Bir gün Nərmin oxuduğu bir kitabdan onun üçün maraqlı olan faktı atasına söyləyib, onun da fikrini öyrənmək istədi:

— Ata, kitabda oxudum ki, XIII əsrdə Azərbaycanın ərazisi təqribən 250 min km$^2$ olmuşdur. Məktəbdə isə öyrənmişik ki, ölkəmizin ərazisi 86,6 min km$^2$-dir. Bəs...?

Nərminin atası səbirlə onun suallarını cavablandırdı.

*Səncə, dövlətlərin ərazisi hansı səbəblərdən kiçilə bilər? Bu, dinc yolla baş verə bilərmi? Fikrini əsaslandır.*

***Bağdad xilafətinin varlığına son qoyan Elxanilər.*** Monqol sarayındakı çəkişmələrdən istifadə edən yerli feodalların müstəqillik meyli güclənirdi. Bununla razılaşmayan monqol xaqanı növbəti yürüş üçün göstəriş verdi. Hülakü xanın başçılığı ilə monqollar Ön Asiyaya qoşun yeritdi. İran, Ərəb İraqı, Suriya və digər ölkələrə yürüş təşkil edən Hülakü xan bir çox yerli hakimləri öz itaəti altına saldı. Tarixdə monqolların üçüncü yürüşü kimi tanınan bu işğal geniş əraziləri əhatə etdi. Hülakü xan 1256-cı ildə Azərbaycanı yenidən tabe etdikdən sonra Bağdada yürüş etdi. 1258-ci ildə Bağdad xilafətinin varlığına son qoyaraq Hülakülər dövlətini yaratdı. Hökmdarlar «Elxan» titulu daşıyırdı. Bir əsrədək Azərbaycanda mövcud olmuş Hülakülər dövləti Elxanilər kimi tanınmağa başladı.

Hülakülər, süqut, köçəri feodallar, Cuci ulusu, Qazan xan

Monqolların ikinci yürüşündə Azərbaycan işğal olunmuşdusa, üçüncü yürüşə səbəb nə idi?

Səncə, Hülakü xan hakimiyyətin idarə olunmasında köçəri feodallara niyə arxalanırdı? Fikrini əsaslandır.

Dövlətin ərazisi Amudərya çayından Aralıq dənizinə qədər, İran körfəzindən Dərbəndədək uzanırdı. Azərbaycan bu dövlətin ən inkişaf etmiş ərazisi idi. Marağam, Təbrizi və Sultaniyyəni, sonra isə yenidən Təbrizi paytaxt seçən Hülakülər yayda Qarabağı, qışda isə Muğanı özlərinə iqamətgah edirdilər.

Köçəri feodallara arxalanan Hülakü xan vilayətlərin idarəçiliyini və hərbi-siyasi işləri əmirlərə həvalə etdi. O, tez bir vaxtda güclü və mərkəzləşmiş dövlət yaratdı. Lakin Hülakülər dövlətinin mənafeyi Qızıl Ordu xanları ilə toqquşurdu. Monqol dövlətinin yaradıcısı Çingiz xanın vəsiyyətinə görə, Azərbaycan torpaqları Cuci ulusuna çatmalı idi. Hülakülərin Azərbaycanda hökmranlığı ilə barışmayan Qızıl Ordu xanl arı tez-tez bu ərazilərə hücumlar edirdilər. Hülakü xan və ondan sonra gələn davamçıları isə bu yürüşləri dəf edirdilər.

Səncə, Qazan xan niyə özünü məhz Qarabağda padşah elan etdi? Fikrini əsaslandır.

***Qarabağda özünü şah elan edən hökmdar.*** Hülakü xanın ölümü hakimiyyət uğrunda gedən mübarizəni gücləndirdi. Uzunsürən mübarizədən sonra Elxani taxtına çıxan Qazan xan (1295—1304) bu münaqişəyə son qoydu. Özünü Qarabağda padşah elan edən Qazan xan dərhal tədbirlər görməyə başladı. İslam dinini dövl ət dini elan edib özünə Mahmud adını götürdü. O, ölkədə baş verən qiyamları yatırdı. İqtisadi vəziyyəti ağır olan Hülakü dövlətini xilas etməkdən ötrü bir sıra islahatlar keçirdi. Bu işdə ona vəziri Fəzlüllah Rəşidəddin yaxından kömək edirdi. Torpaq, vergi, məhkəmə, rabitə və ticarət sahələrində islahatlar keçirməyi planlaşdıran Qazan xan bir sıra addımlar atdı. Əvvəlcə torpaq islahatı keçirərək orduda xidmət edən şəxslərə iqtalar verməyə başladı. İqta torpaqları satıla və bağışlana bilməzdi.

**Qazan xanın islahatları**

- torpaq
- vergi
- məhkəmə
- rabitə
- ticarət

İqta sahibi öldükdən sonra hərbi işi kim davam etdirirdisə iqta da ona verilirdi. 1303-cü ildə verilən fərmana görə kəndlilərin bir yerdən başqa yerə köçməsi qadağan edildi. Bu islahatda əsas məqsəd kənd təsərrüfatını inkişaf etdirmək, kəndliləri yaşadıqları torpaqlarda oturaqlaşdırmaq idi. Çünki monqol işğalları nəticəsində məhsuldar Azərbaycan torpaqları otlaqlara, köçəri maldarların örüş yerlərinə çevrilmişdi.

***Tapşırıq***
Qazan xanın keçirdiyi islahatları dəyərləndir.

Bayrat adlanan istifadəsiz qalmış torpaqların becərilməsini nəzərdə tutan tədbirlər də görüldü. Sahibsiz torpaqlar divanın tabeliyinə verildi. Onların istifadəsi üçün yeni sahibkarlar müəyyən edildi.



*Monqollar yürüş zamanı*

Rabitə vasitələrinin insan həyatında rolu nədən ibarətdir? Müzakirə edin.

Verginin yığılmasını tənzimləyən islahat keçirildi. Vergi verənlərin siyahısı tutuldu. Hər bir şəhər və məntəqənin ödəyəcəyi verginin miqdarı və toplanacağı vaxt dəqiqləşdirildi, xüsusi lövhələrdə yazılıb mərkəzi yerlərə vuruldu. Qanunsuz vergi yığımı qadağan edildi. Vergi pul və ya məhsul şəklində alınırdı.

Baş verən özbaşınalığın və rüşvətxorluğun qarşısını almaq üçün məhkəmə islahatı həyata keçirildi. 30 illik iddia sənədləri qanuni qüvvəsini itirdi. «Qazı» (din xadimi) vəzifəsinə ədalətli din xadimləri götürülürdü. Onlardan qanuna düzgün əməl edəcəkləri barədə iltizam* alınırdı. Lakin keçirilən məhkəmə islahatı yarımçıq qaldı.

Vahid rabitə sistemi quruldu. Təxminən hər 20 km-dən bir rabitə dayanacaqları — yamlar yaradıldı. Yamlar əmirlər tərəfindən idarə edilir, onların ixtiyarına lazımi vasitələr verilirdi. Əmirlərə əhalidən rabitə işinə görə hər hansı bir vəsaitin alınması qadağan edilmişdi.

Ticarətin inkişafı üçün də tədbirlər görüldü. Vahid pul, çəki və ölçü sistemi yaradılaraq ticarətin inkişafına imkanlar açıldı. Ticarət mərkəzlərinin, karvan yollarının qorunması üçün xüsusi dəstələr ayrıldı. Bütün bu islahatlar əhalinin vəziyyətini yaxşılaşdırdı. Hülakü dövlətində iqtisadiyyat canlandı.

Qazan xanın ölümündən sonra mərkəzi hakimiyyət öz gücünü yalnız bir müddət saxlaya bildi. Hakimiyyətə gələn Əbu Səid (1316—1335) azyaşlı olduğundan dövləti Əmir Çoban idarə etməyə başladı. Onun hakimiyyətdəki ağalığı bəzi feodalların narazılığına səbəb oldu.

***İltizam** — bir işin yerinə yetirilməsini öhdəsinə götürmə (icarəyə götürmə)*

Ölkədə feodal çəkişmələri gücləndi. Əmir Çobana qarşı qiyamlar başladı. Artıq gənc yaşına çatmış Əbu Səid qiyamları yatırmaq üçün şəxsən döyüşlərə girirdi. Buna görə ona «Bahadır» ləqəbi verilmişdi. Əbu Səid Əmir Çobana qarşı çıxan feodalları öz ətrafında birləşdirərək 1328-ci ildə onu edam etdirdi. Lakin feodal çəkişmələri səngimək bilmirdi. Belə qarışıq vaxtda Əbu Səidin ölümü Qızıl Ordu qoşunlarına ölkənin içərilərinə soxulmağa şərait yaratdı. Dövlətin süqutu daxili və xarici qarşıdurmalar nəticəsində sürətləndi.

Hakimiyyətə sahiblənmək uğrunda mübarizə durmadan qızışırdı. «Hülakü səltənəti uğrunda» meydana atılan Cər airilər, Çobanilər, Şirvanşahlar arasında mübarizə gücləndi. Hülakü dövlətini idarə edən Çobanilər əhaliyə zülm edirdi. Ağır həyat sürən əhalinin tez-tez keçirdiyi üsyanları Çobanilər zorla yatırırdı. Əhali Çobanilərdən qurtulmaq üçün çıxış yolunu Qızıl Ordu xanı Canı bəyə müraciət etməkdə gördü. 1357-ci ildə Canı bəy Təbrizə gələrək Çobanilərin hakimiyyətinə son qoydu. Hülakü dövləti süqut etdi.

1335-ci il «onlar (Özbək xanın qoşunu) geri çəkildilər, burada (Şirvanda) bütün silahlarını və əmlaklarını atdılar, təcili qaçmağa başladılar... Dərbəndə kimi qaçdılar, oradan isə öz ölkələrinə getdilər».

*Həmdullah Qəzvini*

1. *Hülakülər dövlətinin yaranmasına səbəb nə oldu?*
2. *Qazan xanın torpaq islahatına nələr daxil idi?*
3. *Dövlətin süqutuna səbəb nə idi?*

1. *Hülakü xanın gördüyü tədbirləri izah et.*
2. *Qazan xanın digər islahatlarını təhlil et.*
3. *Çobanilərin Hülakü hakimiyyətini ələ keçirməsini izah et.*
4. *Hülakülərin Azərbaycan tarixində rolunu müəyyənləşdir.*

# 17. AZƏRBAYCAN UĞRUNDA MÜBARİZƏ



*Şəklə bax. Bu, Teymura sinə gərmiş Əlincə qalasıdır. Səncə, orta əsrlərdə uzun müddət bu qalada müdafiə olunmaq olardımı? Mühasirədə olan bir qalada hansı şərait olmalıdır ki, uzun müddət düşmənə sinə gərə bilsin?*

*XIV əsrin II yarısında Azərbaycan uğrunda gedən mübarizənin daha da kəskinləşməsinin səbəblərini araşdır.*

Cəlairilər, idarə sistemi, «üçillik yürüş», Əmir Teymur, Çobanilər

Qızıl Ordu dövlətinin ərazisində bu gün hansı dövlətlərin yerləşdiyini müasir xəritədə müəyyənləşdir.

Cəlairilərə yaranmış fürsət. Hülakü xanın Azərbaycana yürüşü zamanı ölkəmizə gələn tayfalardan biri — Cəlairilər tez bir vaxtda qüvvətlənməyə başladılar. Hakimiyyətə sahiblənmək istəyi onların mübarizəsini daha da gücləndirirdi. Hülakü səltənətinə yiyələnmək uğrunda mübarizədə Çobanilərə məğlub olsalar da, Şeyx Həsən Cəlairi 1340-cı ildə Bağdadda Cəlairilər dövlətini yaratdı.

1357-ci ildə Qızıl Ordu hökmdarı Canı bəy Hülakülər dövlətinə son qoyub Azərbaycanda hakimiyyəti ələ aldı. Lakin ölkəsindəki gərgin vəziyyəti eşidən Canı bəy Qızıl Orduya qayıtmalı oldu. İdarəçiliyi oğlu Bərdi bəyə tapşırdı. Bərdi bəy atasının ölüm xəbərini eşidəndən sonra ölkəni tərk etməli oldu. Bu fürsətdən istifadə edən Cəlairi Şeyx Üveys (1354—1374) Azərbaycana hücum edərək 1359-cu ildə ölkəni özünə tabe etdi. Təbrizi paytaxt seçən Şeyx Üveys Şirvanı tutmaq üçün yürüşə çıxdı və bu ərazini də ələ keçirdi. O, mərkəzi idarə sistemini möhkəmləndirərək ölkədə vəziyyəti nizamladı.

Şeyx Üveysin ölümündən sonra hakimiyyəti idarə etmək Cəl airilər üçün çətinləşdi. Feodal pərakəndəliyi və hakimiyyətə qarşı çıxışlar ölkəni zəiflətməyə başladı.

## CƏLAİRİLƏR DÖVLƏTİ




***Tapşırıq***

Toxtamışın Azərbaycana yürüşünün məqsədini aydınlaşdır.

Belə bir vaxtda hakimiyyətə gələn Sultan Əhməd (1382—1410) vəziyyəti düzəltməyə çalışsa da, feodallar arasındakı mübarizə və ölkəyə olan işğalçı yürüşlər ona bu istəyini reallaşdırmağa imkan vermədi.

İki böyük hökmdarın Azərbaycana qarşı planı. Azərbaycan Qızıl Ordu və Teymuri imperatorluqlarının mübarizə meydanına çevrildi. 1385-ci ildə Əmir Teymur qoşunu ilə Azərbaycana yürüş etsə də, burada çox qala bilməyib geri qayıtdı. Bağdada qaçan Sultan Əhməd ölkəni idarə edə bilmirdi. Fürsətdən istifadə edən Qızıl Ordu xanı Toxtamış Azərbaycana yürüşə başladı. Təbriz və digər əraziləri zəbt edən Toxtamış çoxlu qənimət ələ keçirərək öz ölkəsinə qayıtdı.


*Toxtamış*

1386-cı ildə Teymur yenidən Azərbaycana hücum edərək Təbrizi tutdu. «Üçillik yürüş» adını almış bu işğal zamanı Teymurun qoşunları Naxçıvanadək irəlilədi.



*Əmir Teymur*

Azərbaycanın idarəçiliyini oğlu Şiranşaha tapşıran Teymur Səmərqəndə geri döndü. 1392-ci ildə

Teymur yenidən Azərbaycana yürüş edərək Təbrizə daxil oldu. Əlincə qalasına sığınan Cəlairilər Teymura tabe olmaq istəmirdi. Qalanı almağa çalışan Əmir Teymurun qoşunları dəfələrlə hücum etsə də, uğur qazana bilmədi. Əlincə qalası 14 il mühasirədə qalandan sonra zəiflədi və 1400-cü ildə süqut etdi.

Qalanın süqutunun səbəbi müdafiəçilər arasında birliyin olmaması idi. Azərbaycanda sonuncu istehkamı da fəth edən Teymur bir müddət sonra geri qayıtdı. 1405-ci ildə vəfat edən Əmir Teymurun ölüm xəbəri Azərbaycanı ələ keçirmək uğrunda mübarizənin yenidən başlanmasına səbəb oldu. Haki ı miyyəti yenidən ələ almaq istəyən Cəlairilər və onların müttəfiqi Qaraqoyunlular Təbrizə doğru irəlilədilər. Teymurilərin hakimiyyətini zəiflədən bu yürüşlər daha bir yeni dövlətin yaranmasına imkanlar açdı.

1. *Cəlairilər dövlətinin yaranmasına şərait yaradan səbəb nə idi?*
2. *Teymur Əlincə qalası uğrunda nəyə görə mübarizə aparırdı?*
3. *Teymurun ölümü Azərbaycanda necə qarşılandı?*

1. *«Azərbaycan XIV əsrdə» adlı esse yaz.*
2. *Cəlairilərin hakimiyyəti dövründə Azərbaycandakı siyasi vəziyyəti təsvir et.*
3. *Teymurun Azərbaycana ilk yürüşü dövründə ölkədəki vəziyyəti təsvir et.*
4. *Toxtamışın Azərbaycana yürüşlərinin məqsədini izah et.*

# 18. HÖKMDARIN MÜDRİKLİYİ VƏ YERLİ HAKİMİN İNADLI MÜBARİZƏSİ



Hər bir dövlətin özünün daxili və xarici siyasəti vardır. Daxili siyasət xalqın rifahını, iqtisadi-sosial vəziyyətini tənzimləməyə xidmət edir. Xarici siyasət isə qonşu dövlətlərlə münasibətləri, dünya ölkələri ilə əməkdaşlığı, beynəlxalq təşkilatlarda iştirakı və başqa mənafeləri tənzimləyir. Dövlətimiz çox aktiv xarici siyasət aparır. BMT-yə və bir çox iqtisadi-siyasi, hərbi əməkdaşlıq təşkilatlarına üzv olan doğma Azərbaycanımız Cənubi Qafqazın ən inkişaf etmiş ölkəsi və lider dövləti kimi şöhrət qazanıb. Prezidentimiz, müasir dünyanın böyük dövlət xadimi İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan dünya ölkələri içərisində sayılıb-seçilən dövlətə çevrilib.

*Səncə, düzgün xarici siyasətin dövlətin inkişafında rolu nədən ibarətdir? Müdrik siyasət dedikdə nəyi başa düşürsən?*

***Siyasi səriştəyə malik hökmdar.*** XIII əsrdə monqolların Azərbaycana yürüşlərindən sonra Şirvanşahlar çətin vəziyyətə düşmüşdü. Xarəzmşah Cəlaləddinin yürüşü zamanı Şirvanşah III Fəribürz xərac ödəyib, dövlətin daxili müstəqilliyini qoruya bildi. Bu dövrdə siyasi hadisələrin dəyişkənliyi Şirvanşahlardan da yan keçmirdi.

Siyasi səriştə, şeyx, ittifaq, Şəki hakimliyi

XIV əsrin 80-ci illərində Şirvanşahlar dövlətinin daxili vəziyyəti ağırlaşdı. Şirvanşah Huşəngin zülmü xalqın güzəranını pisləşdirdi. Nəinki sadə insanlar, hətta imtiyazlı təbəqələrin nümayəndələri də hökmdardan narazı idilər. Narazılıq artaraq üsyana səbəb oldu. Huşəng öldürüldü. Şirvan taxtı boş qaldı. Əyanlar məşvərətə yığışdılar. Qərara gəldilər ki, Huşəngin əmisi oğlu Şeyx İbrahimi hökmdar taxtına gətirsinlər. Şeyx İbrahim Şəkidəki mülkündə sadə həyat tərzi keçirirdi.

Müstəqillik və daxili müstəqillik anlayışlarını izah et.



*I İbrahim*

I İbrahimin siyasi addımını necə qiymətləndirirsən? Müzakirə edin.

1382-ci ildə Şeyx I İbrahim Dərbəndi Şirvanşah elan olundu. Onun babaları bir zamanlar Dərbənd hakimi olduğundan I İbrahim və davamçıları tarixdə Dərbəndilər kimi məşhurlaşdılar.

I İbrahimin hakimiyyəti dövründə Şərq ölkələrində siyasi vəziyyət Əmir Teymurun yürüşləri ilə əlaqədar olaraq kəskinləşdi. Şirvanşahlar iki təhlükə arasında qaldı: şimaldan Qızıl Ordunun, cənubdan isə Teymurilərin yürüşləri. I İbrahim ölkəsini qorumaq üçün iki xarici təhlükədən biri ilə ittifaq bağlamaq qərarına gəldi. O, haqlı olaraq, düşünürdü ki, Qızıl Ordu xanı Toxtamış daha yaxın təhlükədir. Əgər o, Şirvanı zəbt etsə, Şirvanşahların hakimiyyətinə son qoya bilər. Əmir Teymur isə uzaqdan gəldiyinə görə Şirvanı idarə etmək üçün ona etibarlı bir adam lazım olacaq. Nəhayət, 1386-cı ildə Əmir Teymur Qarabağda olarkən I İbrahim xüsusi hədiyyələrlə onun hüzuruna getdi. Şeyx I İbrahim siyasi səriştəsi nəticəsində Əmir Teymurla ittifaq bağladı. Əmir Teymur Şeyx I İbrahimi Şirvanın hakimi kimi tanıdı və şimal sərhədlərinin qorunmasını ona tapşırdı. Beləliklə, Şeyx I İbrahim Şirvanı yürüşlərdən xilas etdi və dövləti siyasi və hərbi cəhətdən qüvvətləndirə bildi.

Şirvanşahlar dövlətinin qoşunu Teymurilərin Qızıl Ordu dövlətinə yürüşlərində yaxından iştirak etdi.

Əmir Teymur öldükdən sonra (1405) Azərbaycan Teymurilərin, Şirvanşahların, Cəlairilərin və Qaraqoyunluların mübarizə meydanına çevrilmişdi. Bu zaman Şirvanşah I İbrahim Teymurilərin zəifləməsindən istifadə edərək Azərbaycanı birləşdirmək fikrinə düşdü. O, Teymurilərə qarşı xalq hərəkatından yararlanıb Gəncəni və Qarabağın xeyli hissəsini tutdu.

## AZƏRBAYCAN XIII–XV əsrlərdə




1406-cı ildə Təbrizdə üsyan baş verdi. Üsyançılar şəhəri tutdular və yardım üçün Şirvanşah I ibrahimə müraciət etdilər.

I ibrahim may ayında Təbrizə daxil oldu. Əhali onu öz hakimi kimi qarşıladı. Beləliklə, I İbrahim Azərbaycanı öz hakimiyyəti altında vahid halda birləşdirə bildi. Lakin qısa müddət sonra onun Azərbaycanı birləşdirmək siyasəti ciddi maneələrlə üzləşdi.

İbrahimin Azərbaycanı vahid halda birləşdirmək siyasətinə, səncə, hansı amillər mane olurdu?

Mübarizədən dönməyən Şəki. Şəki XIII— XIV əsrlərdə Şirvanşahlar dövlətinin tabeliyində idi. Bu əsrlərin qovşağında Şəkini (Qarabağ, Muğan və Arranla birlikdə) Hülakülərin vəziri Fəzlüllah Rəşidəddinin oğlu Cəlal idarə edirdi.

Hülakü dövlətinin tənəzzülü və parçalanması nəticəsində Şəki feodalları daxili müstəqillik əldə etdilər. Hakimiyyəti Oyrat sülaləsi ələ keçirdi. Onlar ölkənin siyasi həyatında yaxından iştirak edərək öz müstəqilliklərini qorumağa çalışırdılar.

Seydi Əli ilə Seydi Əhmədin apardığı siyasəti müqayisə et. Səncə, hansı doğru siyasət aparırdı?

Əmir Teymur ilk yürüşü zamanı Şəki hakimliyi üzərinə qoşun göndərdi. Ətraf ərazilər, eləcə də Şəkinin dağlıq əraziləri qarət edildi. Şəki hakimliyi itaət altına alındı. Lakin Əmir Teymur Azərbaycanı tərk etdikdən sonra Şəki hakimi Seydi Əli itaətdən boyun qaçırdı. Teymurun ikinci yürüşü zamanı o, Şəkini tərk etməli oldu. Teymurun qoşunları Şəkini və ətraf əraziləri qarət edib dağıtdılar.

Seydi Əli Teymurilərə qarşı mübarizəni davam etdirdi. O, gürcü feodalları ilə ittifaqa girib Əlincəyə yola düşdü. Əlincədə mühasirədə olan Cəlairilərə kömək edən müttəfiqlər Teymurilərə qalib gəldilər. Lakin Teymurilərin Şəkiyə növbəti yürüşü zamanı Seydi Əli həlak oldu. Onun yerinə oğlu Seydi Əhməd keçdi. Əmir Teymur yenidən Azərbaycana gələn zaman o, Şirvanşah I İbrahimin vasitəçiliyi ilə Teymurun hüzuruna getdi və qiymətli hədiyyələr apardı.

## ŞƏKİ HAKİMLİYİ




Teymur atasının günahlarını Seydi Əhmədə bağışladı və onu Şəki hakimi kimi tanıdı.

Bundan sonra Şəki hakimliyi uzun müddət müstəqilliyini qoruyub saxlaya bildi. Şəki yenidən daxili müstəqilliyə nail oldu.

1. *XIII əsrdə Şirvanşahlar dövlətinin vəziyyəti necə idi?*
2. *Toxtamış və Teymurun yürüşü zamanı Şirvan yaranmış ağır siyasi vəziyyətdən necə çıxdı?*
3. *Şəki hakimliyi nə vaxt yaradıldı?*

1. *I İbrahimin siyasi səriştəsi ilə Cavanşirin xarici siyasətini müqayisə et.*
2. *Şəki hakimi Seydi Əlinin mübarizəsini təhlil et.*
3. *Təbriz əhalisinin I İbrahimə müraciətinin səbəbini əsaslandır.*
4. *XIII əsr Azərbaycan tarixində Şirvanşahların rolunu şərh et.*

# 19. YADELLİLƏR MƏDƏNİYYƏTİMİZİN İNKİŞAFINI DAYANDIRA BİLMƏDİ



Məktəbdə keçirilən «Tarix həftəsi» günlərində şagirdlər həvəslə iştirak edirdilər. Onlar tarixi mövzularda şəkillər çəkmiş, divar qəzetləri hazırlamış, qədim əşyalar toplamışdılar. Təşkil olunmuş sərgidə Günelin düzəltdiyi maket xüsusilə seçilirdi. Silindr formasında olan bu maketin yanında qısa məlumat yazılmışdı: «Bərdə türbəsi. XIV əsr». Günel məktəbə gəlmiş qonaqlara maketdə təsvir olunmuş abidənin tarixi haqqında geniş məlumat da verdi.

*Səncə, tarixi abidələr dövrün mədəniyyəti haqqında hansı məlumatları verə bilər? Ehtimallarınızı müzakirə edin.*

Şəriət dərsi, hürufilik, Mahmud Şəbüstəri, memarlıq ənənəsi, «Ərk qalası»

***Təhsil və elm ölkəsi.*** İlk monqol yürüşləri Azərbaycanda mədəniyyətin inkişafına müəyyən zərbə vursa da, onun tərəqqisini dayandıra bilmədi. Hülakülər dövründə ölkənin mədəni həyatı, təhsil, elm canlandı. Yadellilərin hücumları xalqımızın yüksək mədəniyyətini məhv edə bilməmişdi.

Hülakülər dövlətinin mövcudluğu dövründə elm və təhsilin inkişafını nə ilə əlaqələndirərsən?

Azərbaycanda təhsil məktəb və mədrəsələrdə verilirdi. Məktəblərdə şəriət dərsləri keçilir, Qurani-Kərimin qiraətlə oxunması öyrədilirdi. Mədrəsələr, əsasən, orta təhsil verirdi. Burada dini və dünyəvi elmlər tədris olunurdu. Azərbaycanın inkişaf etmiş şəhərlərində mədrəsələr fəaliyyət göstərirdi. Bağdadın Nizamiyyə mədrəsəsindən sonra Şərqin ikinci ali təhsil ocağı kimi qiymətləndirilən Təbriz ali mədrəsəsi Fəzlüllah Rəşidəddin tərəfindən təsis edilmişdi. Onun yazdığı məktublardan məlum olur ki, Təbriz ali mədrəsəsində minlərlə tələbə təhsil almış və onların əksəriyyəti digər ölkələrdən gəlmişdi. Burada təbiət elmləri, fəlsəfə, təbabət, tarix, astronomiya, ilahiyyat və digər elmlər tədris olunurdu.

Onlarla əsərin müəllifi olan Fəzlüllah Rəşidəddin həm dövlət, həm elm xadimi, həm də tanınmış təbib idi. Bununla yanaşı, o, tarix elminin bilicisi olmuş, «Came ət-təvarix» («Tarixlər toplusu») əsərində Hülakülərin hakimiyyəti dövrünü işıqlandırmışdı.

XIII—XIV əsrlərdə Azərbaycanda elmin bütün sahələrində inkişaf baş verdi. Dövrün dahi alimi Nəsirəddin Tusi astronomiya, fəlsəfə, riyaziyyat və digər elmlərə aid şah əsərlərini yaratdı. Onun təşəbbüsü ilə Marağa rəsədxanası tikilib istifadəyə verildi. Burada 100-dən artıq alim çalışır, göy cisimlərini tədqiq edirdi. Nəsirəddin Tusi həm də dövlət xadimi idi. O, Hülakü xanın məsləhətçisi, sonra isə Abaqa xanın vəziri olmuş, dövlət idarəçiliyində yaxından iştirak etmişdir. «Elm ölkəsinin şahı» adlandırılan Nəsirəddin Tusi «Zic Elxani» («Elxani cədvəlləri»), «Əxlaqi-Nasiri» («Nasirin əxlaqa aid kitabı») kimi əsərləri ilə elm tarixində iz qoydu.

Şairlər ədəbiyyat sahəsində əvvəlki ənənələri davam etdirirdilər. Şeirlər təkcə fars və ərəb dillərində deyil, Azərbaycan dilində də yazılırdı. Azərbaycandilli klassik poeziyanın ilk nümayəndəsi Həsənoğlu Şeyx İzzəddin (XIII əsr) olmuşdur. Onun ana dilində yazılmış iki qəzəli məlumdur.

XIV əsrin sonlarında Azərbaycanda hürufilik adlı fəlsəfi cərəyan yarandı. Bu cərəyanın banisi böyük Azərbaycan mütəfəkkir şairi Fəzlüllah Nəimi idi. Hürufilik Azərbaycandan Türkiyə, İran, İraq, Suriya və digər şərq ölkələrinə yayıldı.



*Fəzlüllah Rəşidəddinin abidəsi. İran*

***Tapşırıq***
Sadalanan əsərləri dəyərləndirib münasibətini bildir.



*Nəsirəddin Tusi. Rəssam Nəcəfqulu İsmayılov*



*Fəzlüllah Nəiminin məqbərəsi. Naxçıvan*

«Nəsimi» bədii filminin müzakirəsini keçirin. Filmdə hürufilər nəyə görə təqib olunurlar?



*İmadəddin Nəsiminin abidəsi. Bakı*

XIV əsrdə yaşayıb-yaratmış böyük şairimiz İmadəddin Nəsimi hürufiliyin görkəmli nümayəndəsi, Fəzlüllah Nəiminin ən yaxın məsləkdaşı idi. Hürufilər ərəb hərflərinin ilahiliyinə, Allahın iki təzahüründən birinin məhz hərflərdə olduğuna inanırdılar. Bu hərəkat Azərbaycanda geniş yayılmış və ədəbiyyatda xüsusi yer tutmuşdu. Nəsimi hürufilik ideyalarını öz şeirləri ilə təbliğ edirdi.

XIII əsrdə «Azərbaycan dili» ifadəsi işlənməyə başladı. Bu dövrdə lüğətlər yarandı. Lüğətlərdə minlərlə Azərbaycan sözləri və terminləri izah olunurdu. Azərbaycan dilinin qrammatikasına aid əsərlər yazılmağa başlandı. Dilçilik sahəsində Hinduşah Naxçıvani, onun oğlu Məhəmməd Naxçıvani xüsusilə seçilirdilər.

Azərbaycan mütəfəkkiri Mahmud Şəbüstərinin fəlsəfə, məntiq, psixologiya, hüquq və digər sahələri əhatə edən əsərləri bütün Şərqdə yüksək qiymətləndirilirdi.

***Şərq memarlığının vətəni.*** Hülakülərin hakimiyyəti dövründə Azərbaycanda memarlıq daha da inkişaf etdi. Bu dövrdə yeni şəhərlərin salınması ənənə halını almışdı. Azərbaycanın cənubunda Sultaniyyə şəhəri salınmışdı.

Bu şəhər Hülakülərin paytaxtlarından biri oldu. Hökmdar Məhəmməd Olcaytu Xudabəndənin türbəsi Sultaniyyədə inşa edildi.

Qazan xan Muğanda, Xəzər dənizi yaxınlığında Mahmudabad şəhərini saldırdı. Şəhərin inşasında yerli memarlar iştirak etmişdi.

Abşeron memarlıq abidələrindən olan Nardaran, Ramana və Mərdəkan qalaları ümumi quruluşu və ornamentləri ilə fərqlənirdi.

Hökmdarların, onların ailə üzvlərinin, din xadimlərinin və digər görkəmli şəxslərin qəbirləri üzərində möhtəşəm türbələrin inşası ənənə halını almışdı. Bərdə türbəsi, Naxçıvandakı Gül üstan türbəsi, Qarabağlar memarlıq kompleksindəki Baştağ türbəsi dövrün memarlıq xüsusiyyətlərini daşıyır.

«Ərk qalası» adını almış Təbrizdəki Əlişah məscidi ibadət ocağı olmaqla yanaşı, əhalinin sığınacaq yeri idi. Möhtəşəm divarlarla əhatə olunan bu məscid Təbriz əhalisini dar gündə düşmənlərdən qoruyurdu.

**Dünya muzeylərini bəzəyən sənət nümunələrimiz.** XIII—XIV əsrlərdə Azərbaycanda incəsənət də inkişaf edirdi. Azərbaycan xalçaları dünya bazarlarında şöhrət qazanmışdı.

***Tapşırıq***
İKT-dən istifadə edərək memarlıq abidələri haqqında ətraflı məlumat topla.

***Tapşırıq***
Şəkli verilmiş abidələrin memarlıq xüsusiyyətlərini müəyyənləşdirib dəftərinə qeyd et.



*Ramana qalası*



*Məhəmməd Olcaytunun türbəsi*



*Orta əsr Azərbaycan xalçası*

Xalçaçılıq sənəti ilə yanaşı, bədii miniatür sənəti də tərəqqi edirdi. Xalçaların ilmələrinə bəzək vuran miniatür rəsmlər kitablara da xüsusi gözəllik verirdi. Şərqin ən məşhur miniatür mərkəzlərindən biri Təbriz şəhəri idi. Təbriz xəttatlarının ərsəyə gətirdikləri əlyazma kitablar bu gün də dünya muzeylərində, o cümlədən İstanbul şəhərindəki kitabxanalarda saxlanılır.

Metalişləmə sənəti də inkişaf edirdi. Təbriz ustalarından Yusif ibn Əhmədin 1319-cu ildə hazırladığı bədii naxışlı kasa Londonun Viktoriya və Albert Muzeyində nümayiş etdirilir. Usta Əbdüləziz ibn Şərafəddinin 1399-cu ildə düzəltdiyi irihəcmli tiyan isə Sankt-Peterburqun Ermitaj Muzeyində saxlanılır.

1. *Yadellilərin işğalları mədəniyyətə necə zərbə vururdu?*
2. *«Elm ölkəsinin şahı» adına layiq görülən alimin xidmətləri nədən ibarət idi?*
3. *Hürufilik haqqında Nəsiminin və digər şairlərin əsərlərindən mənbə kimi məlumat almaq mümkündürmü?*

1. *XIII—XIV əsrlərdə Azərbaycan mədəniyyətinin inkişaf xüsusiyyətlərini müəyyən et.*
2. *İntibah dövrünün memarlığı ilə XIII—XIV əsrlərin memarlığı arasında oxşarlığı izah et.*
3. *Müasir dövrdə qalaların, türbələrin inşası nəyə görə aktuallığım itirmişdir? Fikrini əsaslandır.*

# VAHİD AZƏRBAYCAN UĞRUNDA

## 20. QARAQOYUNLU DÖVLƏTİ



Xaqan istirahət günlərindən birində atası ilə Tarix muzeyinə getmişdi. Muzeydəki eksponatlar onu heyrətə salmışdı. Birdən onun gözləri qeyri-adi bir eksponata sataşdı: — Ata, bu nə maraqlı heykəldir?! — Oğlum, bütün bunları tarix dərslərində öyrənəcəksən? İgid, döyüşkən tayfalarımızın hər birinin öz totemi* olub. Qoç güc və igidlik simvoludur. Ulu babalarımızdan qaraqoyunluların və ağqoyunluların totemi qara və ağ qoç olub. Qoç igid, Qoç Koroğlu ifadələri də elə bununla bağlıdır. Yaxın keçmişə qədər indiki Ermənistan ərazisindəki qəbiristanlıqlarda da çoxlu qoç heykəlləri var idi. Lakin həmin qoç heykəlləri düşmənlərimiz tərəfindən məhv edilmişdir!

*Düşün, Ermənistan ərazisindəki xalqımıza aid qoç heykəlləri nə üçün kütləvi surətdə məhv edilmişdir?*

Qaraqoyunlular, Qara Yusif, ara müharibələri, Ərəb İraqı, təzminat

***Kiçik bəylikdən güclü dövlətə doğru.*** Azərbaycanın tarixində mühüm rol oynamış və xalqımızın təşəkkülündə yaxından iştirak etmiş tayfalardan biri də qaraqoyunlular olmuşdur. Oğuz tayfaları olan baharlıların idarə etdiyi qaraqoyunlu tayfasının adı həmin tayfanın totemi sayılan «qara qoç»la bağlıdır. Tarixi mənbələrdə qaraqoyunluların VI əsrin sonlarında Azərbaycanda məskunl aşması göstərilir. İlk oğuz-türk axınları zamanı ölkəmizə gələn bu tayfanın mərkəzi vilayəti Van gölündən şimalda Ərciş olmuşdu.

***Totem** — tayfanın himayəçisi sayılıb sitayiş edilən heyvan (bəzən isə bitki)*



*Misir hakiminin zindanında*

***Tapşırıq***

İllüstrasiyaya əsasən tarixi hadisəni və onun iştirakçılarını, şərait və mühiti

***Tapşırıq***

Van gölü indi hansı dövlətin ərazisində yerləşir? Xəritəyə əsasən müəyyən et.

Monqol işğalları dövründə isə yerini dəyişməyə məcbur olan qaraqoyunlular Kiçik Asiyanın digər yerləri, İraq və Suriyada məskunlaşmışdılar.

Şərqi Anadoluda bəylik yaratmış qaraqoyunlu Bayram Xoca Cəlairilərin sultanı Üveysin sarayında nüfuzlu əmirlərdən biri idi. Onun oğlu Qara Məhəmməd bəyliyi daha da gücləndirdi və mərkəzi Van olmaqla Qaraqoyunlu dövlətinin əsasını qoydu. 1387-ci ildə Əmir Teymur Qaraqoyunlular üzərinə hücuma keçdi. Qara Məhəmməd onun qüvvələrini məğlub etdi. Əmir Teymur geri — İrana dönməyə məcbur oldu.

Qara Məhəmmədin ölümündən sonra oğlu Qara Yusif hakimiyyət başına keçdi. Atasının mübarizəsini davam etdirən Qara Yusif Van şəhərinə hücum edən Teymurilərlə döyüşə girdi. Teymuri qoşunu Qaraqoyunluları məğlub edərək Vanı ələ keçirdi.

**AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİ (1410–1468-ci illər)**




Bu hadisədən sonra Qara Yusif Cəlairi Sultan Əhmədlə yaxınlaşdı.

Bundan narahat olan Əmir Teymurun əmri ilə onlar Misirdə həbs edilib zindana salındılar. Teymurun ölümündən sonra azad olan müttəfiqlər birgə mübarizə aparmağa başladılar. Onlar 1406-cı ildə Bağdadı ələ keçirdikdən sonra Təbrizə doğru irəlilədilər. Teymurilərin müqavimətinə rast gələn Qara Yusif onları tezliklə Şənbi-Qazan döyüşündə məğlub etdi. 1408-ci ildə Sərdrud adlı yerdə Qara Yusifin qüvvələri Teymuriləri yenidən məğlub etdi. Bununla Azərbaycanın

Müttəfiqlərin birgə mübarizə aparmağına səbəb nə idi?

cənubu Qaraqoyunluların əlinə keçdi.



*Qara Yusif döyüşdə*

Səncə, Sultan Əhmədən hakimiyyətin təhvil verilməsi haqqında sənədin alınması hansı səbəbdən idi? Fikrini izah et.

Beləliklə, Teymurilər işğal etdikləri Azərbaycan torpaqlarından qovuldular.

Qara Yusifin uğurları və nüfuzunun artması Cəlairi Sultan Əhmədlə münasibətlərini korladı. 1410-cu il Təbriz yaxınlığındakı Şənbi-Qazan adlı döyüşdə keçmiş müttəfiqi Sultan Əhmədi məğlub edən Qara Yusif hakimiyyəti bütünlüklə ələ aldı. O, hakimiyyətin qanuni yolla Qaraqoyunlulara keçməsini sənədi əşdirməyi unutmadı: hakimiyyətdən əl çəkməsi haqqında Sultan Əhməddən yazılı sənəd aldı. Azərbaycanın Kürdən cənubdakı torpaqları, Anadolunun şərq vilayətləri, İran və Ərəb İraqı daxil olmaqla böyük bir ərazidə Qaraqoyunlu dövləti yarandı. Təbriz şəhəri dövlətin paytaxtı oldu. Qara Yusif oğlu Pirbudağı sultan elan etdi.

Pirbudaq qanuni hökmdar olsa da, ölkənin ali idarəçiliyini Qara Yusif öz üzərinə götürdü. O, feodal ara müharibələrinin qarşısını aldı, əyanları onunla hesablaşmağa məcbur etdi.

**Bütün Azərbaycanı birləşdirmək cəhdi.** Qara Yusif bütün Azərbaycan torpaqlarını vahid dövlət halında birləşdirmək məqsədilə diqqəti Şirvana yönəltdi. Qarabağa gələrək I İbrahimi tabe olmağa çağırdı. Şirvanşahlar müstəqilliyini itirmək istəməyib mübarizəyə başladı. 1412-ci ildə Kür sahilindəki döyüşdə Şirvanşah I İbrahim və onun müttəfiqləri məğlub olaraq əsir düşdülər. Bac alaraq I İbrahimi azadlığa buraxan Qara Yusif Şirvanşahları özündən asılı vəziyyətə saldı. I İbrahimdən sonra Şirvanda taxta çıxan I Xəlilüllah Qaraqoyunluların hakimiyyətini tanımadı. O, Teymuri Şahruxla ittifaqa girərək Qaraqoyunlulara qarşı mübarizəyə başladı.



*Cahan şah*

Qara Yusifin qəflətən ölməsi Azərbaycanda siyasi vəziyyəti dəyişdi. Taxta çıxandan sonra onun oğlu İsgəndər Şirvanşahlarla və Teymurilərlə mübarizə aparmağa başladı. 1421-ci ildə İsgəndərin ordusunu da məğlub edən Şahrux bir müddət sonra Azərbaycanı tərk etdi. Şahrux zəbt etdiyi ərazilərdən təkcə xərac almaqla kifayətlənirdi.

Qiyam nədir? Bu anlayışı araşdırıb izah et.

Uzunsürən mübarizədən sonra İsgəndər hakimiyyətdən uzaqlaşdırıldı. Şahruxun köməyi ilə Qaraqoyunlu taxtına onun qardaşı Cahan şah (1436—1467) keçdi. Şahruxun ölümündən sonra Cahan şah dövləti müstəqil idarə etməyə başladı.

O, hərbi islahat keçirərək ordunu gücləndirdi. Şirvanşahlarla dostluq münasibətləri yaratdı.

Cahan şah Teymurilər dövlətində taxt-tac uğrunda mübarizədən istifadə etdi. Əcəm* * İraqını, eləcə də Qərbi və Şərqi İranı ələ keçirərək yürüşü davam etdirib Herata daxil oldu. Onun Herat yürüşündən istifadə edən oğlanları qiyam qaldırdılar. Teymurilərlə barışıq müqaviləsi bağlayıb təzminat* almaqla Azərbaycana qayıdan Cahan şah qiyamları yatırdı.

Cahan şah Qaraqoyunlu dövlətində sabitlik yaratmaq istəsə də, daxili çəkişmələr nəticəsində ölkə zəifləyirdi. Vəziyyətdən istifadə edən Ağqoyunlular hakimiyyəti ələ keçirmək uğrunda mübarizədə daha da fəallaşdılar.

1. *Qaraqoyunlu tayfa ittifaqı necə yarandı?*
2. *Teymurilərlə Qaraqoyunlular nəyə görə düşmənçilik edirdilər?*
3. *Cahan şahın siyasi fəaliyyətinin nəticəsi nə oldu?*

1. *Qaraqoyunlu dövlətinin yaranmasına səbəb olan amilləri təhlil et.*
2. *Qara Yusifin siyasətini şərh et.*
3. *Qara Yusifin ölümündən sonra ölkədəki siyasi vəziyyəti şərh et və səbəbləri göstər.*
4. *Qaraqoyunluların süqutunu tezləşdirən səbəbləri müəyyənləşdir.*

***Əcəm** — orta əsrlərdə ərəb olmayan tayfalara, xalqlara deyilirdi*
***Təzminat** — məğlub dövlətin qalib dövlətə verməli olduğu pul və hədiyyələr*

# 21. AĞQOYUNLU UZUN HƏSƏNİN DÖVLƏT SİYASƏTİ



Müharibə şəraitində yaşamağımıza baxmayaraq, Azərbaycan gündən-günə çiçəklənir. Ölkəmiz sürətlə inkişaf edir. Prezidentimiz İlham Əliyev öz müdrik siyasəti ilə yeni-yeni uğurlara imza atır. Ölkənin birinci xanımı Mehriban Əliyeva ona bu işdə yaxından kömək edir. Bəs sən tarixdə siyasətlə məşğul olan daha hansı məşhur qadınlarımızı tanıyırsan?

*Orta əsrlərdə məşhur diplomat qadın kimi tarixə düşmüş xanım kimdir? O, hansı dövrdə və hansı dövlətdə fəaliyyət göstərmişdir?*



Şəkildəki bayrağı təhlil et. Bayrağın rəngi nəyin rəmzidir? Üstündəki şəkil nəyə bənzəyir? Bayrağın aid olduğu dövlət haqqında nə demək olar? Fikirlərinizi müzakirə edin.

Ağqoyunlular, Uzun Həsən, qanunnamə, müttəfiqlik, Avropa elçiləri

**Diplomat qadının hökmdar oğlu.** Xalqımızın təşəkkülündə mühüm rol oynamış oğuz türkləri olan ağqoyunlular əvvəllər Qafqaz dağları ilə Araz çayı arasındakı Azərbaycan torpaqlarında yaşayırdılar. Erkən orta əsrlərdə Azərbaycanın cənubunda da məskunlaşan bu tayfa Dəclə və Fərat çaylarına

qədər olan ərazilərə, eləcə də Şərqi Anadoluya qədər yayılmışdı. Sonralar onlar Diyarbəkirdə cəmləşmişdilər. Müxtəlif tədqiqatçılar tayfanın adını onların bayrağında təsvir olunan ağ qoç simvolu ilə bağlayırlar. Ağqoyunlulara məxsus qoç heykəlləri formasında tapılan məzar daşları bunu bir daha sübut edir.

Həsən bəyin 1453-cü ildə paytaxtı Diyarbəkir olan Ağqoyunlu bəyliyinin başına keçməsi ilə Ağqoyunlular daha da gücləndilər.




*Uzun Həsən*

*Sultan II Mehmetlə Sara Xatunun tarixi görüşü*



Oğuzlar kimlərdir?

***Tapşırıq***

Trabzonun bu günü haqqında bildiklərini yoldaşlarınla bölüş.

Tarixi ədəbiyyatda ucaboylu, fiziki cəhətdən güclü bir şəxsiyyət olduğu üçün Uzun Həsən kimi tanınan bu dövlət xadimi vahid və qüdrətli Azərbaycan dövləti yaratmaq siyasəti yeridirdi. O, gələcək planlarını həyata keçirmək üçün ilk addım olaraq Trabzon imperiyası ilə yaxınlaşıb imperatorun qızı ilə evlənmişdi. Bunun nəticəsində geniş ticarət əlaqələri quran Ağqoyunlular Trabzon vasitəsilə Qara dənizə əlverişli çıxış yolu da əldə etmişdilər. Qara dənizdə hegemonluq etmək istəyən Osmanlı dövləti Ağqoyunlularm müttəfiqi olan Trabzonun işğalını planlaşdırdı. Osmanlı sultanı II Mehmet Ağqoyunlu Həsən bəylə mübarizəyə Trabzon üzərinə yürüşlə başladı. Sülh yolunu əsas tutan Uzun Həsən anasını — müdrik və uzaqgörən qadın olan Sara Xatunu danışıqlar üçün II Mehmetin düşərgəsinə yola saldı. O zaman Sara Xatun bütün Şərqdə və Avropa ölkələrində tanınan yeganə diplomat qadın idi. Diplomatik danışıq zamanı II Mehmet Sara Xatuna «ana» deyərək müraciət edib, hörmətlə qarşıladı. Ağqoyunlularm hələ güclü olmadığını düşünən Uzun Həsənin danışıqlar zamanı anasına həvalə etdiyi birinci məsələ Sultan II Mehmeti Ağqoyunlularla müharibə etmək fikrindən daşındırmaq idi. Sara Xatun bu məsələnin öhdəsindən bacarıqla gəldi. Lakin o, ikinci məsələ olan — Trabzonun işğalı planından Sultan II Mehmeti daşındıra bilmədi. 1461-ci ildə Trabzon Osmanlılar tərəfindən tutuldu.

Bununla Agqoyunlular Qara dənizə yeganə çıxış yolunu itirdilər. Sara Xatun gəlininin varislik hüququnu önə çəkərək Trabzonun xəzinəsinin bir hissəsini əldə etdi.

Trabzon hadisəsi Osmanlı—Agqoyunlu münasibətini pozdu. Özünə müttəfiq axtaran Uzun Həsən Avropa dövlətlərinə üz tutdu. Avropa ilə ticarət münasibətləri quruldu. Agqoyunlular diplomatik yolla Qaraman bəyliyi, Kipr krallığı, Rodos və Venesiya ilə Osmanlılara qarşı birləşdi. Osmanlıların Venesiya ilə müharibə etdiyi bir vaxtda Agqoyunlular Qaraqoyunlulara qarşı mübarizəyə başladılar. Azərbaycanı qüdrətli mərkəzləşmiş dövlətə çevirmək siyasəti yeridən Uzun Həsən Muş çölündəki döyüşdə Qaraqoyunlu Cahan şahı məğlub etdi. O, 1468-ci ildə Təbriz paytaxt olmaqla geniş ərazili Agqoyunlu dövlətini yaratdı. Çox qısa zamanda Kürdən cənubdakı Azərbaycan torpaqlarına, Şərqi Anadolu, İraq, Qərbi İran və Şərqi Gürcüstana sahib olaraq dövləti imperiyaya çevirdi. Ölkəyə hücum edən Teymuri Əbu Səidi məglub etdi. Teymurilər dövlətini özündən asılı vəziyyətə saldı. Uzun Həsən Tiflis daxil olmaqla Şimal-şərqi Gürcüstanı da ələ keçirdi.

Tiflis hazırda hansı ölkənin ərazisindədir? Müasir xəritəyə əsasən müəyyən et.

Respublikamızın ali qanunu haqqında nə bilirsən?

Mərkəzləşdirilmiş güclü Azərbaycan dövləti yaratmağa çalışan Uzun Həsən ölkədə odlu silahlar istehsalına başlamaq istəyirdi. Bunun üçün qərb ölkələrinə müraciət etmişdi. Uzun Həsən uzaqgörən dövlət xadimi kimi qızılbaş hərəkatının gücləndiyini görürdü. O, ölkədə dini parçalanmanın qarşısını almaq üçün bacısını Şeyx Cüneyd Səfəviyə, qızını isə Şeyx Heydər Səfəviyə vermişdi.

***«Həsən padşahın Qanunnamə»si.*** Yaradılmış böyük bir imperiyanı idarə etmək güclü siyasət tələb edirdi. Əhalidən və tacirlərdən yığılan vergilər Ağqoyunluların əsas gəlir mənbəyi sayılırdı. Vergilərin ağırlığından narazı qalan xalq tez-tez üsyanlar edirdi. Xalqın narazılığını aradan qaldırmaq və imperiyanı möhkəmlətmək üçün islahatlar keçirən Uzun Həsən xüsusi «Qanunnamə» hazırlatdı. Tarixdə **«Həsən padşahın Qanunnaməsi»** kimi məşhur olan bu «Qanun namə»yə əsasən kəndlilərin verəcəyi vergilərin miqdarı dəqiqləşdirildi.

## AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİ (1468–1501-ci illər)




Müasir dövrdə diplomatik əlaqələr hansı məqsədlərə xidmət edir? Müzakirə edin.

Vergi yığılmasında baş verən özbaşınalıq aradan qaldırıldı. Mərkəzləşmiş vergi sistemi tətbiq edildi. Uzun Həsən feodal özbaşınalığına da son qoydu. Süvari qoşunun sayını artırıb daimi ordu yaratdı. Bütün bunlar imperiyanın güclənməsinə səbəb oldu.

***Xarici siyasətdə uğurlar məkrli qərb diplomatiyasının «toruna düşdü».*** Azərbaycan tarixində orta əsrlərdə Avropa ilə ilk dəfə geniş diplomatik əlaqələr yaradan Ağqoyunlu dövləti olmuşdur.

Avropa dövlətləri ilə münasibətləri davam etdirən Uzun Həsən Venesiya respublikası, Böyük Moskva knyazlığı, Kipr krallığı, Rodos

dövləti və başqa dövlətlərlə diplomatik əlaqələr yaratmışdı.

Onun əsas məqsədi Qara dəniz və Aralıq dənizi vasitəsilə ölkənin Avropa ilə ticarət əlaqələrini nizama salmaq və ordunu odlu silahla təchiz etmək idi.

Ağqoyunlu sarayına Avropadan gələn elçilərin ardı-arası kəsilmirdi. Onların əsas məqsədi isə tamam başqa idi. Qərb dövlətləri qüdrətli Osmanlı imperiyasına qarşı Ağqoyunlulardan istifadə etməyə çalışırdılar. 1472-ci ildə Təbrizdə Venesiya hökuməti ilə Osmanlılara qarşı hərbi ittifaq bağlandı. Osmanlı imperiyasının getdikcə güclənməsindən qorxuya düşən qərb ölkələri öz niyyətinə çatdı. Ağqoyunlu—Osmanlı müharibəsi başladı. Venesiya və digər qərb dövlətləri müttəfiqlik borcunu yerinə yetirmədilər. 1473-cü il avqustun 1-də Ağqoyunlularla II Mehmetin qoşunları Malatyada üz-üzə gəldilər. Döyüş Ağqoyunluların qələbəsi ilə nəticələndi. II Mehmet sülh təklif etsə də, Uzun Həsən onunla razılaşmadı. Malatya döyüşündən düz 10 gün sonra Otluqbeli adlı yerdə rəqiblər arasında növbəti döyüş oldu. Odlu silahlardan istifadə edən Osmanlılar bu döyüşdə qələbə qazandılar.

Qərbin məkrli planı öz nəticəsini verdi. Ağqoyunlu—Osmanlı müharibəsi nəticəsində Osmanlıların Avropanın içərilərinə doğru yürüşü ləngidi. Ağqoyunluların bu müharibədəki məğlubiyyəti dövlətin süqutunu sürətləndirdi. Uzun Həsənin vahid və mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq planı yarımçıq qaldı.

***Tapşırıq***

Müasir dövrə aid siyasi xəritədən istifadə edərək Ağqoyunlu dövlətinin ərazisində bu gün hansı dövlətlərin mövcud olduğunu müəyyənləşdir.

1. *Tayfa başçısı Uzun Həsənin dövlət yaratmaq üçün atdığı addımlar hansılar idi?*
2. *Ağqoyunluların Avropaya qapı açmaqda əsas məqsədi nə idi?*
3. *Qaraqoyunlu Yusiflə Uzun Həsənin oxşar cəhətləri hansılardır?*

1. *Sara Xatunun diplomatik qabiliyyətini əsaslandır.*
2. *Avropa dövlətlərinin məkrli siyasətini müzakirə edin.*
3. *«Həsən padşahın Qanunna mə»sinin prinsiplərini müəyyənləşdir.*
4. *Ağqoyunlu-Osmanlı müharibələrinin səbəblərini izah et.*

# 22. AĞQOYUNLU DÖVLƏTİNİ SÜQUTA APARAN YOL



Qarabağ müharibəsi əlili Elxan dayı tez-tez ermənilərlə olan döyüşləri yada salıb qəzəblə o hadisələrdən danışırdı. Laçın yaxınlığındakı döyüşlərdən birində məğlub olmağımız isə onu daha çox təsirləndirmişdi. Elxan dayının dediyinə görə, əlavə qüvvənin gəlməməsi, silah azlığı, qoşun hissələrinin nizamsızlığı və hakimiyyətdəki daxili çəkişmələr yurdumuzun bu səfalı guşəsinin — Laçının süqutuna səbəb oldu.

*Səncə, Ağqoyunlu dövlətinin süqutunu tezləşdirən səbəblər nə idi? Fikrini bildir.*

Osmanlılarla müharibəyə girən Ağqoyunlu dövlətinin vəziyyəti necə oldu? Ölkədəki vəziyyətin gərginləşməsinə səbəb nə idi? Uzun Həsəndən sonra bu dövlət əvvəlki gücünü saxlaya bildimi? Baş vermiş proseslərdən istifadə etmək istəyənlər kim oldu?

Sultan Yaqub, qızılbaşlar, dərviş, orden (təşkilat), idarəçilik

Sultan Yaqub nəyə görə qızılbaşları təqib edirdi?

Hakimiyyətə can atan qızılbaşlar. Osmanlılarla müharibədə məğlubiyyət Ağqoyunlu dövlətinin daxilində hakimiyyət uğrunda mübarizəni gücləndirdi. Ölkədə bir sıra qiyamlar baş qaldırdı. Uzun Həsən vəziyyəti sabitləşdirmək üçün hərbçilərə torpaqlar payladı. 1478-ci ildə onun ölümü daxili ziddiyyətləri artırsa da, taxta çıxan oğlu Sultan Yaqub ölkədəki vəziyyəti düzəltməyə çalışırdı. Elm və maarifə qayğı göstərən Sultan Yaqub Şirvanşahlarla münasibətini yaxşılaşdırdı. O dövrdə güclənməkdə olan Ərdəbil hakimliyi ilə münasibətlər isə pisləşməyə başladı.

Hələ XIII əsrdə Ərdəbildə kəndliləri və sənətkarları birləşdirən Sufi dərviş ordeni* yarandı.

***Dərviş ordeni** — el-el, oba-oba gəzib İslamın şiə (İslamda məzhəb) təriqətini təbliğ edən ruhani təşkilatı*



*Şeyx Səfi məqbərəsi. Ərdəbil*

Ordenin yaradıcısı Azərbaycanın qədim əsilzadə türk nəsillərindən olan Şeyx Səfiəddin idi. Özlərinə inamı artıran Səfəvi şeyxləri mövqelərini getdikcə gücləndirirdilər.

Müxtəlif vədlərlə xalqın rəğbətini qazanan Səfəvilər Şirvan və Dağıstana yürüşlər etdilər. Məğlub olaraq Ərdəbilə qayıdan müridlərin başına Şeyx Heydər keçdi.

O, Ağqoyunlularla münasibəti daha da möhkəmlətmək üçün dayısı Uzun Həsənin qızı Aləmşah xatunla evləndi. Uzun Həsən onu böyük təntənə ilə Ərdəbildə taxta oturtdu. Onun dövründə Səfəvi tərəfdarları başlarına imamların şərəfinə 12 qırmızı zolaqlı çalma qoyurdular. Ona görə onlara qızılbaşlar da deyirdilər. Şeyx Heydər Sultan Yaqubun razılığı ilə Şirvana və Dağıstana iki dəfə yürüş etmişdi.

Şeyx Heydərin Şirvan və Dağıstana uğurlu yürüşləri Sultan Yaqubu narahat etdi. O, qüvvətlənməkdə olan Səfəvilərə qarşı Şirvanşahlara kömək etdi. 1488-ci ildə Şahdağın ətəyində baş vermiş döyüşdə qızılbaşlar məğlub oldu, Şeyx Heydər öldürüldü.

Sultan Yaqubun ölümündən sonra Ağqoyunlu sarayında hakimiyyət uğrunda mübarizə daha da şiddətləndi. Bu mübarizədə taxta çıxan

**9**

XVI əsrdə xalq təfəkkürü yenə də coşqun gərginlik içərisində çırpınırdı. Şiə ideyaları yenidən ortaya çıxmışdı: xalq həsrətində olduğu xilaskar — Mehdi, yaxud İmam intizarı ilə yaşayırdı. Kiçik Asiyada güclü təşviqat aparılırdı. Dərviş dəstələri

Rüstəm padşah (1492—1497) hakimiyyətini möhkəmləndirmək üçün feodallara soyurqal adlanan torpaqlar paylamağa başladı. O, Ərdəbil hakimliyinə Şeyx Heydərin böyük oğlu Sultanəlini gətirdi.

ölkəni gəzib dolaşır, əhalini həyəcana salırdı...



*Ərdabil şahari*

***Tapşırıq***

Əsaslandır: müasir şəkildirmi?

***Tapşırıq***

Uğurlu Məhəmmədin bu addımının səhv olmasını sübut et.

Sonradan Səfəvi tərəfdarl arının artması Rüstəm padşahı da narahat etdi.

1494-cü ildə Şəməsi adlanan yerdə qızılbaşlarla onların keçmiş müttəfiqləri olan Ağqoyunlular arasında vuruşma oldu. Döyüşdən əvvəl Sultanəli qızılbaş əmirlərinin yığıncağında yeddi yaşlı İsmayılı Səfəvi ordeninin başçısı kimi özünə varis təyin etdi. Şəməsi döyüşündə qızılbaşlar Rüstəm padşahın qoşunlarına məğlub oldular. Sultanəli öldürüldü.

***Dağılmaqda olan dövlətin parçalanması.*** Əslində, Rüstəm padşah köçəri hərbçi feodal dəstələrinə torpaqlar verməkdə böyük səhv etmişdi. Ölkədəki gərgin vəziyyətdən istifadə edən feodallar ona qarşı çıxıb müstəqil olmağa çalışırdılar.

Bu vəziyyətdən Osmanlı imperiyası da istifadə etdi. Vaxtilə Uzun Həsənin atasına qarşı qiyam qaldırmış oğlu Uğurlu Məhəmməd Sultan II Mehmet tərəfindən himayə edilmişdi. O, Uğurlu Məhəmmədi öz qızı ilə evləndirmişdi. Bu nikahdan doğulan Əhmədi Osmanlılar Ağqoyunluların qanuni varisi kimi Azərbaycana göndərdilər. Tarixdə Gödək Əhməd adı ilə tanınan bu Ağqoyunlu şahzadəsi Təbrizə daxil oldu. O, 1497-ci ildə Rüstəm padşahı məğlub edərək Ağqoyunlu taxtına əyləşdi. Xalqa arxalanan Gödək Əhməd dövləti möhkəmləndirməyə cəhd göstərdi. Əhalinin vəziyyətinin yaxşılaşması üçün islahatlar keçirdi. İyirmiyədək vergi və mükəlləfiyyəti ləğv etdi. Köçəri-hərbçi əyanların özbaşınalığının qarşısını almağa çalışdı.

Əhalinin vəziyyətini yaxşılaşdırmaq üçün dövlət başçımız hansı tədbirlər görür?

Bu addımlar iri feodal əyanlarının mənafeyinə zidd idi. Nəticədə Gödək Əhmədə qarşı yönəlmiş feodal qiyamları onun yeddiaylıq hakimiyyətinə son qoydu. Döyüşlərin birində Gödək Əhməd öldürüldü. Taxt-tac uğrunda mübarizə yenidən qızışdı. Bu mübarizə ölkənin iki hissəyə parçalanmasına səbəb oldu. 1500-cü ildə Ağqoyunlu Murad və əmisi oğlu Əlvənd arasında Təbriz yaxınlığındakı Əbhər adlı yerdə ölkənin iki hissəyə bölüşdürülməsi barədə saziş imzalandı.

Feodal ara müharibələrinə daha hansı yolla son qoymaq olardı? Əsaslandır.

***Tapşırıq***
Venn diaqramında Ağqoyunlularla Qaraqoyunluları müqayisə et.

**XV əsrdə Azərbaycanda dövlət idarəçiliyi.** Həm Qaraqoyunluların, həm də Ağqoyunluların hakimiyyəti dövründə Azərbaycan torpaqları paytaxt Təbrizdən idarə olunurdu. Hakimiyyət başında duran şəxs sultan və ya padşah adlandırılırdı. Ordunun baş komandanı əmir-əl-üməra (əmirlər əmiri) titulunu daşıyırdı, onlar padşahdan sonra ikinci şəxs sayılırdı. Sonrakı yerdə sədrəzəm dayanırdı.



*Orta əsr topları*

O, ruhanilərə başçılıq edirdi. Baş vəzir isə ali divana rəhbərlik edirdi. Qoşunun ali rəislərinə əmir adı verilirdi.

Vaxtının çoxunu müharibələrdə keçirən hökmdarlar döyüş zamanı zirehli geyim geyinirdilər. Ox və qılıncla silahlanan qoşun, əsasən, kəndli və sənətkarlardan toplanırdı. Orduda odlu silah, top və tüfəng ilk dəfə Ağqoyunluların hakimiyyəti dövründə tətbiq edilmişdi.

Bu dövrdə bir çox torpaq mülkiyyəti formaları mövcud idi. Dövl ətə məxsus olan torpaqlar divan adlandırılırdı. Xass adlanan torpaqlar hakim sülalənin nümayəndələrinə aid idi. Feodallara məxsus torpaqlar mülk, dini torpaqlar isə vəqf adlanırdı. Bu dövrdə köçəri-hərbçi əyanlara xidmət əvəzində soyurqal verilirdi.

***Tapşırıq***
Milli Ordumuzdakı hərbi rütbələr haqqında bildiklərini yoldaşlarınla bölüş.




***Tapşırıq***
Sxemdə göstərilən vergiləri səlcuqlar dövründəki vergilərlə müqayisə et, fərqli və oxşar cəhətləri dəftərinə yaz.

Məhsul vergisi nəyə görə əsas vergi hesab edilirdi?

Bu torpaqlar irsi keçirdi. Soyurqal torpaq mülkünün sahibləri vergi ödəmirdilər. Kəndli və sənətkarlar isə vergi verməyə məcbur idilər.

Kəndlidən malcəhət adlanan məhsul vergisi alınırdı. Sudan istifadəyə görə isə onlar bəhrə vergisi ödəyirdilər. Maldarlardan isə çobanbəyi adlanan vergi toplanırdı. Tacir və sənətkarlar tamğa və bac vergisi ödəyirdilər. Müsəlman olmayanlardan can vergisi də alınırdı.

Vergi və mükəlləfiyyətlərin ağırlığı xalqı var-yoxdan çıxarırdı. Uzun Həsənin hazırladığı «Qanunnamə» vergilərin toplanmasını nizamlayan əsas sənəd idi. «Həsən padşahın Qanunnaməsi» adlanan bu sənəddə əsas vergi məhsulun 1/5 hissəsini təşkil edən malcəhət idi. Amma bu qanunlar da xalqın vəziyyətini yüngülləşdirmədi. Vəziyyətin gərginliyi tez-tez kəndli çıxışları ilə nəticələnirdi. Etirazlar, getdikcə artan qiyamlar dövləti zəifldən amillərə çevrilirdi.

1. *Ağqoyunlu dövlətinin zəifləməsinə səbəb nə oldu?*
2. *Gödək Əhmədin Azərbaycan tarixindəki rolu nədən ibarət idi?*
3. *Səfəvilər kim idi?*
4. *Dövlətin uzunömürlü olmamasının səbəbləri nədir?*
5. *Soyurqalın digər torpaq mülkiyyət formalarından fərqi nədir?*

1. *Uzun Həsənlə Sultan Yaqubun siyasətindəki oxşarlıqları müəyyən et.*
2. *Rüstəm padşahın Səfəvilərə qarşı siyasətinin nəticəsini izah et.*
3. *Səfəvilərin geniş tərəfdaş toplaya bilməsinin səbəblərini araşdır.*
4. *Ağqoyunlu dövlətinin süqut etmə səbəblərini müəyyən et.*

**10**

Uzun Həsən ... 4 noyabr 1474-cü ildə öz qulamları vasitəsilə məni losafat Barbaro (I.Barbaro — 1471 — 1473-cü illərdə Uzun Həsənin sarayında Venesiya səfiri olmuşdur) ilə birlikdə öz yanına çağırtdırdı. Onun olduğu otağa daxil olub onu öz məmurları ilə birlikdə gördük. Mən ölkənin adətinə uyğun olaraq, onun qarşısında təzim etdim, səfərimin məqsədini (məqsəd Venesiya və Ağqoyunlu dövlətinin Türkiyəyə qarşı birgə mübarizəsini təmin etmək idi) izah etdim... Sonra o mənə öz məmurlarının yaxınlığında olan xalının üstündə oturmağı əmr etdi. Bunun ardınca bizə oranın adətincə hazırlanmış çoxlu dadlı yeməli şeylər verdilər... Sonra biz əlahəzrətlə xudahafizləşib öz mənzilimizə qayıtdıq.

Zahiri görünüşünə görə ona (Uzun Həsənə) təxminən 70 yaş vermək olar. O, zarafat etməyi xoşlayır, çox ünsiyyətcildir...

Hündür boyludur, arıqtəhər və qırmızı sifətlidir...

Uzun Həsənin hakimiyyəti altında olan ölkə çox böyükdür. Təbriz paytaxt və Uzun Həsənin iqamətgahıdır...

# 23. MƏRKƏZLƏŞDİRİLMİŞ VAHİD AZƏRBAYCAN DÖVLƏTİ



Bir gün Orxan valideynləri ilə birgə Fəxri Xiyabana getmişdi. Onlar ulu öndərimiz Heydər Əliyevin məzarını ziyarət edib əllərindəki gülləri məzar üzərinə qoydular. Məzarın üzərində gül-çiçəyin çoxluğunu görən Orxan heyrətləndi. Həmin gün sanki şəhər də başdan-başa güllərdən libas geyinmişdi. Orxan atasından bunun səbəbini soruşdu. Atası dedi: — Oğl um, bu gün ulu öndərimiz Heydər Əliyevin anadan olduğu gündür. Xalqımız bu günü bax belə təntənə ilə qeyd edir. Axı o dahi şəxsiyyət parçalanmaqda olan Vətənimizi yumruq kimi birləşdirib.

Arzu edirəm ki, sən də böyüyəndə Vətəninə layiq övlad olasan.

*Tariximizdə vahid dövlət quran hansı şəxsiyyətləri, hökmdarları tanıyırsan? Adlarını dəftərinə qeyd et.*

Ağqoyunlu dövlətinin daxildən zəifləməsi hansı nəticələrə səbəb oldu? XV əsrin sonlarında Azərbaycanın qarışıq siyasi vəziyyəti kimlərin güclənməsinə imkan yaratdı?

***Azərbaycan Səfəvi dövlətinin yaranması.*** Ərdəbildən Ərzincan bölgəsinə gələn qızılbaşlar artıq parçalanmış Azərbaycanı birləşdirmək üçün əvvəlcə Şirvanı tabe etməyi qərarlaşdırdılar. Əgər birbaşa Təbrizə hücum edilərdisə, dərhal üç qüvvə ilə — Ağqoyunlu Əlvənd padşah və Muradla, habelə Şirvanşah Fərrux Yasarla toqquşmalı olardılar. Beləcə qızılbaşlar müqavimətə rast gəlmədən Şamaxını tutdular. Fərrux Yasarla həlledici döyüş Cabanı adlanan yerdə baş verdi. Səfəvi qoşunu qələbə qazandı. Fərrux Yasar döyüşdə öldürüldü. Şirvanşahlar dövlətinin xəzinəsinin bir hissəsi ələ keçirildi. Xəzinənin əsas hissəsi isə paytaxt Bakıda idi. 1501-ci ilin yazında Bakı mühasirəyə alındı.

Ərdəbil, həlledici döyüş, Şah ismayıl Xətai, I Təhmasib, mərkəzləşmiş dövlət

Qızılbaşların Təbrizi ələ keçirməkdə məqsədi nə idi? Fikrini bildir.


*Şah İsmayıl*

Ağqoyunlu Murad padşah Səfəvi dövləti üçün nəyə görə təhlükə hesab olunurdu? Fikrini bildir.

Səfəvilər şəhəri tutdular. Qızılbaşlar Şirvanşahların bütün xəzinəsini ələ keçirdilər. Bu zaman qızılbaşl ara başçılıq edən gənc İsmayıl Ağqoyunlu Əlvənd padşahın Təbrizdən yürüşə başlaması xəbərini aldı. 1501-ci ilin yayında Şərur düzündə Ağqoyunlu Əlvənd padşahla həlledici döyüş oldu. Döyüş Səfəvi qoşununun qələbəsi ilə başa çatdı.

İsmayıl 1501-ci ilin payızında böyük təntənə ilə Təbrizə daxil oldu. Qızılbaş əyanları İsmayılı şah elan etdilər (1501—1524). Şah İsmayılın adına məsciddə xütbə oxundu, onun adına pul l ar zərb edildi. Beləliklə, paytaxtı Təbriz olmaqla yeni bir Azərbaycan dövlətinin — Səfəvi dövlətinin əsası qoyuldu. Səfəvilər dövləti yarandığı gündən etibarən ölkəmizin şimalında Şirvan, Qarabağ, Naxçıvan və Muğanı, cənubda isə Qızılüzən çayına qədərki torpaqları əhatə etmişdi.

Ağqoyunlu Murad padşah Səfəvi dövləti üçün təhlükə olaraq qalırdı. Həmədan şəhəri yaxınlığındakı döyüşdə Ağqoyunlular sayca çox olsalar da məğlub oldular. Ağqoyunlu dövlətinin ikinci qoluna da son qoyuldu. Bununla tarixi Azərbaycan torpaqlarının böyük hissəsi mərkəzi hakimiyyət ətrafında birləşdirildi.

Bundan sonra Şah İsmayıl Xorasan istisna olmaqla bütün İranı da özünə tabe etdi. Səfəvilərin qələbə yürüşləri davam etdi. Bağdad şəhəri daxil olmaqla İraq, Diyarbəkir, Hilat, Bitlis Səfəvi dövlətinə qatıldı. Səfəvi dövləti qərbdə Osmanlı imperatorluğu, şərqdə isə Şeybanilər dövləti ilə həmsərhəd oldu. Osmanlı sultanı II Bəyazid (1481—1512) Səfəvi dövlətini tanıdı. Bu iki ölkə arasında münasibətlər normal olsa da, Şeybanilərlə kəskin münasibət davam edirdi. Şah İsmayıl Şeybanilər üzərinə də yürüş edib qalib gəldi və Heratı, Mərvi, Xorasanı ələ keçirdi.

Səfəvi dövləti şərqdə Amudərya çayından qərbdə Fərata qədər

geniş ərazini əhatə edirdi. Səfəvi imperatorluğu beləcə yarandı.

**SƏFƏVİ İMPERİYASI 1499–1514-cü illərdə**




***Tapşırıq***

Xəritəyə əsasən Səfəvilər dövlətinin sərhədlərinin sxemini qur.

Şah İsmayıl babası Uzun Həsən kimi Qərblə əlaqələri genişləndirdi. Portuqaliya ilə əlaqəyə girib İran körfəzi vasitəsilə Avropadan silah və artilleriya mütəxəssisləri gətirməyə çalışdı. Lakin Qərb diplomatiyası Uzun Həsən zamanında olduğu kimi yaranmış vəziyyətdən öz mənafeyinə istifadə etdi: Portuqaliya fürsətdən istifadə edib Hörmüz boğazını ələ keçirdi. Səfəvilərin Hind okeanına çıxış yolu bağlandı. Odlu silahla təchiz olunan təqribən 100 minlik ordu ilə Sultan Səlim Səfəvi dövləti üzərinə yeridi. Həlledici döyüş 1514-cü ildə Çaldıran düzündə oldu. Çaldıran döyüşü tarixin ən qanlı qardaş qırğım idi. Şah İsmayıl döyüşdə yaralansa da, mühasirə həlqəsini yarıb Təbrizə doğru geri çəkildi. Sultan Səlim Təbrizi tutdu, lakin Şah İsmayılın hücumundan ehtiyat edib şəhəri tərk etdi.

Çaldıran vuruşması türk dünyasının ümumi faciəsi, Qərb diplomatiyasının isə qələbəsi oldu. Çaldıran döyüşü nəticəsində Şərqi Anadolu və Şimali İraq Osmanlı dövlətinin əlinə keçdi.



*Şah I Təhmasib*

***Tapşırıq***

Şah Təhmasibin Osmanlıların hücumlarına qarşı həyata keçirdiyi tədbirləri müzakirə edin.

***Azərbaycanın birləşdirilməsinin başa çatdırılması. Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti.*** Şah İsmayıl Xətainin vəfatından sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524—1576). Şahın kiçikyaşlı olması ölkədə feodallar arasında çəkişmələrin başlanmasına səbəb oldu. Bəzi qızılbaş əmirləri mərkəzi hakimiyyətə itaətdən boyun qaçırırdılar. Osmanlı dövləti isə bu vəziyyətdən istifadə etməkdə idi.

Sultan I Süleyman Qanuninin (1520—1566) hakimiyyəti dövründə Osmanlılar dörd dəfə Azərbaycana yürüş etdilər. Şah I Təhmasib Osmanlı yürüşlərinin qarşısını almaq üçün bir sıra tədbirlər gördü. O, yürüş edilən ərazidə yaşayan əhalini ölkənin içərilərinə köçürdü. Osmanlıların əlinə keçməsin deyə ot-ələf, malqara, yollar, bulaqlar məhv edildi.

I Təhmasib, eyni zamanda paytaxtı da Şərqə — Qəzvinə köçürdü. Osmanlılara meyilli əmirləri itaətə məcbur etdi.

Ordu yenidən təşkil edildi. 1552-ci ildə I Təhmasib müdafiə taktikasından imtina edib fəal hücuma başladı. Səfəvi qoşunu Osmanlı ərazilərinə yürüş edib xeyli qənimətlə geriyə döndü.

Uzunsürən qanlı müharibələrdən sonra Sultan I Süleyman Səfəvi dövləti ilə sülh danışıqlarına getməyi lazım bildi. 1555-ci il mayın 29-da Amasyada Səfəvi—Osmanlı sülh müqaviləsi imzalandı. Sülhün şərtinə görə Şərqi Gürcüstan Səfəvi dövlətinə, Qərbi Gürcüstan isə Osmanlılara verildi. Səfəvi—Osmanlı müharibələrinin birinci mərhələsi başa çatdı.

Şirvanşahlar dövlətinin ərazisi Səfəvi imperatorluğuna qatılmış olsa da, Şirvan əyanları Şahruxu taxta çıxardılar (1535—1538). Gənc şahın təcrübəsizliyindən istifadə edən Şirvan əyanlarının özbaşınalığı artdı. Bu, əhalinin narazılığına səbəb oldu.

1538-ci ildə I Təhmasib Şirvandakı qarışıqlıqdan istifadə edib ora qoşun yeritdi. Şirvan yenidən zəbt edildi. Sonuncu Şirvanşah Şahrux gizli şəkildə edam olundu. Şirvan bəylərbəyiliyə çevrildi. I Təhmasib qardaşı Əlqas Mirzəni Şirvana bəylərbəyi təyin etdi. Beləliklə, Azərbaycanın ən uzunömürlü feodal dövlətlərindən birinin varlığına son qoyuldu.

Şirvanşahlar dövləti nə zaman yaranmışdı?

Şirvan hadisələrində Şəki hakimliyi Şirvanşahları müdafiə edirdi. Buna görə də Şah I Təhmasib Şəki hakimliyinin də müstəqilliyinə son qoymaq qərarına gəldi. 1551-ci ildə I Təhmasib Ərəşə gəlib düşərgə saldı. Qasid vasitəsilə Şəki hakimliyi itaətə dəvət olundu. Lakin Şəki hakimi Dərviş Məhəmməd xanın rədd cavabından sonra Şəki üzərinə hücum edildi. Şəki vilayəti Səfəvi dövlətinin tərkibinə qatıldı. Beləliklə, Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi prosesi başa çatdı. Sacilər, Salarilər, Eldənizlərdən sonra Azərbaycan torpaqları yenidən vahid bir dövlət halında birləşdirildi. Lakin bu əvvəlkilərdən fərqli olaraq, uzunömürlü **mərkəzləşdirilmiş Azərbaycan dövləti** idi. Bu, Azərbaycanın bütün bölgələrinin iqtisadi, mədəni əlaqələrinin yenidən canlanmasına müsbət təsir göstərdi.

Hazırda dövlətimizdə bu işləri idarə edən qurumlar necə adlandırılır?

***Dövlətin idarəçilik sistemi.*** Ölkəyə şah başçılıq edirdi. Dövlətdə şahdan sonra ikinci vəzifəli şəxs vəkil sayılırdı. Vəkil şahın dünyəvi və dini işlər üzrə müavini idi. Şahın yanında məsləhətçi (məşvərətçi) orqan olan Ali məclis təşkil edilmişdi. Ölkənin silahlı qüvvələrinə əmir-əl-üməra adlanan baş komandan başçılıq edirdi. Hərbi qüvvələrin əsasını Azərbaycan türklərindən ibarət çərik adlanan qoşun növü təşkil edirdi. Çərikə qorçubaşı başçılıq edirdi. Maliyyə işlərini vəzir, dini işləri isə sədrəzəm idarə edirdi. Qazılar şəriət əsasında məhkəmə işlərini həyata keçirirdilər.

Azərbaycan-türk dili Böyük Səfəvi imperatorluğunun ərazisində dövlət dili səviyyəsinə yüksəldildi.

Dövlət inzibati cəhətdən bəylərbəyiliklərə, onlar mahallara, mahallar isə şəhər və kəndlərə bölünürdü. Mərkəzi Şamaxı olan Şirvan, mərkəzi Gəncə olan Qarabağ və mərkəzi Təbriz olan cənub torpaqlarından ibarət bəylərbəyiliklər yaradılmışdı. Mahallara naiblər, kəndlərə kəndxudalar başçılıq edirdilər. Kələntər şəhərə rəhbərlik edirdi. Kələntərin tabeliyində olan darğa şəhərdə asayişin qorunmasına cavabdeh idi.

**Ali idarəçilik sistemi**




***Torpaq mülkiyyət formaları, vergilər.*** Səfəvi dövlətində torpaq mülkiyyət formalarında ciddi dəyişiklik baş vermədi. Əvvəllər olduğu kimi əsas torpaq mülkiyyət formaları qalırdı. Səfəvi şahları soyurqal əvəzinə dövlətə xidmət müqabilində tiyul verirdilər. Şərti mülk sayılan tiyul ancaq şahın icazəsi ilə irsi keçə bilərdi. Vergi sistemi də, demək olar ki, olduğu kimi qalırdı.

1. *Səfəvi-Osmanlı toqquşmasının qarşısını almaq mümkün idimi?*
2. *Qızılbaşlar nəyə görə, ilk növbədə, Şirvana yürüş etməyi qərara aldılar?*
3. *Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsinin nə kimi əhəmiyyəti oldu?*
4. *Şah I Təhmasibin hakimiyyətinin ilk illərində ölkədəki daxili vəziyyətin gərginliyinə səbəb nə idi?*

1. *Mərkəzləşmiş dövlətin xüsusiyyətlərini şərh et.*
2. *Səfəvi dövlətinin əvvəlki Azərbaycan dövlətlərindən fərqli cəhətlərini sadala.*
3. *Azərbaycan Səfəvi dövlətinin yaranmasını zəruri edən amilləri izah et.*
4. *Osmanlı yürüşlərinin qarşısını almaq üçün I Təhmasibin həyata keçirdiyi tədbirləri araşdırıb münasibət bildir.*

# 24. AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

> *Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, azərbaycanlılıq hissini yüksəldərik.*
>
> — **Heydər ƏLİYEV**



Hər il iyun ayının 1-də ölkəmizdə Uşaqların Beynəlxalq Müdafiə Günü qeyd olunur. Uşaqların hüquqları dövlətimiz tərəfindən qorunur. Hazırda respublikamızda yaradıcı uşaqların, gənclərin inkişafı üçün hər cür imkan yaradılıb. Ümummilli lider Heydər Əliyevin ənənələrini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə mədəniyyəti, sosial həyatı, təhsili himayə etdiyi kimi, yaradıcı uşaqların inkişafı üçün də şərait yaradır. Bu ənənənin əsası nə zaman qoyulub?

*Dövlətimizin mədəniyyət xadimlərini, istedadlı gəncləri himayə etməsini gələcəyə yönələn addım hesab etmək olarmı? Müzakirə edin.*

XVI əsrdə vahid mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradılması təhsilin, elmin, incəsənətin, mədəniyyətin inkişafına təsir edibmi? Həmin dövrün hökmdarları mədəniyyətimizi himayə edirdilərmi?

Hökmdarlar mədəniyyəti və elmi himayə edir. XV—XVI əsrlərdə bir-birini əvəz edən oğuz mənşəli dövlətlərin yaranması mədəniyyətin inkişafına geniş imkanlar açdı.

Məktəb və mədrəsələrin fəaliyyəti bu dövrdə də təhsilin inkişafını təmin edirdi. Təhsillə bərabər, elm inkişaf edir, oxuyub-öyrənməyə maraq artırdı. Azərbaycanın bir sıra şəhərlərində çoxlu mədrəsə-məktəb var idi. Şah İsmayıl Təbrizdə böyük kitabxana açdırmışdı.

Divanxana, saraykompleks, şəfa evi, qədim kitabxana, bədii miniatür



*Məhəmməd Füzuli*

Füzulinin hansı əsərlərini oxumusan? Səncə, onun əsərlərini dövrün həyatını öyrənmək üçün mənbə hesab etmək olarmı?

*Təbrizdə Göy məscid*



Elm və incəsənətə xüsusi qayğı göstərən I Şah ismayıl Marağa rəsədxanasını bərpa etdirmiş, riyaziyyatçı və astronom Qiyasəddini Marağaya göndərmişdi.

Elmin inkişafı fəlsəfə və tarixin öyrənilməsinə geniş imkanlar açmışdı. Əsərlərindəki dərin fəlsəfi fikirlərə görə Məhəmməd Füzuli öz dövründə dünya poeziyasının zirvəsini fəth etdi.

Tarixçi Həsən bəy Rumlu I Təhmasibin sarayında qulluq etmişdi. Yürüşlərdə iştirak edən tarixçi 12 cildlik «Əhsən-ət-təvarix» («Tarixlərin ən yaxşısı») əsərini yazmışdı. Əsərin dövrümüzə qədər gəlib çatmış 11-ci və 12-ci cildlərində Azərbaycanın və ona qonşu olan ərazilərin XV—XVI əsrlər tarixindən bəhs edilir.

Dövrün digər tarixçisi isgəndər bəy Münşi idi. Səfəvi sarayında divan katibi kimi çalışan alim sonralar I Şah Abbasın tarixçisi olmuşdur. O, «Tarixi-aləm arayi Abbasi» («Abbasın dünyanı bəzəyən tarixi») əsərini yazmış, Səfəvi dövləti və qonşu ölkələrin tarixi barədə maraqlı məlumatlar vermişdir.

Səfəvi hökmdarlarının müdrik siyasəti nəticəsində bu dövrdə fars dilində yazmaq ənənəsi öz yerini Azərbaycan dilinə verdi. Azərbaycan dilində də şeirlər yazılır, şeir məclisləri keçirilirdi. XV əsrdə Azərbaycanın mədəni həyatında hökmdar-şair Cahan şah Həqiqinin böyük xidməti olmuşdur. XVI əsrdə Azərbaycan dilinin böyük Səfəvi imperatorluğunun dövlət dilinə çevrilməsi Azərbaycan dilinin daha da inkişafına səbəb oldu.

XVI əsrdə Şah İsmayılın sarayında ədəbi məclis fəaliyyət göstərirdi. Belə məclislərdə dövrün böyük şairləri toplaşırdı. Şah I İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan dilində şeirlər yazmış, divan bağlamışdı. Azərbaycan poeziyasında ilk dəfə olaraq məhz o, şeirini nikbin misralarla bitirmişdir. Şah İsmayıl Xətai «Qurani-Kərim»in bilicisi olmaqla yanaşı, musiqi alətində ifa etməyi də bacarırdı.

XV—XVI əsrlərdə çoxsaylı tarixi abidələr, məscidlər, hamamlar, karvansaralar, körpülər tikilmişdi. XV əsrdə inşa edilmiş memarlıq abidələrindən biri Bakıdakı Şirvanşahlar saray kompleksidir. Bu kompleksə aid olan divanxana əsl memarlıq incisidir.

1465-ci ildə Qaraqoyunlu Cahan şahın əmri ilə Təbrizdə tikilən Göy məscid özünəməxsus xüsusiyyətləri ilə seçilir. Məscidin divarları üzərində işlənmiş göy rəngli naxışlar günəşin yerini dəyişməsindən asılı olaraq müxtəlif rəng çalarları verir.

Görkəmli Azərbaycan hökmdarı Uzun Həsən quruculuq-abadlıq işlərinə xüsusi qayğı göstərir, görkəmli alimləri himayə edirdi. Onun şəxsi kitabxanasında dövrün görkəmli alimləri tədqiqatlar aparırdılar. Hökmdarın tapşırığı ilə oğuz türklərinin mükəmməl tarixi yaradılmışdı.

1483-cü ildə Ağqoyunlu Yaqub padşahın Təbrizdə tikdirdiyi «Həşt-behişt» saray kompleksində kitabxana, məscid, şəfa evi, cıdır meydanı və xiyaban inşa edilmişdi.

XVI əsrdə indiki Qusar rayonunun Həzrə kəndində tikilən Şeyx Cüneyd məqbərəsi də o dövrün abidəsidir. Naxçıvanda Əlincə çayı üzərində tikilmiş körpü, Bakının şərq darvazaları dövrün memarlıq inciləridir.



*Şeyx Səfi xalçası*

Şah I Təhmasibin sifarişi ilə toxunan Şeyx Səfi xalçası hazırda Londonun Viktoriya və Albert Muzeyində saxlanılır.



*Sultan Məhəmmədin Nizaminin «Xəmsə»sinə çəkdiyi miniatür*

Tarixin yaddaşına dövrün məşhur rəssamlarının adları da yazılıb. Şah İsmayıl görkəmli rəssam Kəmaləddin Behzadı saraya dəvət edərək, onu Təbrizin saray kitabxanasına rəis qoymuşdu.

Təbriz bədii miniatür ustalarının əsərləri bütün Avropanın böyük marağına səbəb olmuşdu. Dövrün ən məşhur miniatür rəssamı Sultan Məhəmmədin əsərləri hazırda Sankt-Peterburq, London, Leypsiq və Venesiya muzeylərində saxlanılır.

Yaxın və Orta Şərqdə geniş yayılan muğam və mahnıların yaradıcısı Əbdülqədir Marağayi musiqiyə aid nəzəri əsərlər də yazmışdır. XVI əsrin məşhur xanəndəsi olan Hafiz Lələ Azərbaycan musiqisinin inkişafında xüsusi rol oynamışdır.

Həmin dövrün görkəmli nümayəndəsi Aşıq Qurbaninin dildən-dilə gəzən dastanları indi də aşıqlar tərəfindən yüksək qiymətləndirilir.

XV—XVI əsrlərdə Azərbaycanda oğuz mənşəli dövlətlərin mövcudluğu, ümumən, Azərbaycan mədəniyyətinin inkişafına müsbət təsir göstərdi. Azərbaycan-türk hökmdarlarının elmə, təhsilə, mədəniyyətə qayğısı bu inkişafı təmin etdi. Mədəniyyətin yüksəlişində Azərbaycan hökmdarlarının müstəsna rolu oldu.

1. *Dövrün siyasi prosesləri mədəniyyətə necə təsir göstərirdi?*
2. *Nə üçün Şirvanşahlar sarayına kompleks deyilir?*
3. *Şeyx Səfi xalçası nəyə görə dünya mədəniyyət incilərindən biri hesab edilir?*

1. *Şah İsmayıl Xətaini mədəniyyət xadimi kimi dəyərləndir.*
2. *Miniatür rəsmlərin fərqli cəhətlərini müəyyənləşdir.*
3. *Azərbaycan hökmdarlarının mədəniyyətimizin inkişafında rolunu təhlil et.*
4. *Dövrün mədəniyyətinə dair şaxələnmə hazırla.*

## MƏNBƏLƏR


1. **Moisey Kalankatlı.** Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, 1993, səh. 117–118
2. Хрестоматия по истории Халифата. Составил и перевел Л.И.Надирадзе. М. 1968, с.13
3. Şamaxı. Bakı, 1994, səh. 6–7
4. **Yaqub Mahmudlu.** Azərbaycan tarixi. İntibah dövrü. Bakı, 1996, səh.14
5. «Oğuznamə»dən
6. **Ziya Bünyadov.** Azərbaycan Atabəyləri dövləti. Bakı, 1985

7-8. **Z.Bünyadov.** Azərbaycan Atabəyləri dövləti. Bakı, 1985, səh.190

9. **O.Əfəndiyev.** Azərbaycan Səfəvilər dövləti
10. Путешественники об Азербайджане (Под. ред. Е.Шахмалиева). Том I, Баку, 1961, стр. 83, 85, 94–95


## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 7 cilddə. II cild. Bakı, 1998. III cild. Bakı, 1999
2. **Bünyadov Z.M.** Seçilmiş əsərləri. 3 cilddə. Bakı, 1999
3. **Əfəndiyev O.Ə.** Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
4. Kitabi-Dədə Qorqud. Bakı, 2004
5. **Mahmudov Y.M.** Azərbaycan diplomatiyası. Bakı, 2006
6. **Mahmudov Y.M.** Azərbaycan. Qısa dövlətçilik tarixi. Bakı, 2005
7. **Mahmudov Y.M.** Azərbaycan tarixi. Erkən İntibah dövrü. Bakı, 2008
8. **Mahmudov Y.M.** Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 2013
9. **Moisey Kalankatlı.** Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, 1993
10. **Muradov V.** Orta əsr Azərbaycan şəhərləri. Bakı, 1983
11. **Nizami Gəncəvi.** Lirika. Bakı, 2004
12. Oğuznamə. Bakı, 1987
13. **Onullahi S.M.** XIII–XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1982
14. **Rəşidəddin Fəzlüllah.** Oğuznamə. Bakı, 1992
15. Путешественники об Азербайджане. Том 1. Баку, 1961
16. Хрестоматия по истории Халифата. Москва, 1968

***Yaqub Mikayıl oğlu Mahmudlu***
***Sabir Əbdül Əziz oğlu Ağayev***
***Babək Ələkbər oğlu Xubyarov***
***Həcər Kamaləddin qızı Əlişova***
***Leyla Əhliman qızı Hüseynova***
***Sevil Şivəxan qızı Bəhrəmova***

AZƏRBAYCAN TARİXİ
*(Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik)*
Bakı, «Təhsil», 2014.

---

Nəşriyyat redaktoru *Məsudə Əvəzqızı*
Bədii və texniki redaktoru *Abdulla Ələkbərov*
Kompüter tərtibatçıları *Səadət Quluzadə, Təhmasib Mehdiyev, Pərvin Məmmədov*
Rəssamı *Gündüz Ağayev*
Korrektoru *Natəvan Məmmədova*

Çapa imzalanmışdır 08.08.2014. Kağız formatı $70x100^{1}/_{16}$.
Ofset çapı. Ofset kağızı. Məktəb qarnituru. Fiziki çap vərəqi 8,0.
Uçot nəşr vərəqi 7,65. Sifariş 85. Tiraj 113450. Pulsuz.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121[A]
e-mail: tahsil_az@yahoo.com